VAHİD QAZİ

# YADDAŞ LƏPİRLƏRİ

## Demokratiya yazıları

MHS POLIQRAF
BAKI – 2011

Redaktorlar: *Hikmət Sabiroğlu, İmran Bədirxanlı*

Üz qabığının dizaynı: *Rauf Kərimli*

**Vahid Qazi**
Yaddaş ləpirləri. Demokratiya yazıları.

Bakı, «MHS – poliqraf», 2011, 140 səh.

Publisist Vahid Qazinin "Yaddaş ləpirləri. Demokratiya yazıları"nda toplanan esselərin, məqalələrin izinə düşüb dünyanın dörd bir yanına getmək olar. Amma apardığı yol axırda gətirib eyni ünvana çatdlracaq səni. Bu dalğa səni Bosniyadan Cənubi Afrikaya, Krımdan Polşaya, Ukraynadan Qırğızıstana, Özbəkistandan Amerikaya aparıb eyni sahilə çıxaracaq. Ağdamdan Ağdərəyə, Şuşaya yön alıb yenə eyni yerə gələcəksən.

Bu ünvan, bu sahil, bu yer – azadlıq dəlisi insandır. Sənsən, əziz oxucu...

İSBN: 978 – 9952 – 459 – 10 – 4

© «MHS – poliqraf», 2011

# MÜNDƏRİCAT

Ön söz yerinə. Cəmil Həsənli: “Qəm naxışları” ....... 4

*Yaddaş ləpirləri*

Ölü şəhərlər muzeyi ........................................ 12
Partlamayan minaların serenadası ...................... 19
Qəmli gözlərin süitasi........................................ 26
Açılmayan süfrənin qonağı ............................... 35
Şərq hüzuru ....................................................... 44
Bekar(a) ömür .................................................... 50
Qara çörəyin ağ üzü .......................................... 54
Özünü axtaranlar ölkəsi və ya
maydan sonra gələn aprel.................................. 58
Şahmat taxtasında beysbol: genosid
düşüncələri ........................................................ 66
Kerolayn Koks, Yelena Bonner və
genosid debatları ............................................... 79
Unudulmaz Gülsarı ........................................... 86
Yelena................................................................ 91

*Demokratiya yazıları*

Ağ Rusiyanın qara taleyi ................................. 103
Susmaq hüququ ............................................... 114
Bizim saziş ...................................................... 119
Rusiya səfirinə məktub.................................... 122
İntibah təməlçiləri ........................................... 125
Xilas missiyalı ölüm ........................................ 129
Cahillər və snoblar .......................................... 133
Demokratiyanın yarımçıq təbəssümü .............. 136

**Ön söz yerinə**

# Qəm naxışları

Qələmindəki dərdlə oxuculara çoxdan tanış olan Vahid Qazinin "Yaddaş ləpirləri. Demokratiya yazıları" əlyazmasını vərəqlədim. Müəllifin uğurlu qələm təcrübəsi kimi ruhumuzu titrədən "Ruhlar şəhəri"ndən sonra nə yazacağı, oxuculara nə təqdim edəcəyi mənim üçün maraqlı idi. Dünyanın müxtəlif ölkələrinə səfər təəssüratlarının maraqlı müşahidələri, ev içində olan söhbətlərin bayırlıq tərəfləri müəllif təhkiyəsində maraqlı görünürdü. Lakin kitab olacaq bu əlyazmada mənim üçün maraqlı süjet xətti bütün mətləblərin Qarabağ dərdi üzərində qurulması idi. Başımıza gələn müsibətlərin ən faciəlisi də budur: Qarabağ olayları nəinki ədəbiyyatımıza, bütövlükdə milli həyatımıza, yaşayışımıza, əxlaqımıza daxil ola bilməyib.

Hərdən mənə elə gəlir ki, bu faciə toylarımızda, şənliklərimizdə Azərbaycan gəncinin, qızının, gəlininin və hətta ziyalısının "Yanıq Kərəm"ə qol açıb oynadığı gündən başladı. Kərəm tarixə yanmaq nümunəsini verdi, biz isə onun hələ bu gün də qövr edən dərdinin külü üstündə rəqs edirik. Bir vaxtlar axına qarşı gedənləri Kərəm kimi yanmaqla qorxudurdular. Vahid Qazinin əlyaz-

masını oxuyanda istər-istəməz Nazim Hikmətin həmişəyaşar bir şeiri yadıma düşdü:

– Sen kendi sesinle kül olursun ey!
Kerem
gibi
yana
yana...
«Deeeert
çok,
hemdert
yok»
Yüreklerin
kulakları
sağır...
Hava kurşun gibi ağır...
Ben diyorum ki ona:
– Kül olayım
Kerem
gibi
yana
yana.
Ben yanmasam
sen yanmasan
biz yanmasak,
nasıl
çıkar
karanlıklar
aydınlığa…

Kitabda yer alan yazıların coğrafiyası və mövzusu çox geniş olsa da, bütövlükdə bu kitab öz əriş-arğacı, öz həşyələriylə dərdin ilmə-ilmə toxunduğu Qarabağ xalısıdır – oxucunu keçmişin bəxtəvər günlərinə qaytaran, bugünkü dərdimizin rəng çalarlarından aynalanan Qarabağ xalısı.

Ayrılığın, həsrətin uzunluğundan yaddaşı korşalmış insanlarımızın, Qarabağın gözəlliklərini gözləri ilə görməyən bu günkü gənclərin yurd həsrətindən mayalanmış belə kitablara böyük ehtiyacı var. Kitabda yer alan "Ölü şəhərlər muzeyi", "Partlamayan minaların serenadası", "Qəmli gözlərin süitası", "Açılmayan süfrənin qonağı" və digər yazılar öz orijinallığı, səmimiliyi, dərd yükünə görə oxucunu sehrinə salır.

Qeyd etdiyimiz kimi, kitabda yer alan məqalələrin coğrafiyası çox genişdir. Şimali Amerikadan tutmuş Cənubi Afrikaya qədər iştirakçısı olduğu tədbirlərin qayəsi, gəzdiyi, gördüyü yerlərin mənzərəsi, yol yoldaşı olduğu adamların mənəvi dünyası Vahid Qazinin sətirləri arasından çox canlı görsənir. Kitab axtarışlar üzərində qurulub: müəllif olduğu hər yerdə ədalət, vətənində isə bütövlük və demokratiya axtarır. Bu baxımdan oxuculara təqdim edilən "Ağ Rusiyanın qara taleyi", "Rusiya səfirinə məktub", "Susmaq hüququ", "Demokratiyanın yarımçıq təbəssümü" və digər yazılar kitabı kifayət qədər maraqlı edir.

Kitabda maraqla oxunan daha iki yazı diqqəti cəlb edir. "Bekar(a) ömür" və "Özünü axtaranlar ölkəsi və ya maydan sonra gələn aprel". Ölkəmizin 23 aylıq şərəf nümunəsi olan Xalq Cümhuriyyəti tariximizə müasir baxış ikinci yazının qayəsini təşkil edir. Müasir mədəniyyətimizə baxış, qədim türk yaddaşına, adətinə, ənənəsinə və tarixinə həsr edilmiş bir filmə üç milyonluq bir türk şəhərində üç tamaşaçının tapılmaması, doğrudan da, həyəcan təbilidir. Bu təbili çalanlardan biri də Vahid Qazi və onun oxuculara təqdim edilən "Yaddaş ləpirləri. Demokratiya yazıları" kitabıdır. Qəm naxışlarından toxunmuş Qarabağ xalısı – bir kitab...

**Cəmil HƏSƏNLİ**,
*tarix elmləri doktoru, professor*

*Nərgiz, Uğur, Ayan üçün*

# Yaddaş
# ləpirləri

# Ölü şəhərlər muzeyi

Azərbaycan və Ermənistan ziyalılarından ibarət bir qrup qarşılıqlı səfərlə hər iki ölkənin media həyatına canlanma gətirdi. Ardınca Azərbaycan prezidenti Rusiya telekanalına müsahibəsində Qarabağ problemiylə bağlı yeni və ciddi açıqlama verdi. Ermənistan prezidenti isə kiprli həmkarı ilə görüşdə yeni olmayan fikirlərini bir daha təkrarladı.

Mövzu qəzet və saytlarımızı zəbt edib, bolluğu ilə göz çıxarır. Əsas sual da budur: "Sən Qarabağa gedərdinmi?" Ən müxtəlif cavablar oldu. Mənim ürəyimi titrədən də bu sualın bir qarabağlı kimi mənə də ünvanlana biləcəyi "qorxusu" idi – bu suala nə cavab verərdim...

***

Dünya sivilizasiyasının beşiklərindən olan Krımda on altı ölü şəhər açıq muzey kimi durur, hamısının da öz tarixi, mədəni kimliyi var. Onlardan birinin – Puşkinin "Baxçasaray fontanı" şeirinin hesabına rus-kommunist fəlakətindən adını qoruya bilmiş əsrarəngiz Baxçasaray şəhərinin qədim hissəsindəki Xan Sarayının darvazası ağzından yuxarı qalxan yolun sonunda, sanki göy üzünə dikələn cığırın o biri ucunda, buludların əhatəsində mövqe tutan Cufut-Kala mağara-şəhəri 15 ildi qəlbimi və ruhumu fəth edib.

Cufut-Kala Krım xanlığının paytaxtı olub. Sonralar xanlıq böyüdükcə ərazi azlığı və su problemi sə-

bəbindən xan aşağıda, daha böyük yerdə özünə paytaxt seçib Baxçasarayı. Cufut-Kalanı isə qəraim türklərinə verib. Krım-tatarca "cuhudların qalası", qəraimcə isə "Cuft Kale", yəni, "çift qala", "cüt qala" anlamını verir.

1994-cü ilin yayında, türkçülüyün hələ qanımı qaynatdığı dönəmdə yüzillərin araba təkərlərinin daş yollarda bəzən barmaq uzunluğunda dərinə işləmiş izlərini səmt tutub dar küçələrlə getdiyim vaxt keçirdiyim hislər hələ də dipdiridir.

Hündürlüyü 5 adam boyunda, duruşundan tarixin zəhmi tökülən cənub darvazasından girib bir vaxtlar tacirlərin mal satdığı bazarın sağ yanından keçirəm. Bir az da sağa burulub mağara-evlərin balaca oyuq-pəncərələrinin önündən ötürəm, burnuma xoş və tanış iy gəlir. Təzə gəlin piti asıb ərini gözləyir. Şuşada Sabir əminin – "Turist Sabir"in pitisinin qoxusuydu eynən.

Yoluma davam edirəm. Kiçik meydançada ağsaqqal kişilər çöməlib oturublar, söhbət edirlər: "Deyəsən, bizim sözümüzü xana çatdırmırlar, axı. Bəlkə, özümüz bir də onun hüzuruna gedək? Deyək ki, susuz yaşamaq olmur burda. Neçə ildir söz verilir, amma əlac edən yoxdur. Hamı çıxıb gedəcək, şəhər boş qalacaq axırda". Bir başqası cavab verir: "Xanın bizi dinləməyə vaxtı nə gəzir... Yenə harasa üz tutur, deyirlər, bu dəfə Moskvaya hücum edəcək. Getsin, alsın, bizim uşaqlar da pis vuruşmurlar, sözüm yox, amma bizim də işimizə əncam çəksin barı".

Küçə sola burulur. Tində qəraim kenassasıdı, yəni məbədi. Qəraizm yəhudiliyin təriqətidi. Şəhərin

əksər evlərindən fərqli olaraq, bura daşdan tikilib, üstü kirəmitlidir. (Şəhərdə heç ev yoxdur ha, ev dediyimiz yonulub-yarılıb qayadan düzəldilmiş mağara-sığınacaqlara bənzəyir.) İbadət vaxtıdı, deyəsən. Düz keçirəm.

Qəraimlərin tarixini hərə bir yerə yazır, mən onları xəzərlərin davamçıları hesab edənlərdənəm. Türk dilində danışırlar. Dini ayinləri də qəraim türkcəsindədi.

Qarşıdan gələn öküz arabasına yol verib yoluma davam edirəm. Təkərlər ağ sal daşların içində açılmış bir xətt boyunca diyirlənir. Eynən relsin üstüylə gedən tramvay kimi. Çıxardıqları səslər də bənzəyir bir-birinə. Sağ tərəf sıldırımdır, odur ki, yol sola burulur. Aşağıda dərin dərələr göz aparır, yavaş-yavaş öyrəşirsən. Xuraman özünü buradan atıb? Görəsən, niyə atıb? Səbəbini bilən varmı?

Tini dönürəm. Böyük mənzərə qarşımdadı. Solda şəhərin ən hündür tikilisidi. Bura Toxtamış xanın qızı Canıke xanımın 1437-ci ildə tikilmiş məqbərəsidi. Ziyarət edirəm. Bu ucalıqdan baxanda babası Çingiz xanın yaratdığı tarixin ən əzəmətli imperiyasının sərhədlərinin səmada Tenqrinin qapısı ağzında üfüqə çevrildiyini asanca görə bilər hər türk oğlu türk. Özümü bu məkanın, bu üfüqin bir parçası hiss edirəm. Şahin kimi bu sonsuzluğa şığımaq istəyirəm, elə dəli şahinlərin özü kimi. Tarix yaddaşımdan retrovari görüntülərlə keçir, özüm tarix oluram...

Bir qədər sağda mağara-şəhərin ikinci darvazasıdı. Əsrləri addımlayırammış kimi nəhəng divar daşla-

rını sürətlə qalxıb şimal darvazasına dırmaşıram. İlahi, bu nədir belə? Mən tarixin fövqündəmi durmuşam? Doğrudanmı, tarix məndən başlayır? Bəşəriyyət mənim atdığım addımın, getdiyim yolun düzlüyündən, səhvliyindənmi asılıdır?! İçimdə təlatüm yaranır, bədənim qızır, hər yerimi tük basır, bomboz tük.

Nədir, yoxsa "Canavar" filmindəki Cek Nikolson kimi mən də qurda çevrilirəm? Doğrudur, çevrilirəm, qurdam artıq, qurd – Boz Qurd! Dizlərim darvazanın sağ tumbasına dirənib, üzüm göy üzündə Tenqrinin qapısına doğru, sağ əlimdə barmaqlarım Qurdun başı rəmzini qurub və bu qapını döyəcləməyə uzanıb. Qurd kimi ulayıb Tenqridən kömək diləyirəm. Mənə yol göstərsin, bəşəriyyəti xilas edim, Ergenekondan çıxarım.

– Auuuuuuuu!!!

– Auuuuuuuu!!!

– ...

Qarşıda üfüqün üstüylə Tenqriyə boylanan sonsuz yol, arxada mağara-şəhərin xarabalıqları...

Ruhum bu arada var-gəl edirdi ki, aşağıdan, darvazanın dibindən gələn səs məni – Qurdu diksindirib ayıldır:

– Ey tı, çeqo aryoş? A nu ka bıstro spuskaysya!

– Ya ne aru, ya layu!

– Şto? Kto tebe razreşil?

– Ya prosto layu, razve dlya etoqo nujno razreşeniye?

– Tı kto?

– Seriy volk!

- Kakoy volk, spuskaysya!

Endim aşağı. Tanış olduq. Son yüz ildə burada yalnız bir ailə qalıb. O da Qalaya baxanın ailəsi. İndi o təkdi. Həm Qalaya baxır, həm də muzeyin rəhbəridi. Tarix elmləri doktorudu.

Məni, 1990-cı illərin mənim kimi bütün türkçülərini qınadı. "Hara qoyub qaçmısınız?" – dedi. "Buranı kimin ümidinə buraxırsınız, axı bura sizin də vətəninizdir!"

Bizi çaya qonaq elədi. Sonra şimal darvazasından üzüaşağı düşüb qəraim qəbiristanlığına apardı. Qarabağın, bəlkə, Azərbaycanın ən böyük Qarahacılı qəbiristanlığına bənzəyən bir yer idi. Amma buranın qəbirləri də, ağacları da nəhəng idi. Üç adamın əl-ələ verib başına dolandığı nəhəng ağac qədim qəraim məzarının içində bitmişdi.

... Beynimin, ruhumun tarixi tərpənişindən keçən bu 15 ildə Çufut-Kalaya dəfələrlə getmişəm. Hər dəfə də özümlə bir türkçü aparmışam. Hamısı da havalanıb mənim kimi. Həmişə bir səbəbə gəlmişəm bura – Krımın başqa şəhərində keçirilən konfransları yarımçıq qoyub, çaparaq dəyən vaxtlarım da olub – Şuşanın qoxusunu, ruhunu almaq üçün. Bura mənim vətənimdi, elə Şuşa kimi...

***

Ziyalıların son səfəri fonunda Qarabağ havasına köklənmiş mediada yer alan bir açıqlama məni əməlli-başlı üşütdü: "... Ola bilər ki, Ermənistanda etirazlar daha nümayişkaranə, Azərbaycanda isə daha

məhdud çərçivədə baş versin, amma sülh sazişinə qarşı çıxanların, güzəştlərə etiraz edənlərin olacağını da güman etmək olar". Bunu ingilis jurnalist Tomas de Vaal "Azadlıq" radiosuna deyib. Belə dəqiq qiymət verən olmamışdı bizə. İngilis qədim türk ləhcəsində "deyir" ki, Şuşa qalası Çufut-Kalanın taleyini yaşayır və ola bilsin, buna görə Azərbaycanda "etirazlar məhdud çərçivədə baş versin".

Cəmi 20 il əvvəl Topxanadakı cır armud ağacı milyonların namusu idi. Cəmi 20 il sonra bütöv Qarabağ "məhdud çərçivənin" namus yeri olur.

... "Sən Qarabağa gedərdinmi?" Ürəyimi titrədən də bu sualın mənə ünvanlana biləcəyi "qorxusu" idi – mən bu suala nə cavab verərdim? Allah jurnalist dostların atalarına rəhmət eləsin! Bunu məndən soruşmadılar.

"Oskar" mükafatçısı, bosniyalı rejissor Danis Tonoviç "Heç kimin torpağı" ("No Man's Land") filmini 2001-ci ildə çəkib. 1994-cü ildə Bosniyada gedən müharibədə iki düşmən bir təpədə öz əsgər dostlarının mühasirəsində qalır. Onların sağ qalmaq üçün bir yolları var – uniformalarını çıxarmaq və tanınmaz olmaq. Ölümlə üz-üzə qalan iki düşmənin bu təpədəki yaşantıları filmin süjet xəttini təşkil edir. Bilmirəm niyə bu filmi xatırladım, amma hər halda yadıma səbəbsiz düşməzdi. "Heç kimin torpağı". İndi Qarabağ heç kimindi. Heç ermənilər də əmin deyillər onların olmağına.

... Qarabağa gedərdimmi? Əlbəttə! Kim istəməz gedib YURDunu görsün? Amma məsələ getməkdə

deyil, görməkdədir. Özü də nə cür, nə kökdə görməkdə...

İndi Qarabağda da onlarla ölü şəhər və qəsəbə var. Amma onlar muzey deyil.

Çufut-Kala az qala məni Tanrının dərgahına qədər ucaltmışdı. Şuşada isə bunun əksi olacaqdı.

Mən başıaşağı olacağım yerə necə gedim axı???

*7 iyul 2009*

# Partlamayan minaların serenadası

Qarabağ yenə dillərdədi.

Hər yerdə ondan danışırlar: Moskvada, Vaşinqtonda, "Parisdə, Təbrizdə, həyətimizdə". Nəyə görəsə "Qarabağ" sözünü xorla eşidəndə təlaşlanıram. Bir dəfə meydana çıxıb xorla "Qarabağ!!!" qışqırdıq, faktiki itirdik. İndi bu "mahnını" beynəlxalq xor oxuyur. Təlaşım da onu birdəfəlik itirmək səbəbindəndi.

Qorxum isə Madrid, Praqa kimi gözəl şəhərlərin adı ilə bağlı olan "prinsiplər"dəndi. (Ümumiyyətlə, qorxulu şeylərə qəşəng adlar qoymaq son illərin sosial-politoloji tapıntısıdı. Dünyanı lərzəyə gətirən qasırğalara gözəl qız adları qoyulan kimi: "Nina", "Katerina".) Mən, elə bilirəm ictimaiyyət dediyimiz qövm də bu prinsiplərin əsl mahiyyətini bilmirik. "Bizi tələyə salmırlar ki?" – fikirləşirəm. Bu prinsiplərdə sonralar partlayacaq xeyli minaların varlığına şübhə etmirəm. Və mən gizlində olan hər şeydən, xüsusilə hər cür minadan (istər yeraltı, istərsə də sətiraltı) qorxuram…

***

Sarayevo haqqında ilk dəfə 1984-cü ildə, orada qış olimpiadası keçirilən vaxt eşitmişdim. Sonralar buradan qanlı müharibə xəbərləri gəldi. Öz müharibəmizə başımız qarışdığından Balkanda gedən etnik qırğının tam fəsadlarından o qədər də məlumatlı de-

yildim. O vaxtlar bizdə belə bir infantil əminlik vardı ki, dünyanın diqqəti Balkanlardadı, burada müharibə ocağını söndürsünlər, Qarabağa növbə bundan sonra çatacaq. İndi artıq oranın məsələsini çoxdan həll ediblər, başqa problemlər də yoluna qoyulub . Bircə bizə növbə çatmır. 1967-ci ildən Bakının “26 Bakı komissarı” rayonunda mənzil növbəsinə duran və bugünədək ümidini itirməyən bir qoca tanışım kimi biz də hələ növbəmizi gözləyirik.

Deyəsən, növbəmiz çatır axı?!

***

1997-ci ilin ılıq oktyabr günləri idi. Beynəlxalq Plüralizm Mərkəzləri Şəbəkəsinin növbəti konfransında iştirak etmək üçün Bosniyanın Tuzla şəhərinə gedirdim. Beynəlxalq aeroport paytaxt Sarayevo şəhərində yerləşdiyindən bütün konfrans iştirakçıları burada toplaşıb avtobuslarla Tuzlaya getməliydi. Elə də çox gözləməli olmadıq, son təyyarə enən kimi yola düşdük. O günlərdən yadımda qalanlar kifayətdir ki, insan vəhşiliyinin “yaratdıqları” haqda gördüklərimi və həyatımda ən böyük dozada aldığım adrenalini – duyduğum Qorxunu, indi qısaca da olsa, anlada bilim.

… Avtobusdakı, dünyanın dörd bir tərəfindən gələn insanların heyrət dolu baxışlarını unutmaq mümkün deyil. Sarayevo–Tuzla yolunda gördüklərimizin bir nidası vardı: HEYRƏT! Nə qədər yol gəldiyimizi hələ bilmirdik – 50–100 kilometr… İlahi, bu

qədər yolda bir salamat ev yox idi! Yanıb dağılan evlərin divarlarında müxtəlif işarələr vardı. Bizə izah etdilər bu işarələrin mənasını. Serblər müsəlmanların yaşadıqları evləri əvvəlcədən işarələyirmişlər ki, hansı evi dağıtmaq, qarət etmək və sakinlərini öldürməyin lazım olduğunu bilsinlər. Səhv salmasınlar…

Serb evlərini də sonra müsəlmanlar dağıtmışdı.

Konfransın Tuzlada keçirilməsinin bir rəmzi anlamı da vardı. Tuzlada serblər, xorvatlar, müsəlmanlar və başqa etnik xalqlar birgə yaşayırdılar. Bura Bosniyanın yeganə şəhəriydi ki, millətlər bir-birinə güllə atmamışdılar. Tuzlalılar bununla fəxr edirdilər. Bu, ilk növbədə şəhər meri Səlim bəy Beşlagicin xidməti hesab olunurdu. Hətta onun namizədliyi Nobel sülh mükafatına irəli sürülmüşdü. Nəysə, bunları sonra biləcəkdik. Hələliksə yoldayıq.

Avtobuslar yolun təxminən yarısında, xeyli yüksəklikdəki meşədə dayandı. On kilometrlərlə uzanan bu ensiz dağ yollarında rahat dayanacaq yeri tapmaq o qədər də asan deyildi. Konfrans nümayəndələri avtobuslardan düşüb meşənin oksigen dolu havasını ciyərlərinə çəkir, gərnəşir, əsnəyir, bir sözlə, qırışıqlarını açırdılar. Özlərini meşəyə verənlər də az deyildi. Hərə bu bir neçə dəqiqəlik istirahətdən ehtiyacına uyğun yararlanırdı.

Mən də meşəyə üz tutmuşdum. Meşə mənim yaralı yerimdi. Onun özünəməxsus aurası var. Bura həm də təbiətdə ilk formalaşan cəmiyyətdi, canlıdı, nəfəs alır, danışır, onun sakinləri dörd bir yana hərəkətdədi – ağacları yerin və göyün dərinliklərinə, sakinləri isə bütün coğrafi səmtlərə doğru.

“Deyəsən, çox uzağa gəldim”. Arxaya baxıram. 150–200 metrədək meşə boyu dərəyə düşmüşəm.

Buralara bir milyonadək mina basdırılıb! Qəfil beynimin damarlarını yarıb keçdi bu fikir. Bədənimdə qanın bir anda buzladığını, sonra bu buzun tədricən əridiyini, əriməkdə olan qan buzlarının bir-birinə dəyib çıxardığı ürpədici səsləri apaydın eşidirdim.

Bu xəbəri hələ Bosniyaya gəlməmişdən əvvəl qəzetlərdən oxumuşdum. Qanımın donu açılırdı, ayaqlarımın qıcı isə yox. “Necə yəni, o bir milyon minanın bircə dənəsi burada deyil?” Yupyumru bir minanın üstündə durmuşdum. Bir balaca tərpən, cəhənnəmə vasil ol! Həyat, doğrudan da, bir andan ibarətdir. Bütün həyat bir anın içinə necə sığmışdı? Kipriklərimə toxunub, lap burnumun ucundan sivişib keçdi bütöv bir həyat, meşənin dərinliyindən gələn sarımtıl kəpənək kimi. “Əlvida, həyat. Hələlik, ata, ana. Bağışla, hələ dünyaya gəlməyən körpəm” – beləcə, həyat iynə deşiyi boyda nöqtədən keçib getdi… və mən ayıldım. Ayılıb gördüm ki, həminki meşədi. Minalar var, mütləq var, bir Allah bilir hardadı, bir də onları basdıranlar. Ümid qalır Allaha. Bir O bilir minaların yerini. Məni yalnız O sağ çıxara bilər bu mina labirintindən.

Geriyə baxıb, gəldiyim yolu axtarıram. Yol nə gəzir? Mən ki, cığırla, yolla gəlməmişəm. Yalnız təxmini səmti tutub qayıda bilərəm. Bir… iki … üç... Yox, belə olmaz. Bura Bakı bulvarı deyil, belə yerimək olmaz. Kinolarda baxmamısan, gözlə görünməyən tük kimi nazik məftillərə? Minalar bir-birinə bu

məftillərlə bağlanır. Ayağına ilişsə, vəssalam. “Bu nə işdir düşdüm? Bəlkə, avtobusdakıları köməyə çağırım? Yox! Ayıbdır! Yüz adamın içində tək azərbaycanlı olasan, özün də qorxasan. Hər şey cəhənnəmə, bir o qalıb erməniləri özümə güldürüm. Hələ amerikalı, avropalı qızları demirəm. Yox, ölsəm də, çağırmaram” – cürətlənirəm.

Ayaqlarımı dizim hündürlüyündə qaldıraraq irəliləyirəm. Dörd… beş… Onuncu addım. “Dayan! Axı məftillər yalnız yerlə çəkilmir, o, adam boyu istənilən hündürlükdə ola bilər. Əlbəttə, niyə də yox” – indi ayaqlarım kimi əllərim də kor adam təki havada boşluq əlləyir, yaltaq məmur kimi rəhbər yola salır. Mən belə halımla əlahəzrət minaya yaltaqlanmırammı?!

“Gör bir gəlib harda ölürsən... Camaat nə deyəcək? Qarabağda ölmədi, gedib Bosniyada minaya düşdü. Allahım, sən məni bu biabırçılıqdan qurtar. Əcəlimi elə Qarabağda verərdin… Bağışlayın məni, dayıoğlu Anar, mamaoğlu Eldəniz. Sizinlə birgə ölə bilmədim. Bu da mənim qismətimmiş…”

Sabah dünya qəzetləri yazacaq ki, Bosniyada beynəlxalq konfrans iştirakçısı, dinc sakin minanın qurbanı olub. Hamı müharibə tərəfdarlarını lənətləyəcək. BMT minaların təmizlənməsi işini sürətləndirmək üçün əlavə pul ayıracaq. Pis deyil, ölümüm nəyəsə yarıya bilər. Dünyanın diqqəti bu yazıq ölkəyə, onun bu gözəl torpaqlarına basdırılmış bir milyon minaya yönələ bilər. Amma yooox!!! Mən ölmək istəmirəm. Mən yaşamalıyam. Və bu dərədən tez çıxmalıyam. Lənətə gəlsin BMT də, ATƏT də, elə bu saat onlar çatmırdı!

Bədənimdə bütün maddələr adrenalinə çevrilmişdi ki… aha, budur, avtobuslar! Şükür sənin böyüklüyünə, Allahım! Sənə inanmayan kafirdi. Artıq yola çatmağıma üç-beş ağac qalıb…

İnsanlar gülür, danışır. Həyat, doğrudan da, gözəldi. Ölmədim. “Salam, ata, ana, hələ dünyaya gəlməyən körpəm!” Elə bu vaxt saqqallı, uzun saçı arxadan “at quyruğu” yığılmış, qulağı sırğalı biri yanımdan keçib meşəyə doğru getdi. “Ey, tuda nelzya, tam minı!!!” dedim. “Seryozna?” “Tı ne çital, çto zdes milyon min zakapali?” – boğazımın quruduğunu, dilimin damağıma yapışdığını indi hiss elədim. Onun meşəyə niyə getdiyini öz təcrübəmdən bilirdim. Vacib məsələ idi, amma getmədi, qayıdıb avtobusa mindi, dözüb oturdu.

Səhəri gün konfransda bildim ki, bu sırğalı kişi erməni hüquq müdafiəçisi Mikael Danielyan imiş. Bax, mən bir ermənini beləcə “xilas” etdim. Xilas etməyinə dəyərmiş, çünki onu uzun illər öz ölkəsində döyüb təqib edirlər, həm də “Mı zaxvatili ix zemlyu” dediyinə görə.

***

Belə baxıram, deyəsən, dövran yenə tərsinə fırlanmağa başlayır. Daha erməni öldürmək yox, erməni xilas etmək gündəmi tutacaq. Kampaniyaçılıqda isə bizə çatan olmaz. Hələ 2007-ci ilin fevralında “Susmaq hüququ” adlı məqaləmdə yazmışdım ki, sabah Qarabağ məsələsinin kompromis yolla həlli

“məsləhət” bilinsə, kamera qarşısında növbəyə düzülmək uğrunda daxili savaş başlayacaq. Deyəsən, mənim bu lənətə gəlmiş gümanım doğrula bilər, axı!

Xilaskar olmaq savab işdir, düşməni də xilas etmək olar. Amma mən birinci Qarabağın xilaskarı olmaq istəyirəm. Bəlkə də, Allah Bosniya meşələrindəki dualarımı eşidib məni Qarabağ meşələri üçün sağ saxlayıb. Allah böyük və ədalətlidir!

… Qulağımı isə hələ partlayacaq minaların, istər torpaqaltı, istər sətiraltı serenadası deşir.

Gəlin tutun qulaqlarımı…

*15 iyul 2009*

# Qəmli gözlərin süitasi

Analar inciməsin, məncə, oğul nigarançılığı çəkən qəmli ata gözlərindən təsirli heç nə yoxdu bu dünyada. Belə bir kədər yüklü GÖZLƏRlə rastlaşdım o gün...

***

“Mən həmişə ağdərililərin də, qaradərililərin də zorakı hökmranlığına qarşı mübarizə aparmışam. Bütün insanların birlikdə, harmoniyada yaşayacaqları və bərabər imkanlara malik olacaqları demokratik, azad bir cəmiyyətin qurulması xəyalları ilə yaşamışam. Bu xəyalları gerçəkləşdirmək həyatımın mənasını təşkil edir. Və əgər lazım gələrsə, onlar uğrunda ölməyə belə hazıram”.

Böyük azadlıq carçısı Nelson Mandelanın sözləridi. Bu sözlərin arxasında 29 illik həbsxana həyatı, bu həyatın içində dəmir insan iradəsi, bu iradənin qarşısında məqsədyönlü uzun mübarizə yolu və bu mübarizənin sonunda azad ölkənin məğrur prezidenti dayanır.

CAR-ın prezidenti kimi Mandela, andını bu sözlərlə bitirir: “Bu gözəl ölkə bir də heç zaman, heç vaxt insanların bir-birinə işgəncə verdiyi, bütün dünyada nifrətlə anılan bir yer olmayacaq.”

***

... 2004-cü ilin fevralında Bakının soyuq qışından ayrılıb dünyanın o başına – isti Afrikanın yayına

gedirdim. Demokratiya Uğrunda Dünya Hərəkatı dünyanın dörd bir tərəfindən yüzlərlə demokratiya fəalını Cənubi Afrika Respublikasının Durban şəhərində keçirilən Üçüncü Assambleyasına toplamışdı. Başqa bir dünyaya düşmüşdüm: ekvatorun o üzü, xəritənin dibi, fərqli adamlar, ağaclar və dalğalar ölkəsi.

Səfər hazırlığı günlərində az-çox məlumat toplamışdım bu ölkə barədə. Onun xalqları, xüsusilə zulusların məşəqqətli taleyi, tarixin ən üzüqara rejimlərindən olan aparteid və onun onilliklər boyu yerli xalqları ölkənin yalnız 12 faiz ərazisini təşkil edən xüsusi rezervasiyalarda (Şimali Amerikada, Cənubi Afrikada və Avstraliyada imperialistlərin yerli tayfaları zorla yerləşdirdikləri pis yerlər – lüğətdən götürmüşəm) yaşamağa məhkum edən seqreqasiya (zəncilərin ağlarla bir evdə, hətta şəhərin bir hissəsində yaşamalarına, ağların olduğu yerə gəlmələrinə icazə verilməməsindən və s. ibarət irqçilik siyasəti – bu da lüğətdəndi) siyasəti və başqa səthi bilgilərim vardı.

Bu ölkədə hər üç nəfərdən birinin “SPİD” olmasından da xəbərdar idim. Qarşılaşdığım hər üç adamdan birinin QİÇS daşıyıcısı olduğunu təsəvvür edəndə indi də qarışıq hislər bürüyür canımı. Hər halda vərdiş etmədiyim mənzərəydi.

Elə ilk gündən tədbir iştirakçıları şəhərə tək çıxmamaq, qiymətli əşyaları, hətta hotel otaqlarındakı seyflərdə saxlamamaq və s. barədə zəruri xəbərdarlıq almışdılar. Deyilənləri ciddiyə almayanlar şəhərdən ya telefonsuz, ya da fotoaparatsız, gah gözünün altı

"bandajlı", gah da ayağını çəkə-çəkə, biri pencəksiz, digəri papaqsız qayıdırdı.

Bəli, bura demokratiyanın yenicə qurulmağa başladığı "hirsli" qara insanlar ölkəsiydi. Mən heç vaxt bu qədər aqressiv insanı belə cəm görməmişdim. Onlar onilliklərin, yüzilliklərin acısını, ağrısını, hirsini ağlardan belə çıxarırdılar. CAR küçə cinayətlərinin sayına görə dünyada liderdi. Mənə inanmayanlar gələn yay futbol üzrə dünya çempionatını gözləsin...

***

– Gedək çimək! Şıxov plyajı deyil e, Hind okeanıdı, dalğaların hündürlüyünə bax! – deyəndə onun GÖZLƏRİ atəş saçırdı.

– Sabah çimərik, gəl gedək şəhəri gəzək, – dedim.

– Nu, ladno, poydyom, ne boişsya?

Cavaba ehtiyac qalmadı, piyada düşdük şəhərin canına. Yaşıllığı bol, küçələri təmiz, binaları gözəl, dükanları dolu, insanları sərbəst – kişiləri arxayın, qadınları mehriban.

"Bəs deyirlər, burda adamı soyurlar?" Həmsöhbətimin informasiya ilə zəngin, hərdən fəlsəfi, hərdən də məzəli söhbətinə qulaq kəsilərək Durbanın dərinliklərinə necə gəldiyimdən xəbər tutmadım. Çoxmərtəbəli evlərin sıralandığı uzun küçə ilə gedirdik. Sanki epidemiya səbəbindən boşaldılıbmış kimi bu böyüklükdə küçədə ins-cins yox idi. Avtobus dayanacağının yaxınlığında meyvə-tərəvəz satan kök qadından savayı.

– Manqo alım, yeyək?

– Pis olmaz, – dedim.

Dostum "Təzə bazar"da armudun qiymətini soruşurmuş kimi barmağını manqoya uzadıb qara, yekəpər qadına müraciət elədi, təbii ki, bakılı ləhcəsiylə:

– How much this one?

İlahi, bu nə səs idi çıxdı qadından!.. Sifətindən bədheybətlik yağan satıcı bizə baxıb xortdan görürmüş kimi başını tutub qaçdı. Meyvə arabasını da qoyub, çox güman ki, bizi Afrika cəngəlliklərindəki ləhcələrin biriylə söyə-söyə binanın tinində qeyb oldu. Küçənin vahiməli sükutu çox çəkmədi. Binaların arasından qaraqura uşaqlar ikibir, üçbir çıxıb bizə doğru gəlməyə başladılar. Hər şey aydındı, pis yerdə axşamladıq…

– Belə yerdə bilirsən Koroğlu nə deyib? – silahdaşım dilləndi.

– Deyirsən, qaçaq? Bu uşaqlarla ayaqlaşa bilmərik. Ağsaqqalsan da, dur qabağa.

– Pulun hamısını götürmüsən özünlə? Qorxma, mən onlarla danışaram.

– Sən danışarsan ey, onlar danışmayacaq. Döyüb, biabır edəcəklər bizi.

Bütün pis variantları gözümüzün qabağına gətirib artıq iyirmi nəfərə çatmış dəstənin qabağına rus tanklarının qarşısına çıxırmış kimi çıxdıq. Qərara gəldim ki, döyüşsüz təslim olum, nə istəyirlərsə verim, təki hotelə sifəti "bandajlı" qayıtmayım. Alınmasa, gərək sifətimi qoruyam, başqa yerə nə qədər istəyirlər, döşəsinlər, daha öldürməyəcəklər ki.

Yəqin, dostumun da qərarı beləymiş. Amma ümid üzülməz, elə "soyulmağa" hazırlaşırdıq ki, tin-

dən uzun bir avtobus burulub dayanacaqda saxladı. İnanmaram ki, qədim Yunanıstanın olimpiya qaçağanları bizimlə ayaqlaşa bilərdilər...

Bir neçə dəqiqədən sonra avtobus sürücüsünün atasına rəhmət diləyirdik.

GÖZLƏR sevincdən çiçəkləmişdilər.

– Belə bir quldurxanada Mandela, Qandi kimi humanistlər necə yetişib?

Ağsaqqal demokrat dostum mənim bu ritorik sualıma yolboyu çox maraqlı cavablar verdi. O, insanların əsrlərlə apardığı azadlıq mücadiləsi, əzilən xalqlar, onların liderləri, demokratiya, liberalizm və onun tarixi, ümumiyyətlə, bəşəriyyətin inkişafında əsl demokrat şəxsiyyətlərin rolunu özünəməxsus jestlərlə ərz eləyirdi.

Hotelə çatanda zarafatından da qalmadı:

– Sən bildin də o arvad bizi görən kimi niyə qaçdı?

– Yoox, niyə qaçdı ki?..

– Sifətimizə baxan kimi bilmişdi ki, Azərbaycandan gəlmişik, – GÖZLƏR şeytanvari gülürdü.

Növbəti günün axşamı dostumdan daha orijinal təklif gəldi. Yerli xuliqanlara və dünənki qara uşaqlara etiraz əlaməti olaraq kazinoya, özü də piyada getməyə qərar verdik. Hoteldə hamı yaxınlıqdakı kazinonun əzəmətindən danışırdı. Biz də gedib baxmağı, hələ bir şansımızı sınamağı da düşünürdük.

Bu dəfə, həqiqətən, qorxmurduq, çox da qaranlıq düşmüşdü. Yaxın deyilən yol bir kilometrdən çox uzandı. Və biz dostumun "demokratiyanın uzun və məşəqqətli yollarına" bənzətdiyi məsafəni qəhrəman-

casına qət etdik. "Şəhər uşağı" olmasına rəğmən yol yoldaşım qətiyyən qorxaq deyilmiş.

Kazino deyilən yer bizim Əl Oyunları Sarayımız boyda iki ayrı nəhəng zaldan ibarət idi. Birində siqaret çəkənlər, digərində çəkməyənlər şanslarını yoxlayırdılar. Sözləşdik ki, adama maksimum 50–60 dollarlıq (udsaq da, uduzsaq da, olanı budu) jeton alıb bəxtimizi sınayaq.

Kazinodaşım "ruletkanı" seçdi.

– Buna böyük pul lazımdı, tez uduzub çıxacaqsan, – deyib oyun avtomatları olan cərgəyə keçdim.

Bəxtim gətirirdi. Kazinodaşım isə ayrılmağımızdan 15 dəqiqə keçməmiş qayıtdı. Uduzmuşdu.

– Hakimiyyəti də belə tez uduzdunuz ey! – yerində, amma amansız və çox pis zarafat elədim.

– Neyləyək, ay brat, belə oldu də, – əlini yellədi.

Özünü laqeyd aparmağa çalışdı, amma GÖZLƏRindəki pərtlik gözümü deşirdi. Avtomatdan tökülən jetonların səsindən xüsusi zövq ala-ala udluq pula aldığım "Amstel"dən içir, "Marlboro"dan dərin qullab vururdum.

– "Udmusan, dur, sonra uduzacaqsan", – qulağıma çox məxfi bir söz deyirmiş kimi pıçıldadı, sonra əllərinin ikisini də cinsinin ciblərinə dürtüb, çiyinlərini çəkə-çəkə oyun avtomatları arasında gözdən itdi. Bir xeyli sonra qayıdanda mənim tamam "müflis" olduğumu görüb acı-acı güldü:

– Dedim axı, uzatma! – Məndən fərqli olaraq amansız və pis zarafat eləmədi.

***

1996-cı il idi. “İnam” Plüralizm Mərkəzi fəaliyyətinə təzə-təzə güc verirdi, çoxsaylı layihələr, tədbirlər, səfərlər...

Bir gün məni heyrətləndirəcək dərəcədə çox telefon pulu gəldi, gözüm kəlləmə çıxmışdı. Dollar hesabıyla 80 dollaracan pul idi. Ola bilməz axı! Bizim aylıq telefon xərcimiz 20–25 dollar civarında olurdu.

Getdim ATS-ə yoxlatdırdım, mənə danışdığımız telefonların nömrələri olan siyahı verdilər. ABŞ-ın hansı şəhəriyləsə 56 dollarlıq danışılıb. Mümkün deyil! İşdəkiləri, ofisə gedib-gələnləri bir-birinə vurdum. Heç kim boynuna almadı.

“Aztelekom”, Rabitə Nazirliyi, çoxsaylı məmurlar ordusu ilə günlərlə çənə vurdum. Komissiya göndərdilər, gəlib kabelləri yoxladı. Kimin əməli olduğunu ayırd edə bilmədilər. Qonşuların bizim kabelə qoşulub istifadə etmə ehtimalını da nəzərdən keçirdilər.

Heç nəyə yaramayıb çıxıb getdilər. Mənim məhkəməylə hədələrimin də xeyri olmadı. Qışqırıb-bağırıb sakitləşdim və gedib pulu ödədim. Əvvəldən də zəhləm gedən qonşuya daha heç salam da vermirdim. Şübhələnməyə ondan yaxşı obyekt yox idi.

Baiskarı iki aydan sonra tapdım. Nyu-Yorkdan, Kolumbiya Universitetindən bildiriş gəlmişdi. Mister Hikmət Hacızadə bu universitetdə insan hüquqları və din mövzusunda tədqiqat aparacaqmış.

– Tapdım! – ofisdəkilərə sanki çoxdan gözlədiyim şad xəbəri deyirdim. Əlbəttə, onun 11 səhifəlik

anketini Nyu-Yorka faksla göndərmişdik, özü də çatdığına əmin olmaq üçün bir neçə dəfə.

Bilmirdim sevinim, ya pərt olum – iki hissin arasında qalmışdım. Hər halda növbəti gündən əvvəldən də xoşum gəlməyən qonşuma salam verməyə başladım.

Nyu-Yorka gedən dostum isə yerə-göyə sığmırdı, GÖZLƏRİNDƏ sevinc Luis Armstronqun "What a Wonderful World" mahnısını oxuyurdu.

***

Analar inciməsin, məncə, oğul nigarançılığı çəkən qəmli ata gözlərindən təsirli heç nə yoxdu bu dünyada. Mən belə bir qəm yüklü GÖZLƏRlə rastlaşdım o gün...

Məhkəmənin qarşısında səkidə oturub siqaretin acısını sümürürdü ciyərinə. Kədər GÖZLƏRinin ən dərin və hündür yerində bardaş qurub uzun müddətə gələn çağırılmayan qonaq kimi ərklə oturmuşdu. Bir anda bu GÖZLƏRin Durbanda bərq vurmasını, Nyu-York ərəfəsində çiçəkləməsini xatırladım və beləcə bu yazı əmələ gəldi.

Hamı kimi o da məhkəmənin qərarını gözləyirdi. Oğlu da özü kimi uzun, çox uzun yolun yolçusuymuş. Bu yolun məhkəmə aşırımını keçirmiş o gün...

Eh, yoluna hələ nə qədər dağ, çay, dərə çıxacaq, neçə qaçaq-quldur, qurd-canavar görəcəksən...

Cəmi bir neçə həftə əvvəl FACE klubda bir qrup gənclə son illər ən çox sevdiyim filmə – almanların çəkdiyi "Başqaların həyatı"na ("The life of others") baxırdım. Rəşad Şirinov çağırmışdı. Emin Milliylə də o

tanış elədi məni. Yəqin, Adnan da oradaydı, bilmədim. Mən bu filmə yox (onu dəfələrlə görmüşdüm), filmə gəncliyimizin reaksiyasına baxmağa getmişdim. Onlar da filmin qəhrəmanı kimi başqalarının həyatına biganəyə oxşamırdılar. Sevinmişdim, kommunist xofundan uzaq, sərbəst gəncliyimiz var deyə...

Əlbəttə, zaman bütün bağlı qapıları açır, məhbuslar da beləcə azadlığa çıxır. Mustafa Cəmilov 17 il məhbəs həyatından sonra Krım tatarlarının lideri kimi Ukrayna Radasında oturmadımı, Mandela 29 illik zindan yolu keçib prezident kürsüsünə qalxmadımı?! Bu, uzun, çox uzun yolu oğluna sən tanıtmadınmı?

... Elə bu sözləri də sən yazmamışdınmı 10 il əvvəl: "Taleyini öz əlinə almaq, öz həyatında kəskin dönüş yaratmaq keçmiş sovet adamı üçün böyük sarsıntı, postsovet Azərbaycanında həyata qədəm qoymuş gənc üçünsə adi bir hərəkətdir".

Oğlun azad olacaq, əlbəttə. Onda GÖZLƏRində ən hündür yerdə bardaş qurub oturan Kədərin gözləri Sevincin al şəfəqlərindən kor olacaq və Durbanda bizi görüb qorxan satıcı qadın kimi başını tutub qaçacaq.

... Bax onda, GÖZLƏRin bir də çiçəkləyəndə "İnam"ın 56 dollarını qaytararsan, faksımız xarab olub.

*19 iyul 2009*

# Açılmayan süfrənin qonağı

Əsgəran-Xocalı yolundan sağa, Şimal-Qərbə üz tutub Kolatağ, Dovşanlı kəndlərinin yaxınlığından ötüb, Saraysuyu və Xaçın çaylarını keçib Vəngdə Gəncəsər alban kilsəsinə baş çəkməyi Dağlıq Qarabağa gedən çexiyalı jurnalist dostuma tövsiyə edəndə onun bu çətin yolu qət edəcəyinə və hətta "Boz dağlar qurtaran yer" adlı məqalə yazıb, fotolar çəkib göndərəcəyinə inamım az idi.

Çex dissidenti, məşhur "Xartiya 77" hərəkatının fəalı, keçmiş siyasi məhbus, Vaslav Havel hökumətinin ilk daxili işlər komendantı, jurnalist, tərcüməçi və nəhayət beş uşaq anası Petruşka Şustrova bu yaxınlarda – Türkiyə, Ermənistan, Azərbaycan münasibətlərində yeniliklər dolu indiki gərgin bir vaxtda – Dağlıq Qarabağa səfər etdi. Azərbaycanın qalan hissəsində olmuşdu, Qarabağı da gördü, Ermənistana da baş çəkdi. Çox yerləri gəzdi, çox adamlarla görüşdü, çox süfrələrin qonağı oldu.

Elə bu yazı da məhz "Qarabağ", "süfrə", "bələdiyyə seçkisi" kimi beynimdə əks-səda yaradan sözlərin konqlomerat birləşməsindən yarandı (**konqlomerat** - müxtəlif şeylərin və hissələrin nizamsız yığını, birləşməsi deməkdi. Mənim bu sözün taqqıltısından xoşum gəlir).

Sərkisyan üçün açılan şahanə süfrəyə qoyulan Gül qoxulu yeməklər "süfrə"ni bir mövzu kimi nə qədər maraqlı eləsə də, 10 il əvvəl ilk bələdiyyə seç-

kimizi müşahidə edən xanım Şustrovaya seçki məntəqəsində açılan möhtəşəm süfrəni qətiyyən boyatlaşdırmadı mənim üçün. Günümüzün mövzu süfrəsində "Qarabağ" nə qədər qaynar olsa və məşhur reklamdakı kimi "cənnət həzz etsə" də, "bələdiyyə seçkisi" o qədər soyuq və dadsızdı.

***

Vəngdən üzüaşağı Kolatağadək (biz ona Koladayı deyirdik) uzanan yaşıl meşənin Damğanlı kəndilə Turşsu bulağı arasındakı yolun üstündə böyüklərimizin qurduğu çadır alaçıqların əl içi kimi göründüyü yerində "qala" quranda uzaq 1975-ci ilin qızmar iyul ayı idi. Biz – bir dəstə uşaq ulu babalarımızın da yaylamağa gəldiyi Koladayı meşələrində ən "strateji" yerin kol-kosunu təmizləyib, torpağından "qala" düzəldəndə, ağac budaqlarından cürbəcür silahlar qayıranda, çəpər çəkib "hərbi" düşərgə salanda, bir gün üzüyoxuşa – Gəncəsər kilsəsinə, o biri gün üzüyenişə – nənəmizin alaçığına ərzaq dalınca gizli "hərbi yürüşlər" edəndə hələ heç "Rembo" filmi çəkilməmişdi.

## "Fateh" süfrəsi

Kilsəni bir həmləylə "alırdıq", amma "saxlaya" bilmirdik. Çünki onun ən hündür yerinə, vaxtilə zəngi sallanan, bizi görüb perikən yüzlərlə göyərçinin yuva qurduğu hissəsinə çıxmaq mümkün olmurdu.

Heç kilsənin yarıqaranlığında ziyarətçilərin ortası yonulmuş qalın daş sandıqçaya atdığı qəpikləri də götürmürdük. Olmazdı. "Qənimətsiz" kilsəyə maraq tez itirdi və biz zirvəni yenidən "fəth" etmək üçün oranı "döyüşsüz" tərk edirdik. Beləcə, ona yiyə durmurduq. Çox sonralar dərk edəcəkdik ki, tarixi abidələr gözəl qadın, qiymətli zinət kimidi, sən yiyə durmasan, başqası mütləq sahib çıxacaq.

Alaçığa girib torbaya ərzaq yığmaq asan idi, çətini "trofeyi" çadır şəhərciyindən (sonralar buradakılar başqa bir çadır şəhərciyinin də sakini oldular) "hərbi düşərgə"yə daşımaq idi. Bir qayda olaraq hücum nənənin alaçığına edilərdi, çünki onun qapısı yiyəsinin qəlbi kimi açıq və geniş idi. Digər alaçıqlardan fərqli olaraq ora "qorunmurdu". Amma çıxanda bir neçə alaçığın qapısı ağzından və çoxsaylı güdükçü gəlinlərin yanından keçmək lazım gəlirdi. Təcrübəli kəşfiyyatçılar bu işi yaxşı bacarırlar.

Hərdən Damğanlıya "sülhməramlı" səfər edirdik. Kənd bizə döyüşsüz "təslim" olurdu. Tay-tuş erməni oğlanları bizə nifrət etsələr də, "qalib ordunun" əsgərlərinə yol verirmiş kimi geri çəkilirdilər. İçimizin ən böyüyü olan dayıoğlu Elşənsiz bu kəndə girməzdik. Onlar Elşən olanda bizdən, biz də Elşən olmayanda onlardan çəkinirdik.

Cibimizə bir-iki manat girən kimi ədəb-ərkanla dükana gedirdik, özü də hərbi yürüşlərimizdəki taxta atlarla yox, məftil maşınlarla. İndinin diliylə desək, ən "full" maşın pensilin şüşəsindən düzəldilən gecə faraları olan idi. Əyin-başımızı da qaydaya salırdıq,

axı bulaq başında göz vurub qaş oynatdığımız erməni qızlarının kəndinə gəlirdik.

Bütün bu hərbi yürüş və sülhməramlı səfərlər bizim düşərgəmizdə böyük bir süfrəylə nəticələnirdi – kilsədən kəndəcən yerləri fəth edənlərin süfrəsi. Burada nə yox idi? Ləmbəran qarpızından Əsgəran limonadınacan, soyutma Xocalı kartofundan "Sport" peçenyesi, "Barbaris"əcən, hərdən lap toyuq qızartmasından Spanakert (Stepanakert) dondurmasınacan. Əsl fateh süfrəsiydi.

## Çöl süfrəsi

Şənbə-bazar günləri gur keçirdi. Şəhərdən xeyli qohum-əqrəba, dost-tanış gəlirdi. Hamısı da maşın dolu ərzaqla. Qarpız-yemiş üst-üstə taya qurardı. Ehtiras bolluqdan yaranır – az olmayıb üzüaşağı qarpız diyirlətməyimiz.

Samovar tüstülənər, ocaq qalanar, manqal közərərdi.

Kənar adam olmayanda bir böyük süfrə, meşəbəyi Şahin kirvə və bu sayaq yad adamlar gələndə isə üç süfrə açılırdı: kişi, qadın, uşaqlar üçün. Danışırdılar ki, Şahin kirvə bir dəfə meşədə ayı ilə qarşılaşıb və onu öldürüb. Bəlkə də, beləydi, bəlkə də, uzun illər boyu buraları yaylağa çevirən müsəlman türklərin hər gəlişindən pəjmürdə olan ermənilərin onu çox güclü igid kimi əfsanələşdirmək istəyindən irəli gəlirdi – "Bizim Şahin on kişiyə cavab verər, o, meşədə ayı boğub!"

Şahin kirvə süfrəyə əliboş gəlməzdi. İxtiyarında olan ucsuz-bucaqsız meşədən cürbəcür heyvan, çaydan torba dolu forel gətirərdi. Əlbəttə, çuxasından tut arağı da çıxardı. Onun gətirdiyi çay balığını həvəslə yeyirdim. Çünki biz balıq tuta bilmirdik. Çarşabı düşəndə utandığından tumanını başına keçirən məşhur filmin qəhrəmanı Gülçatay kimiydi Xaçınçayın balıqları. Çayın suyu o qədər duruydu ki, balıqlar bu aydınlıqda eybi görünürmüş kimi dəli sıçrayışla ya lilə girib suyu bulandırır, ya da daşlar arasında gizlənirdilər.

Bir dəfə meşəbəyi Şahin kirvə əlik gətirmişdi. Ceyrandan balaca, quzudan bir azca böyük əlik. Özü soydu, özü bişirdi. O gündən ona da, onun kürən atına da, həmişə heyrətlə baxdığım beşatılanına da nifrət etdim. Neçə müddət idi uzaqdan, meşədəki "düşərgəmizdən" hər gün eyni vaxtda, çayın eyni yerində su içməyə gələn bir əliyi seyr edirdim. Ürkək baxışları, titrək ayaqları vardı. Onunla aramda indiki internet çatlardakı virtual sevgiyə bənzəyən xüsusi münasibət yaranmışdı. İndi içi atam qarışıq bir dəstə kişi, bəlkə də, həmin balaca əliyi yeyirdilər. Bu, həyatımın ilk "qanlı" süfrəsi oldu. Həmin gecə nənəmin alaçığındakı Nikolaydanqalma dəmir çarpayıda gözüyaşlı yuxuya getdim.

Səhər yerimdən duranda üz-gözüm nəm idi. Amma bu, göz yaşının nəmi deyildi. Gecə yağış yağmışdı. Mənim üçün alaçığın brezent tavanını döyəcləyən yağış damlalarının çıxardığı səsdən doğma təbiət səsi yoxdu. Bu bir damla yağış suyu çadırın sıx iplərindən keçərək min yerə parçalanıb üzümə nəmlik çiləmişdi. Mənim növbəti qarabağlı xoşbəxt səhərim beləcə açılırdı...

... 35 il sonra Qarabağsız açılan səhərlərimin birində isə orada, "boz dağların qurtaran yerində" dostuma başqa bir süfrə açılırdı. Mənim olmayan süfrə...

## Seçki süfrəsi

... 1999-cu ilin 12 dekabrında keçirilən ilk bələdiyyə seçkisinə qatılan beynəlxalq müşahidəçilərin arasında Petruşka Şustrova işini hamıdan tez bitirmişdi. Onunla görüşüb belə qərara gəldik ki, şəhərin mərkəzində, onların qaldıqları yerə yaxın məktəbdəki seçki məntəqəsində müşahidə aparan gürcü dostlarımızı da götürüb şam yeməyinə gedək. Yaxadan asılan müşahidəçi vəsiqəsi heç bir problem olmadan bizə dostlarımızla görüşməyə imkan yaratdı.

Onlar işlərini bitirməmişdilər. Ləngiyəsi olduq. Bizi görən məntəqə sədri yüz ilin dostu kimi qollarını yana açıb üstümüzə gəldi, mehribancasına qarşıladı. Salamdan sonra gürcü dostlarımızdan incik olduğunu dedi, bizim onları dilə tutmağımızı xahiş etdi. Məlum oldu ki, həm də məktəb direktoru olan məntəqə sədri otaqların birində süfrə açıb, amma bu tərs müşahidəçilər yemək istəmirlər.

Gürcülər isə bizə izah elədilər ki, məntəqədə saxtakarlıq olub və komissiya üzvləri hər vəchlə onların, bir neçə dəqiqəlik də olsa, otağı tərk etmələrini gözləyir. Komissiya sədri isə əldən-ayaqdan gedərək bu fikri qətiyyətlə rədd edir, süfrəni qonaqpərvərlik nümunəsi kimi açdıqlarını deyirdi. "Klyanus, vsyo ostıl".

Uzun minnətdən sonra belə razılaşdıq ki, hamımız keçirik süfrə başına, amma gürcülər növbə ilə yeyəcəklər. Əlbəttə, qərar komissiya sədrinin xoşuna gəlmədi. Geriyə yol yox idi. Hamı, biz də, onlar da (məktəb direktoru, “zavuç”, “zavxoz” və yaşlı müəllimə) süfrəyə könülsüz yanaşsaq da, yeməyə həvəslə girişdik.

“Belə görürəm, əlac bunları kefləndirməyə qalıb” – gözləri pişik gözü kimi parıldayan “zavxoz” direktora irişdi. “Hə, aç süz, görək. Səhərdən bir loxma da yeməmişəm. Sən bu gombulu keyfləndirə bilərsən... Pivə boçkasına oxşayır” – bunu da direktor dedi. “Zavuç”un qımışaraq “Özü də çex pivəsinə” əlavəsi qonaqlarda söhbətin çex pivəsinin əsrarəngizliyindən getdiyi təəssüratı yaratdı.

İki butulka araq boşalandan sonra gürcü müşahidəçisi növbə dəyişikliyi üçün seçki qutuları olan “strateji” otağa keçdi. Direktorun qanı yenə qaralmışdı; məclisə ayıq adam gəlirdi. Dəqiqələr keçir, sağlıqlar bir-birini əvəzləyirdi. Rus dilində başlayan tariflər Azərbaycan dilində təhqirlərlə davam edirdi. “Mı bratı, dolqo i şastlivo jili vmeste. Za nas. İt uşağı, it, öldüm axı, ta getmir. Sizin ...”

Dalını gətirə bilmədi, ağız-burnunu büzüb başını silkələdi. Turşu xiyar onun da, elə bizim də dadımıza çatdı, söyüşün dalı gəlmədi. “Bu alçaqdan gözüm su içmir, özü də heç vurmur deyəsən. Mən ölüm buna bax, elə bil nemesdi. Qəfil çönmə, başa düşər” – direktor “zavuç”a dedi. Üzünü mənə tutaraq davam etdi: “Qospaja Petruxa xanım tvoy tyotka?” Açıq

məzələnməyə keçmişdi. “A çto, poxoj?” dedim. “Oçen”. Onlar məni də çex bilib hamımızla dilxoşluq edirdilər, direktorun keyfi tamam açılmışdı.

Məclisin şirin yerində “zavxoz” arağın qurtardığını bildirdi: “Gedim alım?” “Yox, konyakı, çaxırı aç. Qoy qarışdırsınlar, bəlkə, belə keyflənələr”. “Zavxoz” badələrə konyak süzərək dodaqaltı mızıldanırdı: “Onlar yox ey, deyəsən, biz keyflənəcəyik. Bunların qarnını doyurmaq olar?”

Nəhayət, o, badəni götürüb çex xalqının qəhrəmanlığından, 68-ci ildə əsgərliyinin Çexoslovakiyada keçməsindən, orada vurulduğu çex qızından uzun-uzadı danışırdı ki, Petruşka qəzəblə dilləndi: “Sən işğalçı olmusan, özün də bununla fəxr edirsən. Amma həmin il məni tutub işgəncə vermişdilər, uzun müddətə həbsə atmışdılar” – deyərək sovet ordusunun 1968-ci ildə Praqa üsyanını vəhşicəsinə yatırmasına işarə vurdu.

Məclis sükuta qərq oldu. “Zavxoz” işləri korlamışdı. Direktor “zavxoz”u otaqdan çıxarıb ikinci gürcünü “tovlayıb” gətirməyə yollamaqla vəziyyəti düzəltməyə çalışdı.

Daha mən də hövsələdən çıxmışdım. Qədəhi götürüb ayağa qalxdım. Rusca minnətdarlıq çıxışından sonra öz dilimizə keçdim. Onların heç bir təhqirinə cavab vermədim. Sadəcə, müəllimlərimizin, ziyalılarımızın gününə acıdığımı, təəssüfləndiyimi dedim.

Mənim azərbaycanlı olduğumu bilən direktor əvvəlcə başını əllərinin arasına aldı. Sonra o əllər qeyri-ixtiyarı yanına düşdü, qaşlar yuxarıya dartılıb qırış-

lara tay oldu. Gözlər yerindən çıxıb üstümə tullandı. Qıpqırmızı sifətdən keçi əmcəyi tər axdı. "Sən azərbaycanlısan?" – o, ayılmışdı. "Yox, nemesəm!" dedim.

Burada baş verənləri, əlbəttə ki, qonaqlara danışmadım. Amma mənim sözümdən sonra komissiya sədrinin, digərlərinin pərtliyi açıq-aydın görünürdü. Ayağa qalxıb gürcülərə "Xvatit, poşli", dedim. Onsuz da işimizin heç bir əhəmiyyəti qalmamışdı. Beləcə, erməni Şahinin "qanlı" süfrəsi kimi buranı da qanıqara tərk etdim...

***

Xanım Şustrovaya, hələ açılmayan süfrəmin qonağına Qarabağda üç süfrə bəzəmək istəyirəm: FATEH süfrəsi, ÇÖL süfrəsi və SEÇKİ süfrəsi.

Buyurun, siz də süfrəmə, dostlar! "Yeməkdənsə ümid yaxşıdı".

*26 oktyabr 2009*

# Şərq hüzuru

Bir yağışlıq canı olan əhəngi yol boyu düzülmüş daşlara sürtən fəhləyə göstərişlərini verib parkın ortasında yenicə tikilmiş fontana doğru getdi. Əvvəlki adı və görünüşü dəyişdirilən parkın 40 yaşı vardı. Təzəcə əkilmiş, yerli təbiətə yad ağaclar “Sevil” tamaşasında möhtərəm qonaqlara təqdim etmək üçün Balaşın qiyafəsini dəyişdirdiyi atasını xatırladırdı.

Parkın ən hündür yerində daşın üstünə çıxdı. Burdan ətraf daha aydın görünürdü. Yerini rahatlayıb qarnını azca qabağa verdi. Sağ əlini irəli – süpürgəçilərə göstəriş verən park müdirinə uzatdı: “O uşaqları qov! Baş-beynim getdi”. Bir dəstə yeniyetmə parkın küncündə yeni qurulmuş idman qurğularında güc sınayırdı.

Bu mənzərəni rayon mərkəzlərinin birində, yenilənmiş parka bitişik çayxanada dünənki qəzetlərə ötəri baxa-baxa izləyirdim. Bugünkü qəzetlər günortadan sonra gələcəkdi. Parkdakı olaylar qəzetdə yazılanlardan maraqlı idi. Odur ki, bayaqdan bəri işçilərə göz verib, işıq verməyən, park müdirinin gücü çatmayan uşaqları yağlı söyüşlərə qonaq edib, polislə qorxuzub parkdan qovan bu əlahəzrətin kim olduğunu qonşu masada çay içənlərdən soruşdum. “Başçıdı!” Marağım daha da artdı.

“Stadiondan da qovurlar. Bəs harada məşğul olaq? Vitrin üçündür bunlar?” – deyə uşaqların ən

qıvrağı etiraz edirdi. Parkdakı məmurların bağırtısı onun etiraz səsini elə göydəcə tutub fəvvarənin suyunda boğdu. Uşaqlar bir dəstə ov itinə tuş gəlmiş dovşan kimi qaçıb aradan çıxdılar. “Təmizləmə” işini uğurla başa çatdıranlar Başçının hüzuruna qayıtdılar, cərimə zərbəsini qəbul edəcək futbolçular sayaq sıraya düzüldülər. Zavallı uşaqların üstünə pələng olub şığıyanlar indi əlahəzrət “hökmdarın” hüzurunda mum kimi əriyirdilər. Yəqin bu proses bir qədər də uzansaydı, əriyib qurtaracaqdılar...

***

2002-ci ilin yayında Özbəkistanın bir neçə şəhərində seminar keçirib Daşkəndə dönmüşdük. Bu o vaxt idi ki, hələ QHT-lərin fatihəsini verən qanun qəbul edilməmişdi, Əndicanda qırğın törədilməmişdi. Lakin buna baxmayaraq bizim demokratiya, vətəndaş cəmiyyəti problemləri mövzusundakı tədbirlərimiz yerli həmkarlarımız üçün müəyyən qədər riskli idi. Odur ki, Daşkəndin sayılıb-seçilən restoranlarından birində şam etmək üçün masa seçərkən özbək dostlarımızın cidd-cəhdlə qapalı yer istəmələrinin əsl səbəbini vaxtında duymamışdıq. Onlar dünyanın müxtəlif ölkələrindən gəlmiş demokratiya aşiqlərinin sərbəst söhbətlərinin kənardan eşidilməsini istəmirmişlər.

Amma azad dünyanın azad sakinləri təmiz havada, qocaman çinar altında qoyulmuş iki uzun masadan birini seçdilər. Dostlarımız dəmirdən keçən arqumentlərini dilə gətirmədilər, eləcə razılaşdılar. Bir

qədər sonra rəngarəng söhbətlərdən bağlanmış söhbət çələngi çeşidli özbək yeməkləri və içkilərilə birlikdə nə vaxtsa mövcud olmuş Bakının tramvay relsləri kimi yan-yana gedirdi. Ev sahibinin sifətindəki narahatçılıq da elə bu relslər kimi yoxa çıxmışdı.

Amma bu, uzun çəkmədi. Tezliklə yanımızdakı ikinci masaya bazburudlu, qalstuklu adamlar gəldi. Restoran heyətinin tam səfərbər edilməsi gələnlərin ali qonaq olmasına dəlalət edirdi. Bizim masadakı cürbəcür dillərdə danışan xaricilər, hətta sarışın polyak gözəli də öz dəyərini itirmişdi. Bütün diqqət yeni qonaqlardaydı. Süfrə sahibimizin həyəcan və narahatlığı artıq hamımıza sirayət etmişdi.

Gələnlərin çox yüksək rütbəli məmurlar – aralarında nazir, deputat da vardı – olduğunu öyrənməyimiz çox çəkmədi. Onlar gəlişlərilə ilk anda başa düşmədiyimiz bir qaramat da gətirmişdilər. İndi bizim yox, onların səs-küyü ətrafı başına götürmüşdü. Aralarında birinin onsuz da qıyıq olan gözünü bir az da qıyıb hərdən bizim özbək dostumuza oğrun-oğrun baxması diqqətimdən yayınmadı. Dostumuz həmin qıyıq gözün yiyəsini tanımışdı və bu gözlərdə yazılanları oxuduqca onun ürək döyüntülərinin necə artdığını masanın o biri başında "eşidirdim", düz sözümdü. Onu belə zavallı görmək ağır idi.

Dostumuzun məclisi qapalı otaqda açmaq istəməsinin məqsədini indi anlamışdıq. Bəzən azadlıq açıq havada yox, dörd divar arasında, hətta zirzəmidə olur. Avtoritar rejimlərdə belə olub, elə indi də belədi. Məclisin boğanaq havasını dəyişmək lazım idi.

Ayağa qalxıb çöl havasının "qapı-pəncərələri"ni açmaq üçün söz aldım. "Bir sağlıq deyəcəm və əminəm ki, məni eşidənlərin hamısı bu sağlığa ayaq üstə içəcəklər" – deyə üzümü həm də yan masaya tutdum.

Onlar məni görüb-eşitməsələr də, sözlərim bizim məclisdəkilərdə canlanma yaratdı. Amma Andrey Platonovun "Can"ındakı Çaqatayevin əzabı bizim özbək dostumuzun üzünə qonmuşdu, ürək paralayan bu sifətə baxmaq olmurdu. "Məzlum ən böyük qəddardır – kababın göz yaşları atəşi daha da alovlandırır". Farsların təxminən belə bir atalar sözü olmalıdı. Dostumuzun bu iztirablı halı məni də beləcə "qəddarlaşdırmışdı".

Səsimin tonunu bir oktava da qaldırıb Özbəkistan və onun xalqının şəninə köhnə val kimi təkrar-təkrar tariflər yağdırırdım. Dediklərimin qonşu masada oturanlara aid olduğunu artıq hamı başa düşmüşdü. "Vıpyem za velikovo uzbekskovo naroda". Qonşularımız artıq məni eşidirdilər. Söhbətə ara verib bir-bir masamıza çevrilirdilər, sanki bizi indi görürdülər. Amma ayağa durmurdular.

Sağlığa başlamazdan əvvəl yanımdakı amerikalı dostumla bu yekəxana qonşuları ayağa qaldıracağımdan mərcləşmişdim. Bu xəbər pıçhapıçla bizim masadakılara yayılmışdı. Odur ki, sözlərimə elə qulaq asırdılar, sanki Roma Papası II Pavel Varşavadakı məşhur mərasim nitqini söyləyir. Hamı diqqətlə bayaqdan məclisimizin azad həyatını pozanların reaksiyasını gözləyirdi.

"Özbək xalqı" kömək etmədi, yardıma Əmir Teymuru çağırdım. Bayaqkı nitqimi təkrarlayıb sonunda bu dəfə "Vıpyem za velikovo Tamerlana" de-

dim. Dünyanın yarısını hüzuruna gətirən Əmir Teymur 5-10 partnomenklaturu ayağa qaldıra bilmirdi. Özümü işə salmışdım, mənim bu dilxoşluğum yaxşı heç nə vəd eləmirdi. Amerikalı dostum isə mərci udubmuş kimi qımışırdı.

Səsimi bir qədər də qaldırdım. İndi məni hamı eşidirdi. Nəvaidən tutmuş Əmir Teymuracan (hələ qazax və türkmənlərin də nəhənglərini özbəklərin ayağına yazdım) yada saldım. Qalstukların sıxıb şişirtdiyi qıpqırmızı sifətlərdən dombalan gözlərin birində laqeydlik, digərində ikrah vardı. Axı mən onları necə insafa gətirim, bunlar heç dədələrinin də sağlığına ayağa durana oxşamırlar. Məclisimizin sahibi, yazıq dostumuzsa dirigözlü ölmüşdü.

"Vıpyem za velikovo sına uzbekskovo naroda, za İslama Karimova!" – nidam özümü də diksindirdi. Bir məclis "tuluq" ləngərləyib dik ayağa durdu. Bizim masadakılar da qalxdı. Amma orada əsl Daşkənd zəlzələsi baş verdi; boşqablar şaqqıldadı, bakallar cingildədi, yaşıl çay dolu piyalə yerə düşüb qırıldı. Sonra bayaqkı donuq gözlərə işıq gəldi, alışıb yandılar. Razılıq əlaməti olaraq üzümə gülür, başlarını yelləyirdilər. Onların məclisimizə, xüsusilə də mənə münasibəti tamam dəyişdi. O yandakı qıyıq göz böyümüşdü, daha özbək dostumuza açıq gözlə baxırdı. Dostumuz isə Sizifdən fərqli olaraq daşı dağın başına "qaldırmışdı", indi rahat-rahat gülürdü.

Sanki mən İslam Kərimovun məclisdəki xüsusi nümayəndəsi, masa ətrafındakılar isə onun xarici dostları idi. Onlardan biri baş aşbazı çağırtdırıb bizim

masaya nəsə sifariş edir, digəri boşqabları dəyişdirmək göstərişi verirdi. Masaları birləşdirməkdən tutmuş hesabımızı ödəməyədək heç bir təklifləri̇lə razılaşmadıq. Sonda, sağollaşıb ayrılanda ayağa qalxıb bizi qapıyadək gülə-gülə yola saldılar.

Əlahəzrətin qonaqlarının hüzuru elə Əlahəzrətin öz hüzuru idi.

***

Soyumuş çaydan bir qurtum içmişdim ki, parkın qapısı ağzında qara rəngli, "AA" seriyalı maşın dayandı. Qabaqda oturan cantaraq oğlan cəld düşüb arxa qapını açdı. Qonaq maşından çıxıb ətrafa göz gəzdirdi. Parkın o biri başında sıraya düzülmüş "futbolçuları" danlayan Başçı sözünü yarımçıq qoyub qəfil gəlmiş Qonağın hüzuruna qaçdı, "dinləyicilər" də onun arxasınca...

İndi o özü ali Qonağın zərbələri qarşısında mum olub ərimәyə hazır idi. Qonaq parkı gəzib razılıq əlaməti olaraq başını tərpətdikcə Başçının da başı təvazökar təbəssümlə gah sağ, gah da sol çiyninə düşürdü. Park bəyənilmişdi. Sabah o da gördüklərini eyni səmimi və təvazökar təbəssümlə daha yüksək hüzura çatdıracaqdı...

Təxminən bir saatdan sonra Qonağı yola salan Başçı əyanlarını süzüb, razılıq və rahatlıq hissiylə başını silkələdi. Sonra əllərini belinə qoydu, qamətini dikəldib bir daha parka göz gəzdirdi. Sanki Cahan şah taleyinin ən dəyərli bəxşişi üçün tikdirdiyi Tac Mahalı seyr edərək memarlara minnətdarlıq təbəssümü bəxş edirdi.

*17 noyabr 2009*

# Bekar(a) ömür

*“Əgər hər şey gömülməyə məhkumdursa və nəhayət, Yer kürəsinin qabığı ilə bərabər soyuyacaqsa, sonra da milyonlarla il mənasız və məqsədsiz bir halda günəşin ətrafına dolanacaqsa, əcəba, beyin mərkəzləri və qırışları, görmə və danışma qabiliyyəti, xüsusi hisslər nə üçünmüş?”*

Anton Çexov, “6 saylı palata”

Bu yaxınlarda Rüstəm İbrahimbəyovun “İbrus” teatrında nümayişi elan olunan “Köçəri” filminə birlikdə baxmağa adam axtarırdım. Hayladıqlarımsa getmək istəmirdilər. Çoxsaylı bəhanələrin ən abırlısı “Bekarsan eyy...” idi. “Facebook”dakı yaxınların və zəng edib dilə tutduğum dostların sayı filmin başlamasına qalan dəqiqələrin sayına çatanda ayağa qalxdım. Yeddiyə 15 dəqiqə qalmış kələ-kötür, qaranlıq küçəylə yaxınlıqdakı teatra yollandım.

***

Bu ilin martında Moskva çeçeni, etnoqraf dostum Leça İlyasovla Vaşinqtonda qonaq idik. Ev yiyəsi özünün bütün istedadıyla “amerikan əsilli qafqaz qonaqpərvərliyini” nümayiş etdirirdi. Günümüzün maraqlı keçməsi üçün İnternetdəki elanları bir-birinə vurub mədəni tədbirlərin siyahısını tutur, həyatımızı qrafikə salırdı. Muzeylər, parklar, restoran-kafelər

bir-birini əvəzləyirdi. Artıq tarixi Vaşinqtonu "yarısınacan oxumuşduq" – "Reyqana güllə, bax, burada açılmışdı" və sairə.

Bir gün bizi pantomim teatrına aparmaq istədiyini dedi. "Özü də bu teatrı gürcü miqrantları yaradıb. İstedadlı uşaqlardır". Qafqazlı təəssübkeşliyimizə hesablanmış bu təqdimat neçə gündü mədəni tədbirlərdən "doyan"larda heç bir maraq oyatmırdı. Ona başqa işimizin olduğunu bəhanə edib getmək istəmədiyimizi bildirsək də, bir səhər soruşub eləmədən biletlə gəldi. Teatra getməli olduq, könülsüz, həvəssiz. Sanki kolxozçuları lafetə yığıb Qara Qarayevin "Don Kixot"unu dinləməyə aparırdılar. Həmin axşam "Van Ness" metrostansiyasının o üzündəki barda pivə içmək vədimiz yada düşəndə isə az qala bu gürcü artistləri nə vaxtsa Amerikaya gətirən təyyarənin pilotunu lənətləyirdik. İşimiz var da, Vaşinqtonda səni zorla gürcü tamaşasına aparalar, özü də lal dili tamaşaya.

... Şəhər ətrafındakı Arlinqton Spectrum Teatrına girəndə məlum oldu ki, baxacağımız tamaşa Sinetik Teatrın (Synetic Theater) hazırladığı "İlahi komediya"dı (Dante). Öyrəndik ki, bu teatrı 2001-ci ildə gürcü miqrantları Paata və İrina Tsikurişvililər yaradıblar. Az müddətdə populyarlaşan teatr bu illər ərzində xeyli mükafat qazanıb.

Çox da böyük olmayan zal tezliklə doldu. Tamaşaçıların orta yaş həddini çıxara bilmədim. Yaşlılar çoxluq təşkil etsə də, cavanlar da az deyildi. Xanımlı-kişili daraqlanıb-sığallanıb gəlmişdilər. Hamının üzündən bəxtəvərlik yağırdı, dostum Leçadan başqa.

Sanki çeçen müharibəsinin əzabı gözlərinin dibinə çökmüşdü. Sifətimdəki Qarabağdan qalma müharibə çöküntüsünü də, yəqin, yalnız o görürdü.

İşıqlar söndü. Tamaşa başladı. Bir neçə rəngin tünd çalarından ibarət qeyri-adi dekorasiya qəribə mənzərə yaratmışdı. Nəhəng qıfa bənzəyən "burulğan" azğın ehtiras içində çapalayan insan ruhları ilə dolu idi. Qeybdən gələn musiqi ruhların fəryadına züy tuturdu. Tanrı dərgahında çılpaq ruhların "ruhları" da çılpaq idi: burada heç nəyi gizlədə bilməzsən. Burada yalnız günahlar "diri"di. Bəli, bura cəhənnəmdi, Dantenin cəhənnəmi! Dantenin özü də bir gürcü balasının qurduğu bu cəhənnəm səhnəsinə qibtə edərdi.

Zal nəfəs almırdı. Səhnədəki "cəhənnəm"dən fərqli olaraq burada həyat yox idi, donmuşdu. Sanki biz cəhənnəm sakinlərinin yox, onlar bizim halımıza heyrət edirdilər. Özümü bu ruhların arasında hiss edəndə nədənsə sağımdakı Leçaya baxırdım. Dünyanın ən məğmun çeçeni yumaq kimi yığılmışdı. Bütün zal bir böyük yumaq idi. Mənim də halımı yəqin ki, yanımdakılar sezirdi. Özüm öz günümü görə bilməzdim.

"İlahi komediya"nın növbəti hissələri də eyni uğurla oynandı. Rənglər, işıqlar, səslər, aktyorların üz və bədən ifadələri bir ahəng yaratmışdı. Tamaşa bitəndə bizim sifətimizdən "əzab", amerikalıların üzündən isə "bəxtəvərlik" yox olmuşdu. Hamının üzü bir idi. Hamımız HEYRAN qalmışdıq! Tamaşa hamımızı "Cəhənnəm"in "Məşhər"indən adladıb "Cənnət"ə çıxarmışdı.

Qayıdanda yolboyu teatrşünaslar kimi tamaşanı şərh edirdik. Dostumuz pərtliyimizi səhnədəki "cə-

hənnəm oduna" atmışdı. Bizə ömrə yazılası bir axşam bəxş etdiyinin fərqindəydi, çöhrəsi çiçəkləmişdi. Bizim də üzümüz Konnektikut küçəsinin lampaları kimi işıqlanmışdı...

***

Həsən Seyidbəyli küçəsi, 18 ünvanındakı "İbrus" teatrına çatdım. Bayırda teatrın iki əməkdaşı siqaret çəkirdi. Məni qəribə nəzərlərlə süzən daha yaşlısı filmi göstərməyəcəklərini dedi: "Sizdən başqa gələn yoxdu".

Bax belə, sevimli oxucum! İlk "Oskar"lı azərbaycanlının – Rüstəm İbrahimbəyovun qədim türklərdən bəhs edən filminə üç milyonluq türk şəhərində bircə bekar adam gəlmişdi...

Bekar(a) günü beləcə başa vurub üzüaşağı küçənin qaranlığına doğru getdim...

*3 dekabr 2009*

# Qara çörəyin ağ üzü

Nə qədər haqlı olmasına baxmayaraq, səmimi deyilməyən sözü qəbul etməməyim, yəqin ki, şərqli emosionallığımdan gəlir. Sevgisiz, hətta nifrətlə deyilən haqlı sözü qəbul edənlər də var. Mən belələrindən deyiləm. Mənə təsir etmək üçün haqlı söz demək azdır, o, həm də səmimi olmalıdır. Sözün həm HAQLIsını, həm də SƏMİMİsini deyin, nə qədər acı və ağır olsa belə, qəbul edəcəm. Əmin olun!

Ötən həftə Avropa Parlamentində qəbul olunan "Azərbaycanda ifadə azadlığı haqqında" qətnaməni bu cür qərarlara qarşı çoxdan peyvənd olunmuş cəmiyyətimizin bir üzvü kimi "gözümün ucu" ilə oxuyacaqdım. Çoxsaylı beynəlxalq təşkilatların və ya belə qurumların təmsilçilərinin Azərbaycanda insan hüquqları, söz azadlığı, korrupsiya və sair haqda bəyanatları daha tükümü də tərpətmir (çoxu səmimi olmaması səbəbindən); o qədər kəsərsizdilər ki, o boyda yolu gəlib mənə çatanda heç kəpənək qanadlarının mehini yaratmağa belə heyi qalmır. Amma bu dəfə belə olmadı...

***

Polşa Seyminin üzvü, senator Zbiqnev Romaşevski Şərqi Avropa Demokratiya İnstitunun (İDEE) təşkil elədiyi konfransdan sonra iştirakçılardan bir qrupunu evinə dəvət edən axşamı küçə lampaları qar dənələrini yaydan çıxan ox kimi Varşavanın qaranlığına sancırdı. Əliboş getməmək üçün səfər torbasın-

dan "Gəncə" konyakını bəxtəvər təbəssümlə çıxaranda onun neçə gündü açılmamasına təəccübləndiyim qədər də sevinirdim. Bir hoteldə qaldığımızdan eyni vaxtda çıxıb senatorun mənzilinə birlikdə getdik. Alaqaranlıq otağın küncündəki neçə əsrdənsə qalma kamodun üstündə mənim "Gəncə"mlə yanaşı sıralanan çex "Becherovka"sı, gürcü "Xvançkara"sı, Belarus vodkası, qırğız "Kırqızıstan"ı ... və bir buxanka qara çovdar çörəyi natürmortu xatırladırdı.

Maraqlı söhbətlər, siyasi lətifələr, müdrikanə sağlıqlar bir-birini əvəz edirdi. Kimi Mordva həbs düşərgəsində qoşduqları siyasi lətifəni danışır, kimi Çili kommunistlərinin lideri Luis Korvalanla dəyişdirilərək SSRİ-nin vərəm qoxulu qaranlıq məhbəs küncündən azad dünyanın qoynuna atılan dissident Vladimir Bukovskiyə bəxtəvərlik verdiyi günləri xatırlayırdı. Başqa birisi də kommunist ölkələrinə gedən qatarların açıq pəncərəsindən içəriyə siyasi ədəbiyyat tullamasından xüsusi ləzzətlə söz açırdı.

Bütün söhbətlər fırlanıb arılar kimi bir pətəyə yığışırdı – ana mövzu kommunizmin xalqlara vurduğu yaralar və kimin yarasının daha dərin olması idi. Bu xüsusda hərənin öz versiyası vardı. Həmin vaxt Belarusun künc-bucağını təzəcə gəzib gəlmişdim. "Zerkalo" və "Avropa" qəzetlərində dərc olunan "Ağ Rusiyanın qara taleyi" adlı məqaləmin istisi hələ soyumamışdı. Odur ki, əminliklə kommunizmdən ən çox zərər çəkənin Belarus xalqı olduğunu deyib bu ölkədə yaşlılardan, vətənpərvər ziyalılardan eşitdiyim tükürpədən hadisələrdən söz açırdım.

O, elə bu vaxt, əlində matah Argentina şərabı, pay gətirdiyi qara çovdar çörəyinin rəngində olan küncdən çıxıb mənə yaxınlaşdı. Yalnız çənədə saxladığı, üzündəki Avropa aristokratlığını daha da artıran qısa ağ saqqalına tumar çəkib, mehriban səslə dedi: “Ay mənim bakılı dostum, hamımız kommunizmdən ağır yaralarla çıxmışıq. Məgər siz azərbaycanlılar qədər dərin yaraları olan varmı?”

Sözünün eşidənlərin marağına səbəb olduğunu görüb davam elədi: “Amma bu yaraları sağaltmaq üçün ən yaxşı şans da elə sizdədi. Bu şansdan yararlanmaq bacarığınızı göstərməyə imkanınız hamıdan çoxdu”.

Sonra pianonun arxasına keçib özünün yeni bəstələdiyi musiqiylə gecə qaranlığını not-not işıqlatdı, parlaq çöhrəsindən hər yana nur çilədi. Piano dillərinin çıxardığı səsin məlhəm kimi axıb ürəkdə qana qarışdığını həm görür, həm də eşidirdim. Hamı iki dünya arasındakı qəribə mühitə düşmüşdü.

...Avropanın nüfuzlu idealist demokratı, məşhur “Sayudis” hərəkatının qurucularından biri, Litvanın keçmiş prezidenti, Avropa Parlamentinin 77 yaşlı üzvü Vitautas Landsbergis ötən həftə Avropa Parlamentində qəbul olunan “Azərbaycanda ifadə azadlığı haqqında” qətnamə ilə bağlı ehtiyatla, dostyana bu sözləri deyib: “Qısa müddət ərzində Azərbaycanda vəziyyətin pisləşməsini göstərən xeyli hadisə baş verib və bu, Azərbaycanın Avropa Birliyində formalaşan yaxşı imicinə ziyan vurur. Biz Azərbaycanı daimi inkişaf prosesində görmək istərdik. Çox istərdik ki, Azərbaycan bütün məsələlərdə, o cümlədən, media azadlığı sahəsində Avro-

pa Birliyinə yaxınlaşsın. Əgər bu standartlara əməl olunmursa, biz bu barədə iradımızı dostlarımıza bildirməliyik. Azərbaycanda qanunların tətbiqi məsələsində Rusiyadakı vəziyyəti xatırladan çoxlu hadisə baş verir. Azərbaycan seçim etməlidi: daha çox Rusiyaya oxşamaq istəyir, yoxsa avropalı olmağa çalışır?”

O, soyuq Varşava gecəsindəki kimi HAQLI və SƏMİMİdi, dedikləri nə qədər ağır və acı olsa da. Buna kiminsə şübhəsi varmı?

*21 dekabr 2009*

*Esse litov dilinə tərcümə olunaraq Litvanın qəzet və saytlarında dərc edilib.*

# Özünü axtaranlar ölkəsi
## və ya maydan sonra gələn aprel

“Söz bütün hissləri dartıb uzada bilən yayma dəzgahıdır” yazarkən Qustav Floberin hansı ovqatda olduğu onun “Madam Bavari”sindən bilinir. Amma inana bilmərəm ki, bu dahi yazıçı da nə vaxtsa sözün əlində aciz qalmasın, ən dərin hissi ürəyində fır bağlayıb, dilinin ucunda düyünlənib sözə çevrilə bilməsin.

Hələ sözlə davadan qalib çıxan görmədim...

Neçə illərdi Azərbaycan Xalq Cümhuriyyəti, Müsavat hökuməti, onu “yoxdan” yaradanlar, sonra onun bir ideya kimi yaşaması üçün Sibirdə donanlar, Nargində güllələnənlər, türmədə çürüyənlər, küçədə alçaldılanlar, qürbətdə çərləyənlər haqda duyğularımı Allahın nə bir kəlmə sözü, nə də sayı artıq altıya çatdırılan insan hislərinin biriylə ifadə edə bilmirəm. Bu, romantik duyğular deyil, o, çoxdan arxada qalıb. Həm də romantik duyğuları dilə gətirməkdən asan nə var romantik xalqın nümayəndəsi üçün?

***

İki ilə yaxındı çoxsaylı nazirlik, dövlət idarələri, Bakı Dövlət Universiteti 90 yaşını bayram edir, müxtəlif tarixi günlər qeyd olunur. Qeyd olunmayanlar da az deyil. Bütün bunlar eldə Müsavat hökuməti kimi tanınan Azərbaycan Xalq Cümhuriyyəti adlı dövlətin yaranması və ona bağlı çoxsaylı əlamətdar günlərlə əlaqədardı.

***

...Şuşa yolunun ikiyə böldüyü Qarabağın, bəlkə də, özü ilə yaşıd Qarahacılı qəbiristanlığının sağ tərəfində son əlli ilin, solunda isə gedib-gələni olmayan, cığırları çoxdan itmiş daha qədim qəbirlər var(dı). Camaatın Dəmirçı Səlman çağırdığı babam sağ tərəfdə uyuyur. O biri babam Həbib Qazıyevin məzarı qəbiristanlığın sol tərəfindədi. Mən onu tapa bilməzdim deyə axtarmamışdım. Həm də ona görə ki, ağlı kəsən vaxtdan atam da çox axtarıb, ancaq tapmayıb. Uşaqlıq illərində onun qəbrinin itməsi mənə qəribə gəlirdi. Bu o vaxtlar idi ki, doğma bildiyim bütün adamları, cismləri, hadisələri yaxından görürdüm. Çünki onların yanındaydım. Bu doğmalardan aralandıqca onlara uzaqdan baxmağı öyrəndim. Daha sonra duydum ki, uzaqlaşdıqca onlar daha əziz olurlar. Beləcə, ən əlçatmaz ən çox vurulduğun olur, lap Allah kimi...

Bu gün nə Qarabağa, nə də Qarahacılı qəbiristanlığına əl çatır. İndi, bu yazını yazdığım anlar onun qəbrinə də beləcə kənardan baxıram, lap dipdiri Ruh kimi.

Buraya yazdığım hər kəlmə məni quş uçuşu boyu göyə qaldırır. Qalxdıqca uzaqlaşıram. Uzaqlaşdıqca bütöv qəbiristanlıq dönüb bir qəbir olur, elə onun məzarı boyda. Şuşanın dağlarından gələn duman qız örpəyi kimi ağappaq buluda çevrilir, çatıb çəkirəm bir kənara bu örpək-buludu. Uçuşa davam edirəm. Qəbiristanlıq Azərbaycana, o da nəhəng qitəyə çevrilir. Buludların cızdığı xətti çoxdan yarıb Ayadək dikəlirəm, ilahi boşluğa çatıram. Burdan gördüklərim oğlumun gecələr qucaqlayıb yatdığı yupyumru topu xatırladır.

Mən də onu beləcə qucaqlamaq istəyirəm. Üstünün tozu-ləkəsi, içinin dostu-düşməniylə... İlahi, buradan Yer necə tanış, necə doğmadı!

... Dünyanın ən gözəl səyahətindən üzü Yerə dönürəm. Nəhəng Yer atlas vərəqləri kimi çevrilir və hər çevrilişində adamı özünə bir nəfəs də çəkir. "Oğlumun topu" daha görsənmir.

Burada yıxılmaq təhlükəsi yoxdu! Enirəm! Üzüm iki okean arasındakı böyük torpağa sarıdı. Nədir bu yerin adı? Min illər saniyə kimi keçir. Kimlər yoxdu bu qırıq saniyələrin içində, kimlərin səsi yoxdu... onu qollarımın arasına alıb sarılmaq istəyirəm. Alınmır, ötüb keçirəm. Qafqaz da arxada qaldı. Azərbaycana enirəm. Budur, çatdım! Amma düşdüyüm yer qalxdığım yer, bu qəbir də o qəbir deyil!

... Babamın itmiş məzarını Göyçaydan üzü Bakıya səpələnmiş adsız türk qəbirləri şəklində tapıram.

***

23 Cümhuriyyət ayı tariximizin "qara dəliyi"di. Bu yurdun az qala Paleolit dövrünü öyrədiblər bizə, bir babalıq tariximiz isə yasaq olub. Amma Beyinlərin Böyük Yuyulma illəri belə onu silib apara bilmədi. Onu yazanlar elə yazmamışdılar ki, hər gələn pozsun, heç indən belə də pozulası deyil. Azərbaycan Xalq Cümhuriyyəti minillərlə yaşı olan qoca bir xalqın təzələnən genetik yaddaşıdı...

***

... Eyvandakı uzun stolun o biri başında tüstülənən samovardan çay süzdü. Stəkəna qonşu Ağca arvadın göndərdiyi builki qarağat mürəbbəsindən salıb qarışdırdı. Hörümçək toru kimi dəqiq işlənmiş qırış sifətinə yaraşıq verən xüsusi ədayla “Zoğalı yığmasan, danışmayacam” dedi.

Yaydan-yaya Bakıdan Ağdama gələn, hər gəlişiylə evimizi qonum-qonşunun “ziyarətgahına” çevirən, yaşlıların gah “Ordubad qızı”, gah da “Tiflis gəlini” çağırdığı nənəmin dediyini eləməsən, dediyini eləməyəcəyinə şübhə yox idi. Söhbətlərini dinləmək üçün ən zəhlətökən işi belə görməyə hazır idim. Belə işlərdən biri də yarpağının daladığı yer uzun müddət qaşınan zoğal ağacına çıxmaq idi.

Onun söhbətləri yalnız özü yorulanda bitirdi. Bəzən uşaqlıq xatirələrinə baş vurub bizi Ordubada “səyahətə” aparırdı. Xatirələri babasının ərik bağlarıyla başlayıb elə onunla da bitirdi: “Hamısı birdən çiçəkləyəndə deyirdin elə bəs dünyada çiçəkdən başqa heç nə yoxdu”. Bəzən də Tiflisdə, əmisinin Şeytanbazardakı evində yaşadığı yeniyetməlik illərindən danışar, getdiyi teatrlardan, gəzdiyi yerlərdən söz açardı. “Leyli və Məcnun” operasını əzbər oxuyurdu: “Ged, ey Leylü, sən o Leylü döyülsən!” Ordubad, Tiflis və Qarabağ ləhcələrinin qarışığından qəribə bir danışığı vardı. Söhbətlərinin ən şirini babamla tanışlığı idi.

***

... Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan türklərinin tarixdə özünüdərk, özünüifadə etdiyi tək

və yeganə hadisədi. Doğum haqqında şəhadətnamə insanın varlığını təsdiqlədiyi kimi müstəqilliyin elanı da millətin özünütəsdiq möhürüdü. Yeni doğulan uşaq bir ailənin, yeni yaranan millət isə bəşəriyyətin nemətidi...

***

Münəvvər nənəmin xatirələrindən: "Tiflisə bir-iki il idi gəlmişdim. Bir gün əmim arvadı gəldi ki, bəs biri sənə elçi düşüb. Əmin razılıq vermək istəyir, sən nə deyirsən? Şuşalıdı, qazı nəslindəndi, özü də varlı-hallıdı... Gedib gördüm qara bir kişidi. Amma iti, sərt baxışlarından xoşum gəldi. Məni teatrda görübmüş. Zəhmli olsa da, nəzakətliydi... Nəysə, razılıq verdim, sonra məni faytona qoyub gəlin apardılar". Söhbətin bu yerində qızların sualının sayı hesabı olmazdı.

Oğlanlara isə davalı söhbətlər maraqlı idi: "Biz uşaq olanda ermənilər Naxçıvanda çox türk qırıb. O vaxt bizə türk deyirdilər. Onlar bizi hər yerdə öldürürdülər. Bizim arvadların döş gilələrini kəsib sapdan keçirir, təsbeh kimi bizimkilərin səngərinə atırmışlar. Buna dözməyib irəli çıxanları da gülləylə vururmuşlar. Adamların belinə qaynar samovar bağlayıb qaçırdırmışlar". Bu qorxunc söhbətdən sonra qan-tər içində külünglə evimizin alt otağına qapı açan erməni fəhləsi Cavanşirə çay süzüb, yemək çəkəndə nənəmi başa düşmürdüm. "Sənin kürəyinə qaynar samovar bağlayana necə çay-çörək vermək olar?" Acığımı za-

vallı Cavanşirin armud ağacının dibində cütlənmiş ayaqqabılarını islatmaqla çıxırdım...

***

Münəvvər nənəmin xatirələrindən: "Türklər gələndə Həbif (babamın adını belə çəkirdi) dost-tanış, qohum-əqrəbadan dəstə düzəldib onların qabağına çıxıbmış. O vaxt bizimkilər vuruşmurlarmış. Yevlaxda türk əsgərinin bir kişiyə şallaq çəkib söyməsi xəbəri onu da pərt edibmiş: "Kişilər bizi qorumağa gəlir, biz də girmişik evə". Beləcə qoşulubmuş Müsavat ordusuna. Əsgəran tərəfdə dizindən yaralanıbmış. Yarasının yeri sonralar da göynəyirdi. Babanız belə kişi olub". 35 il əvvəl ölən əri haqqında elə danışırdı ki, elə bil dünənin söhbətini edirdi.

***

Yazıçı Oleq Volkov 1928-ci ildə uzaq Solovki həbs düşərgəsindəki müsavatçıları belə xatırlayır: "Я решил умереть, – твердо сказал нам староста. – Мы и на Соловки-то привезены с тем, чтобы покончить с остатками нашей самостоятельности. В Баку мы для них реальные и опасные противники... Но не стоит об этом. Мы и наши цели слишком оболганы, чтобы я мог коротко объяснить трагедию своего народа... – Напоследок он пошутил: – Я потребовал перевода с острова... в солнечную Шемаху! Случится мимо ехать – покло-

нитесь милым моим садам, кипарисам, веселым виноградникам... Прощайте, друзья”.

***

Münəvvər nənəmin xatirələrindən: “Ruslar Müsavatı devirəndən sonra il ildən ağır gəldi. Babangilin Tiflisdə bir restoranı vardı – “Arşın mal alan”. Əllərindən aldılar. Sonra Şuşadakı mülklər də əldən çıxdı. Özünə yer tapmırdı. Ordubada – bizimkilərin yanına getdik. Dükan açdı, İrandan mal gətirirdi. İşləri pis getmirdi. Atan da elə Ordubadda doğuldu. Amma çox çəkmədi, burda da babanı ilişdirdilər. Onun təzə hökumətdən zəhləsi gedirdi. Sərhədi adlayıb İrana, oradan da Türkiyəyə getmək istəyirdi, qərara gələ bilmirdi. Qayıdıb Ağdama gəldik. Köhnə dostlar sayəsində özünə iş qurdu, amma fikri köhnə hökumətdəydi. Deyirdi ki, onlar qalsaydı, indi bu murdarlıqlar da olmazdı. Nə orduya yazıldı, nə müharibəyə getdi. Ondan sonra mən də oğlanlarımı rus ordusuna göndərmədim. “Voyennilər” gələndə atanı taxtapuşda gizlədirdim. Babanız bu ölkədə özünə yer tapmadı. Axırda, məni körpə uşaqlarla tək qoyub öldü. Çərləyib öldü. Beləcə, qara günlərimiz başladı. Tək qaldım. Sonra qəbrini də tapa bilmədik”.

***

İki ilə yaxındı ayrı-ayrı nazirliklər, dövlət idarələri 90 yaşını bayram edir, müxtəlif tarixi günlər

qeyd olunur. Bütün bunlar Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və ondan sonrakı çoxsaylı əlamətdar günlərlə bağlıdı. Növbə 11 yanvara çatıb.

11 yanvar 2010-cu il Parisdə Müttəfiq Dövlətlərin Ali Şurasının Azərbaycan Xalq Cümhuriyyətini tanımasının 90 illiyidi.

Bu yazını Cümhuriyyəti quranlara, onun yolunda ölənlərə və onu sevənlərə bayram hədiyyəsi kimi yazdım. 11 yanvar Azərbaycan dövlətçilik tarixinin Şərəf zirvəsidi. Sonra 28 aprel gəlir. Şanlı maydan sonra gələn qara aprel!? Bütün zirvələrin o biri üzü uçurumdu. Bizə zirvəylə yanaşı uçurum da qismət imiş. 90 illik yubiley silsiləsi 28 aprellə bitir. Süqutun yubileyi mənlik deyil deyə yazını bu günə həsr etdim.

Cümhuriyyətin süqutunun 90 illiyi. Amma o, süquta yox, günəş kimi "oğlumun topuna" dövrə vurub, yenidən doğmağa getmişdi. Bu barədə M.Ə.Rəsulzadə İ.V.Stalinə 88 il əvvəl yazmışdı: "За два года в Москве я понял: восточные народы все равно обретут свою независимость. Вы не добьетесь того, что хотите. Народы Востока будут жить так, как захотят сами, а не по коммунистическим нормам и принципам".

11 yanvar 1920-ci ildə bizi gördülər, tanıdılar. 2 mart 1992-ci ildə bütün dünya bizi daha yaxından görüb bir daha tanıdı. "İmzalar içində imzamız" tapıldı.

Biz necə, özümüzü tapdıqmı?

*6 yanvar 2010*

# Şahmat taxtasında beysbol

*Genosid düşüncələri*

On yaşlı oğlum məktəbdə kağızdan düzəltdiyi ucu şiş, gövdəsi yoğun "qanadlı raket" bağışlayıb məni 23 fevral "kişilər günü" münasibətilə təbrik elədi. Üstünə Azərbaycan bayrağı çəkilmiş raketin aşağısındakı uzun nərdivan onun nəhəngliyindən xəbər verirdi. Özü də sovetin SS-20 uzaqvuran raketinə oxşayırdı. Urandan alınan o zəhrimarı da əlavə eləyəndə buna atom bombası deyirlər...

Hədiyyəni qəbul eləsəm də, 23 fevralın 1920-ci ilin aprelində müstəqilliyimizə son qoyan, 70 il bizi əsarətdə saxlayan, 1990-cı ilin yanvar qırğınını törədən, Qarabağın işğalında ermənilərə kömək edən sovet ordusunun, yəni bizə yad, düşmən bir ordunun yaranma tarixi olduğunu dedim oğluma. Bu naftalin qoxulu "23 fevral bayramı" söhbətinə görə mənim adımdan müəlliminə etirazımı bildirməsini tələb etdim.

Sonra niyə məhz raket düzəltməsiylə maraqlandım. Onunla söhbətdən qısa bir dialoqu olduğu kimi yazıram.

– Niyə ayrı şey yox, raket düzəltdin?

– Xoşuna gəlmir?

– Gəlir. Maraqlıdı.

– Bunun əsli olsa, atarsan Ermənistana?

– Niyə?

– Mən ataram.

– Bilirsən nə qədər şəhər, kənd dağılar onda?

– Dağılsın! Bəs onlar Ağdamı niyə dağıdıblar? Yadına gəlir, bir kaset gətirmişdin, nənəm sağıydı onda, baxıb necə ağlamışdı?

– Sən bu raketi atsan, orda da çoxlu adam öləcək. Analar, atalar, nənələr, babalar, uşaqlar öləcək.

– Ölsün! Xocalıda qocaları öldürəndə, uşaqların gözünə siqaret basanda, qulaqlarını, başlarını kəsəndə yaxşıydı?

Bu sözləri ona mən deməmişdim. 10 yaşlı uşağa deyə bilməzdim... Ev, yol, məktəb, radio, televiziya... O faciənin ağır hənirtisinin gələn vaxtıdı – üç gündən sonra Xocalı qırğınının 18 yaşı olacaqdı.

– Onu eləyənlər başkəsəndi, qatildi, sən də qatil olmaq istəyirsən? Uşaq öldürən, ata, ana öldürən qatil?

“Qatil” sözünü ağzımdan elə çıxardım ki, sanki udmağa hazırlaşdığımın murdar olduğunu bilib qaytarırdım. Bu sözün mənasını tam anlamasa da, pis bir şey olduğunu sifətimdən oxudu. İzah etdikcə fikrə getdiyini gördüm. Sualıma cavab vermədi. Əvəzində məni daha qorxulu sual yaş dəsmal kimi bürüdü: “Evimdə QATİLmi böyüdürəm?”

## Yaddaş cığırı

Otağıma çəkilirəm. Yaddaş hücrələrimin ən dərin qatlarında gizlətməyə çalışdığım qorxunc, ağrılı, yaralı xatirələr yenə boy verir. Onları əlacı tapılanadək dondurulan xəstələr sayaq qoymuşdum ora. Ora gedən yol qaranlıqda səmti görünməyən cığır kimidi.

... Göz bəbəklərimi beynimdəki yaddaş hücrələrinə sarı çevirirəm. Çölümə yox, içimə gedirəm. Beynimin qırışlarını cəngəllikdə yol açırammış kimi yara-yara, əzə-əzə, xırçıldada-xırçıldada keçirəm, hüceyrələri yaş ilbiz kimi üzümə yapışır, damarcıqları hörümçək toru kimi kipriklərimə ilişir...

Qaranlıqda öz Qorxuna doğru getmək dünyanın ən qorxulu və əzablı yoludu.

... Ağdam şəhəri Xocalıdan 18 kilometr aralı(y)dı. Xocalı qırğınının səhəri, 1992-ci ilin 27 fevralında Ağdama gəldim, o vaxt hələ buralar sərgərdan ruhlar şəhəri deyildi, diriydi. İşlədiyim qəzetə yazı söz versəm də, heç nə alınmadı, göz görəni əl yaza bilmədi. Gözləri çıxarılmış uşaq, qarnı yırtılmış qadın, burnu, qulağı, kişiliyi kəsilmiş kişi meyitləri gəlməkdəydi...

Ağdam məscidi heç vaxt bu qədər meyiti bir yerdə görməmişdi. Yandırmağa odun, qaynatmağa su, yumağa meyityuyan, kəfənləməyə bez çatdırmaq olmurdu. Şəhər keyimişdi. Key-key yaralı qarşılayır, əsir dəyişirdi. Donuq gözlər Xocalı yoluna zillənir, keyimiş əllər qəbir qazırdı. Şəhərin ağlamağa göz yaşı yoxuydu. Qorxu şəhərin "göz yaşları"nı qurutmuşdu.

Qanqrena olacaq əllər, yerlə sürünən ayaqlar... Can götürüb gecə köynəyində, gizli cığırlarla ayaqyalın qaçan bu adamlar 18 kilometrlik yolu bir neçə gündən sonra qarlı dağlar, meşələrdən dolanaraq beş-beş, on-on gəlib Ağdama çatırdılar. Gördüklərini söz-söz, cümlə-cümlə yox, qırıq-qırıq, heca-heca deyirdilər. Sanki həkim dozası xəstəni şoka salar deyə sistem qoşub, dərmanı damla-damla yeridirdi.

Əsirlikdə nə qədər adam qalmışdı, bilən yoxudu. Meyitləri, əsirləri almaq üçün yerli batalyon komandirləri danışıqlar aparır, meyit qarışıq əsirləri dəstə-dəstə alıb gətirirdilər. Əsirlikdən azad olunanlar onlara verilən işgəncələrdən, edilən təhqirlərdən danışırdı. Eşidənlərin canına qorxu ruh kimi girirdi...

Şəhərə ***Qorxu*** hakim idi. Düşmən istəyinə nail olmuşdu: kütləvi qorxu, kollektiv sarsıntı baş tutmuşdu. Həmin günlər şəhər tarixinin ən vahiməli anlarını yaşayırdı. Bir il sonra Ağdamın özü – evləri, küçələri, bağları kəsilib, sökülüb, daşınıb, yandırılıb, xarabaya çevriləcəkdi.

## Nifrət xəstəliyi

Bu dava 100 il əvvəl də olmuşdu. Nənəm danışırdı: "Biz uşaq olanda ermənilər çox türkü qırıb. O vaxt bizə türk deyirdilər. Onlar bizi hər yerdə öldürürdülər. Arvadların döş gilələrini kəsib sapdan keçirir, təsbeh kimi bizimkilərin səngərinə atırdılar. Buna dözməyib irəli çıxanları da gülləylə vururdular. Adamların belinə qaynar samovar bağlayıb qaçırırdılar..."

Amma nənəm heç vaxt demədi ki, sən də erməniyə nifrət et! Bilirəm, eşitmişəm, ermənilər uşaqlarını körpəlikdən türkə, azərbaycanlıya nifrət hissiylə böyüdür. Bizdə belə olmayıb. Nifrət yaddaşa bağlıdı. Bizim yaddaşımızda nifrət qalmayıb. Odur ki, sonra 10 minlərlə Azərbaycan kişisi erməni qızlarını sevdi, evləndi, ailəsinə gətirdi. 100 minlərlə ata, ana, nənə,

baba, qohum erməni qızlarını ailəsinə qəbul etdi. Bu qarışıq ailələrdə minlərlə uşaq doğuldu. Bu qədər ayrılan, ölkəni tərk edənlərdən sonra indi də Azərbaycanda 30 min erməni qadını öz ailəsiylə yaşayır. Bu, rəsmi statistikadı, qeyri-rəsmi lap çoxdu. Məgər nifrət hissiylə qovrulan bir millət bunu edərdimi? Buyurun, azərbaycanlı qızını arvad edən erməni kişiləri göstərin, ailəsinə buraxıb gəlin edən erməni atası, anası, nənəsi, babası göstərin. Mən tək-tüklərdən yox, minlərdən, 10 minlərdən danışıram.

## Ədalət sorağında

... Serblər Srebrenitsada 10 minədək bosniyalı kişini və oğlan uşağını qətlə yetirib. Müsəlman olduqlarına görə. 1997-ci ildə öz gözlərimlə görmüşəm Bosniyanın tükürpədən xaraba kəndlərini.

... Ruandada 100 gün ərzində 800 minədək insan öldürüldü. Burda insanları məhvetmə sürəti faşist hərbi düşərgələrindəkini beş dəfə üstələyib.

... Bir gecənin içində Xocalı şəhəri Yer üzündən silindi. Ermənilər 613 nəfəri öldürdü, 487 nəfəri şikəst elədi, 1275 dinc sakini – qoca, uşaq, qadını əsir götürüb ağlasığmaz işgəncələr verdi. Azərbaycanlı olduqlarına görə. 150 nəfərin taleyi hələ də məlum deyil. Ölənlərin 106 nəfəri qadın, 63 nəfəri azyaşlı uşaqdı. 8 ailə tamamilə məhv edildi, 24 uşaq hər iki valideynini itirdi. Ölənlərin yalnız 335 nəfəri dəfn edildi. 200 nəfərin ayaqları soyuqdan qanqrena oldu.

Bu hadisələr tarixin hansısa uzaq əsrlərində deyil, 1990-cı illərin əvvəlində baş verib, BMT-nin 50, ATƏT-in 20 yaşı olanda. İki dünya müharibəsindən sonra sivilləşən, humanistləşən dünyanın gözü qarşısında.

Ruandada, Bosniyada baş verən hadisələrə siyasi qiymət verildi, bu qırğınları törədənlərə soyqırımı iddiasıyla məhkəmə quruldu, cəzalar verildi. Xocalı qətliamını törədənlərə isə yox! Əksinə, həmin vaxt separatçıların lideri olmuş Robert Köçəryan əvvəl Ermənistanda baş nazir oldu, sonra prezident seçildi. Xarici ölkələrdə qəbul edildi, BMT kürsüsündən demokratiya, insan hüquqlarından söz açdı. Avropa Şurası Parlament Assambleyasında, etdiklərindən qəhrəman kimi fəxrlə danışdı. Həmin dövrdə Qarabağdakı erməni ordusunun başında duran, Xocalı qətliamına başçılıq edən Serj Sərkisyan da əvvəl baş nazir idi. İndi Ermənistanın prezidentidi. Görün o, "Qara bağ" adlı məşhur kitabın müəllifi, britaniyalı jurnalist Tomas de Vaalla söhbətində Xocalıda dinc sakinlərə qarşı genosid cinayətinin törədilməsini necə "səmimi və qəddarcasına" (ifadə T.De Vaalındı) etiraf edir: **"Biz belə şeylər haqda yüksəkdən danışmırıq... Bu məsələ çox şişirdildi... Amma onu da deyim ki, Xocalıya qədər azərbaycanlılar elə bilirdilər ki, bizimlə zarafat etmək olar, onlar elə düşünürdülər ki, ermənilər mülki əhaliyə əl qaldırmazlar. Biz bu təsəvvürü alt-üst etdik"[1].**

---

[1] Thomas de Waal. "Black garden", p. 172. New York University, 2003 (Tomas de Vaal. "Qara bağ")

Kütləvi qorxu yaratmaq üçün törədilən cinayət bir qrup quldurun əməli yox, uzaq məqsədlərə hesablanmış siyasi qərardı. Vahimə yaratmaq, qorxutmaq, qovmaq, etnik təmizləmə aparmaq, boşaldılan ərazilərdən sahiblərinin izini silmək və "qədim erməni torpağı"nı "bərpa" etmək...

Çoxlu, lap çoxlu erməni torpağı yaratmaq və onu üç dənizə qədər genişləndirmək. 1919-cu ildə Paris Sülh Konfransında ermənilərin iddia etdikləri torpaq Xəzər, Qara və Aralıq dənizlərini əhatə edirdi[2]. Bu gün də bu iddiadadırlar. **3 milyonluq əhalisi olan Ermənistan 300 milyondan artıq insanın yaşadığı əraziyə iddia edir. 3 milyonluq monqol xalqının indi 3 milyarddan çox insanın yaşadığı, vaxtilə Çingizxanın yaratdığı imperiya ərazilərinə iddia etməsi daha məntiqli görünməzmi?**

## Genosid – müasir siyasi oyun qaydası

2010-cu il martın 4-də ABŞ Konqresi Nümayəndələr Palatasının xarici əlaqələr komitəsi 1915-ci ildə Osmanlı imperiyasında ermənilərə qarşı aparılan siyasəti rəsmi olaraq erməni soyqırımı kimi tanımaqla bağlı qətnamə qəbul elədi. Türkiyənin bütün çabalarına rəğmən ABŞ Konqresində bu addım atıldı, ola bilsin, növbəti mərhələdə bu proses dayandırılsın,

---

[2] Xəritəyə bax: http://www.jdemirdjian.com/Armenians/Armenians/Armenians_1.htm

amma prinsip etibarilə bu, heç nəyi dəyişmir. Siyasətin, Zbiqnev Bjezinskinin "şahmat" oyunu çoxdan başlayıb.

Vaşinqtona son səfərimdə dostum İrena Lasota mənə Günter Levinin "Osmanlı Türkiyəsində erməni qırğını: mübahisəli soyqırım" (Guenter Lewy. The Armenian Massacres in Ottoman Turkey: A Disputed Genocide) kitabını bağışlamışdı. Həmin kitabda müəllif yazır ki, ermənilərin Şərqi Anadoludan deportasiyası genosid siyasəti yox, müharibə dövründə düşmənlə separat işbirliyinin, üsyanların, türklərə edilən qətliamların qarşısını almaq məqsədi güdüb. Qətllər genosid xarakteri daşımayıb, çünki onları hökumətin təşkil etdiyi sübuta yetirilməyib: "Deportasiyanın həqiqətdə Türkiyə ermənilərini qabaqcadan düşünülmüş plana əsasən qırmaq məqsədi daşıdığı bir çox aspektlərə və köçürmənin xüsusiyyətlərinə uyğun gəlmir".

Məsələ orasındadır ki, Rusiyayla sərhəd bölgələrdə, şərqi və mərkəzi Anadoluda yaşayan ermənilər köçürülüb. İstanbul, İzmir və Hələb kimi şəhərlərdən ermənilər deportasiya edilməyib. Ölkənin dəmiryolu olmayan şərq rayonlarından piyada köçürmə zamanı yolda ölənlər heç bir vəchlə soyqırımı prinsiplərinə uyğun deyil. "Osmanlı hökuməti nizamlı proses təşkil etmək istədi, ancaq onu həyata keçirmək üçün vasitəsi yox idi".

Başqa bölmədə o, Çarlz Dovset və Malkolm E.Yapp (Charles Dowsett, Malcolm E.Yapp) kimi tarixçilərin mənbələrinə, ABŞ-ın Paris Sülh Konfran-

sında Yaxın Şərq üzrə rəsmisi Corc Montqomerinin (George Montgomery) cədvəllərinə, həmçinin İstanbuldakı Erməni Milli Şurasının rəqəmlərinə əsaslanaraq sübut edir ki, həmin dövrdə ölənlərin sayı iddia edildiyi kimi, milyon yarım yox, 642 min olub. "Həmin dövrdə heç bir ölüm statistikası mövcud deyildi".

Bu kitabda ən vacib məqamlardan biri də Henri Morgentaunun məktublarıdı. 1912-ci ildə Vudro Vilsonun prezident seçkiləri kampaniyasına rəhbərlik etmiş Henri Morgentau 1913-cü ilin noyabrından 1916-cı ilin fevralınadək İstanbulda ABŞ-ın səfiri olmuş, eyni zamanda, Türkiyə ilə müharibə aparan Antantanın marağını təmsil etmişdi.

Morgentau ABŞ dövlətinin müharibə siyasətində qələbə çalmasına yardım etmək üçün öz təklifini prezident Vilsona 1917-ci il noyabrın 26-da yazdığı məktubla bildirir. Burada Morgentau müxalifət və müharibəylə bağlı ümidsizliyini ifadə edir və bu vəziyyətdə dəyişiklik yarada biləcək bir kitab dərc edə biləcəyini yazır:

**“Elə bir kitab yazmaq istəyirəm ki, təkcə Almaniyanın Türkiyə və Balkanlara nüfuz etməsini deyil, eyni zamanda dünyanın istənilən ölkəsində meydana gələn bu tipli sistemi faş edə bilim. Türkiyəyə gəldikdə, burada biz Almaniyanın ən zəhərli halda ziyanlı təsirini görürük – bu isə yaşından asılı olmayaraq hər bir kəsin qətlə yetirilməsində, köməksiz erməni və suriyalıların dəhşətli şəkildə öldürülməsində kulminasiya nöqtəsinə çatdı. Bu əhvalatın belə bir ayrıca detalı və Alma-**

**niyanın bu işi təşviq etməsinə gəlincə, düşünürəm ki, kiçik şəhərlərdə və rayonlarda yaşayan amerikalılara müraciət, onları nəticəsi qələbə olacaq müharibə aparmaq siyasətinə inandırmağın ən uğurlu vasitəsi olardı”[3].**

Burada erməni qırğınlarının miqyası və mahiyyəti qəsdən təhrif olunur. Türkiyənin, əslində onun müttəfiqi Almaniyanın düşmən obrazı ABŞ hökumətinin okeanın o tayında müharibə siyasətinə bəraət qazandırmış olur.

Təklif qəbul edildi və sonralar ermənilərin erməni soyqırımına görə istinad edəcəkləri əsas sənəd 1918-ci ildə “Səfir Morgentaunun xatirələri” (“Ambassador Morgenthau’s Story”) adlı kitab şəklində nəşr olundu. Onun bu təklifi sonralar başqa ölkələrə münasibətdə də təzyiq siyasəti kimi istifadə olunan yeni təhdid üsuluna, “soyqırımı” terminli siyasi oyun alətinə çevrildi.

## Erməni elmi

“Armenianew.com” saytı yazır ki, Ermənistanın Milli Elmlər Akademiyasının Molekulyar Biologiya İnstitutu ermənilərin genetik tərkibini öyrənmək üçün elmi tədqiqatlar aparır. İndiyədək 2500 erməni bu tədqiqata cəlb olunub. DNT testi pulsuzdu. Höku-

---

[3] Guenter Lewy. “The Armenian Massacres in Ottoman Turkey: A Disputed Genocide”, p. 140. The University of Utan Press, 2005

mət bu elmi tədqiqat üçün adambaşına 30 min dram (81 dollar) ayırır. İdeyanın müəllifi və institutun professoru Levon Yepiskoposyan güman edir ki, belə təcrübələr sayəsində ermənilərin tez-tez təhrif edilən genetik təkamülünü və soy tarixini bərpa etmək mümkün olacaq. **"Bizim üçün çox vacib olan belə bir qənaətə gəlmişik ki, ermənilər Sünik əyalətində və Dağlıq Qarabağda şüurlu insan görünməyə başlayandan, yəni 40-50 min il əvvəldən yaşayır. Belə tədqiqatlar qonşu Azərbaycanda və Gürcüstanda aparılmır, çünki bu millətlər kifayət qədər homogenous, yəni yekcins deyil"**[4].

Ermənistan dövləti bu tədqiqata milyonlarla pul ayırır ki, Xocalı "Holokost"unu, Ağdam "Xirosima"sını törətdiyi ərazilərdə 40-50 min il əvvəl ermənilərin yaşadığını sübut etsin. Mənim genetik yaddaşımsa deyir ki, 40-50 min il əvvəl bu ərazilərdəki məxluqlar hələ təzə-təzə bellərini düzəldib dik gəzməyi öyrənirdilər.

## Bizi erməni qızdırmasıyla xəstələndirməyin!

... Xocalının qisası Ermənistanda başqa bir "Xocalı qırğını" törətməklə alına bilməz. Bu qırğının başkarları ədalət məhkəməsinə veriləndə (Nürnberq məhkəməsi kimi) və bu faciəyə görə erməni ziyalıla-

---

[4] Burda oxu: http://www.armenianow.com/news/21032/armenian_genetic_history

rı, sonra da bütün erməni xalqı səmimi şəkildə təəssüf və xəcalət çəkəndə (Holokosta görə xəcalət çəkən almanlar kimi) məsələyə son qoyulacaq.

... Ədalətin bərpa olunması düşmənə nifrətdən yox, Qarabağa sevgidən keçir. Nifrət, kin bir hiss olaraq ilk növbədə onun bəsləndiyi obyekti yox, öz mənbəyini – insanın özünü məhv edir. İnsanı içindən yeyir, adamı insanlıqdan çıxarır. Nifrət insan mənəviyyatını korlayır, onu obyektivlikdən uzaq, rasional düşüncədən məhrum edir.

... Dünyada körpə qəlbində nifrət əkmək, bu nifrəti illərlə becərmək, ondan qatil yetişdirməkdən ağır günah tanımıram. Belə bir cinayətə bəraət verən qanun və belə bir günahı bağışlayan din də tanımıram.

... Tibbdə adına "dövri erməni xəstəliyi" deyilən bir xəstəlik var. Ərəb, yəhudi, bəzən türklər kimi Yaxın Şərq xalqlarına şamil edilsə də, adı ermənilərlə bağlıdı. Adətən qarın boşluğunda ağrılar yüksək hərarətlə müşayiət olunur. Amma mən "erməni nifrəti" adlı başqa bir xəstəlik də tanıyıram. Bunu yalnız onlarla qonşuluqda yaşayanlar bilir. Epidemiya səviyyəsinə çatmış bu xəstəliyin yayılma təhlükəsi var, mən belə bir virusun bizə də keçməsini istəmirəm. "Nifrət xəstəliyini", bu virusu canımıza salmayın!

Məni eşitsəydilər martın 4-də ABŞ-da qətnaməyə səs verən konqresmenlərə deyərdim: "Henri Morgentau siyasətindən başlayan yalana inanmayın! Ədalət siyasətin yanında olmur. Ədalət vicdanın içindədi. Biz 1915-ci ilin erməni qırğınına da, 1992-ci ilin Xocalı qırğınına da ədalət istəyirik. Nə qədər ki, NİFRƏT

bizim də canımızda xəstəliyə çevrilməyib, gen daşıyıcımız olmayıb, qurun bu ədalət məhkəməsini! Bəşəriyyətin gələcəyi naminə qurun! Baxmayın türk olmağımıza, dinimiz islamdır deyə uzaq durmayın! Bizi xəstələnməyə qoymayın!”

***

Oğlumun yanına qayıtdım. Nə fikirləşdiyini bilmədim, heç soruşmadım da. Hədiyyəsini götürüb kitab rəfinə, göz qabağına qoydum. Talisman kimi bizi NİFRƏT xəstəliyindən qorusun deyə...

Qoruyacaqmı?

*25 fevral 2010*

*Məqalə ingilis, türk və rus dillərinə tərcümə olunaraq yerli və xarici mətbuatda dərc edilib.*

# Kerolayn Koks, Yelena Bonner
## və genosid debatları

Xocalı qırğınının 18-ci ildönümü və ABŞ Konqresi Nümayəndələr Palatasının xarici əlaqələr komitəsində qəbul olunan məlum qətnamə ilə bağlı bir ay öncə yazdığım "Şahmat taxtasında beysbol"dan sonra soyqırımı mövzusuna belə tezliklə qayıdacağımı düşünmürdüm.

Yazmaq istədiyimi yazmışdım. Yazmışdım ki, 1915-ci il Osmanlı Türkiyəsində, 1918-ci ilin mart və sonrakı aylarında Azərbaycanda, 1992-ci ildə Xocalıda baş verən hadisələrlə bağlı beynəlxalq aləmdə ədalətsizliklə üzləşmişik. Onu da yazmışdım ki, "...Ədalətin bərpa olunması düşmənə nifrətdən yox, Qarabağa sevgidən keçir. Nifrət, kin bir hiss olaraq ilk növbədə onun bəsləndiyi obyekti yox, öz mənbəyini – insanın özünü məhv edir. İnsanı içindən yeyir, adamı insanlıqdan çıxarır. Nifrət insan mənəviyyatını korlayır, onu obyektivlikdən uzaq, rasional düşüncədən məhrum edir".

İnsan orqanizmi hepatit, poliomielit (yoluxucu uşaq iflici), quduzluq, QİÇS və bu sayaq neçə-neçə yoluxucu virusa həssasdı. Mən bu sıraya nifrəti də əlavə edərdim, sağalması mümkün olmayan xəstəlik kimi. Metastaz verən xərçəng kimi...

***

Mətbuatda yazılıb ki, Böyük Britaniya parlamentinin Lordlar Palatasında uydurma erməni soyqırımı ilə

bağlı dinləmələr başlayıb. Baronessa Kerolayn Koksun təklif etdiyi "Ermənistanda 1915-1917-ci il hadisələri mövzusunda" debat palatanın gündəliyinə daxil edilib. Xanım Koks həmişəki kimi, məzlum erməni xalqının hüquqları mövzusunda "gözüyumulu", ağına-bozuna baxmadan danışıb. Burada qeyri-adi nəsə yoxdu, onun belə çıxışlarına öyrəşmişik. Orada dediklərini oxudum, bu sözləri isə diqqətimin süzgəcində ilişib qaldı: "Qarabağda ermənilər etnik təmizlənməyə məruz qalıb". Tanış cümlə idi. Eyni sözləri 12 il əvvəl də eşitmişdim. Hadisə belə olmuşdu.

... 1998-ci ildə Polşa Seymində keçirilən İnsan Hüquqları üzrə III Beynəlxalq Konfransa qatılmaq üçün Varşavaya gəlmişdik. Konfransın sıradan bir tədbir olmayacağı elə iştirakçıların siyahısı ilə tanışlıqdan məlum oldu. Siyahıda BMT, ATƏT və bu kimi həşəmətli beynəlxalq təşkilat təmsilçiləriylə yanaşı, dünya çaplı keçmiş dissidentlər, məşhur hüquq müdafiəçiləri, bir çox ölkənin parlament və hökumət üzvləri, neçə-neçə bu sayaq adamlar vardı. Azərbaycanı isə bir neçə QHT və siyasi partiya nümayəndəsi təmsil edirdi.

Tədbirin ilk günündən Çeçenistan prezidenti Aslan Məshədov, onun o vaxt çox populyar olan mətbuat katibi Mövladi Uduqov və onların yanından aralanmayan Yelena Bonner hamının diqqətini özlərinə cəlb eləmişdilər. Sessiyalar bir-birini əvəz edir, konfrans gündəlik üzrə gedirdi. Fasilələrdə neçə-neçə ölkədən gələn tanışla görüşür, adını eşidib üzünü yeni gördüyümüz adamlarla (məsələn, vaxtilə Çili

kommunistlərinin lideri Luis Korvalanla dəyişdirilən məşhur sovet dissidenti, indi Kembric Universitetinin professoru Vladimir Bukovski kimi) tanış olurduq. Fasilələrin birində Krım tatarlarının liderlərindən olan İlmi Ömərov yaxınlaşıb mənə bir vərəq uzatdı. "Dağlıq Qarabağ parlamentinin üzvü Babayanın konfrans iştirakçılarına müraciəti". Sən demə, bu erməni konfrans iştirakçılarına ünvanladığı müraciəti çoxaldıb yayırmış. "Dağlıq Qarabağ xalqının" çoxəsrlik zülmündən bəhs edən müraciət bu yeni "respublikaya" dəstək xahişiylə bitirdi.

Fasilədən sonra milli azlıqların hüquqlarına həsr olunan sessiyadan bir xeyli keçmiş qoltuğumda Babayanın bir dəstə müraciəti ("dəyərli" sənəd olduğundan hamısını götürmüşdüm) özümü İlminin yanına çaxdım. Mövzu ətrafında dünyaca məşhur akademik Andrey Saxarovun dul qalmış zövcəsi Yelena Bonner çıxış edirdi. Mərhəmət və ədalət hislərindən hördüyü söz çələngi az qala onu Tereza Anaya bənzədirdi. O, xalqların öz müqəddəratını təmin etmək hüququndan danışır və nümunə kimi Çeçenistanın adını çəkirdi. Alovlu, eyni zamanda yanğılı sözləri rəhmətlik Aslan Məshədovun – dünyanın diqqət mərkəzində olan bir xalqın liderinin ürəyindən tikan çıxarsa da, bir nöqtəyə zillənmiş gözlərində nigarançılıq dolu qayğı apaydın hiss olunurdu. Uduqov isə barmaqlarından çənəsinə haça düzəldib həmişəki şit ədasına yeni çalarlar qatırdı ("baş kəsib, qan tökməyən", amma "baş kəsib qan tökən"lərin əvəzinə qürrələnənləri elə öz davamız vaxtı da az görməmişik).

Bonner söhbəti yavaş-yavaş Dağlıq Qarabağ ermənilərinin üstünə gətirdi. Aha! “Ayının yüz oyunu...” məsəli. Bayaqdan qafqazlı anaya bənzətdiyim bu adam bir andaca məkrli düşmənə çevrildi. O dedi: “Qarabağda ermənilər etnik təmizlənməyə məruz qalıb”. Elə bu söz bəs elədi ki, əlimi mikrofona atım. Polşa Seymində hər kəs qarşısındakı mikrofondan sərbəst istifadə edə bilir. Danışmaq üçün düyməni basmağın başqalarının sözünü kəsməyə bəs edir. Belə də etdim: “Siz yenə yalan danışırsınız!” Bu cür tədbirlərin nüfuzlu qonağına, jurnalistlərin və konfrans iştirakçılarının sevimli ağbirçəyinə belə söz demək etikadan uzaq görünə bilərdi. Amma artıq söz deyilmişdi, zal qurcalanır, hamı dönüb bu sözlərin müəllifini axtarır, Bonnerin yanında oturan Uduqov da qaşlarını hara qədər mümkündürsə, ora qədər qaldırıb təəccüblə məni süzürdü. Sessiyanın aparıcısı, Azərbaycanda yaxşı tanınan və sevilən İrena Lasota, onun üçün nə qədər çətin olsa da, sözlərimi davam etdirməyə imkan yaratdı.

Xanım Bonnerlə aramızdakı qısa debatı olduğu kimi yazıram.

– Siz kimsiniz? Azərbaycanlısınızmı?

– Bəli, Qarabağdanam. Məni bağışlayın, bizlərdə böyüyün sözünü kəsməzlər, amma buna sizin sözləriniz məni məcbur edir.

– Onda icazə verin, fikrimi tamamlayım. Siz axı bilmirsiniz mən nə deyirəm.

– “Qarabağda ermənilər etnik təmizlənməyə məruz qalıb” sözünü siz dediniz indicə.

– Siz məni tanımırsınız, bilmirsiniz ki, nə deyəcəm...

– Ola bilər, çoxları sizi xanım Bonner kimi tanıyır, mənsə sizi Yelena Alixanyan bilirəm. İndi həm Ermənistanda, həm də Qarabağda bir nəfər azərbaycanlı qalmayıb. Etnik təmizlənməni biz yox, ermənilər aparıb. Siz axı bunları bilirsiniz, niyə faktları təhrif edirsiniz?

Sonra üzümü zala tutub vaxtilə Ramiz Rövşənin ziyalılar barədə söylədiyi məşhur fikrin ünvanını dəyişib dedim: “Ana bətnində balasını hiss etdiyi kimi, hüquq müdafiəçisi də içində vicdanını elə hiss eləməlidi. Çox təəssüf ki, bəzi insan hüquq müdafiəçilərimiz vicdanlarını abort eləyiblər”.

Bu sözlərə etiraz edən də oldu, əl çalan da. Xoşagəlməz vəziyyət yarandığını görən İrena Lasota fasilə elan edib dedi: “Fasilədən sonra debat davam edəcək”. Debatın davamı olmadı, fasilədə Bonner İrena xanımı da yanlayıb yanıma gəldi. Qarabağ probleminin hər iki xalq üçün tələ olmasından uzun-uzadı danışdı, sonda isə söhbətin davamına ehtiyac görmədiyini dedi.

Növbəti gün polyak dostlarımız xəbər gətirdilər ki, konfransa Yelena Bonner, britaniyalı baronessa Kerolayn Koks və moskvalı hüquq müdafiəçisi Qriqoryanın (adını unutmuşam) imzasıyla bir müraciət daxil olub. Konfrans adından BMT baş katibi Kofi Annana ünvanlanan müraciətdə deyilir ki, millətlərin öz müqəddəratını təyin etmək hüququ ilə sərhədlərin dəyişməzliyi prinsipi beynəlxalq hüquqda ziddiyyət təşkil edir və bu məsələ BMT səviyyəsində həllini

tapmalıdı. Nümunə kimi də Çeçenistanla Dağlıq Qarabağ göstərilir. Belə bir müraciətin qəbul olunması yolverilməz idi. Odur ki, işə keçdik.

Konfransın rəsmi təşkilatçısı senator Zbiqnev Romaşevskiyə yaxınlaşıb məsələyə aydınlıq gətirdik. O, deyilənləri təsdiqləyib bildirdi ki, belə bir müraciət var və rəsmi qaydada daxil olduğundan oxunmalıdı, əgər əleyhinə çıxış edənlər olarsa, qəbul edilməyəcək, çünki belə müraciətlər yekdilliklə qəbul edilir. Polşa, Gürcüstan, Ukrayna, Rumıniya, Belarusdan və başqa ölkələrdən gəlmiş dostları xəbərdar etdik.

Müraciətin mətnini ermənilərin hamisi Kerolayn Koks oxudu. O, çıxışını bitirən kimi zalda söz almaq üçün onlarla əl havaya qalxdı, etiraz səsləri ucaldı. Sessiyanın aparıcısı senator Romaşevski vəd etdiyi kimi, ilk sözü bizə verdi. Dostların biri təmkinli, o biri emosional çıxış edərək, Koksun dediklərinin altını üstünə çevirdi. Bizim arqumentlər elə tutarlı oldu ki, Koks durub zalı tərk elədi, Bonner axşam şam yeməyinə gəlmədi. Sonra Uduqov da etiraf elədi ki, müraciətə Qarabağın adını salmaq səhv idi.

Bax belə. Bütün bunlar 12 il sonra ona görə yadıma düşdü ki, baronessa Koks Yelena Bonner-Alixanyanın o vaxt dediklərini utanmadan yenə dilə gətirdi, çünki əmin idi ki, zalda sözünü kəsən olmayacaq. Bu məsələlərdə ədalət o qədər bizim tərəfimizdədi ki, istənilən debatda orta səviyyədə məlumatlı azərbaycanlının belə səsini çıxarması dünyaca nüfuzu, dəryaca ağlı olanı da yerində oturtmağa yetər. Yetər ki, vaxtında “hadisə” başında olasan.

***

Eşitmişəm ki, ermənilər uşaqlarını körpəlikdən türkə nifrət hissiylə böyüdür. Yuxarıda adını çəkdiyim məqalədə yazmışdım: "... Dünyada körpə qəlbində nifrət əkmək, bu nifrəti illərlə becərmək, ondan qatil yetişdirməkdən ağır günah tanımıram. Belə bir cinayətə bəraət verən qanun və belə bir günahı bağışlayan din də tanımıram.

... Tibbdə adına "dövri erməni xəstəliyi" deyilən bir xəstəlik var. Ərəb, yəhudi, bəzən türklər kimi Yaxın Şərq xalqlarına şamil edilsə də, adı ermənilərlə bağlıdı. Adətən qarın boşluğunda ağrılar yüksək hərarətlə müşayiət olunur. Amma mən "erməni nifrəti" adlı başqa bir xəstəlik də tanıyıram. Bunu yalnız onlarla qonşuluqda yaşayanlar bilir. Epidemiya səviyyəsinə çatmış bu xəstəliyin yayılma təhlükəsi var, mən belə bir virusun bizə də keçməsini istəmirəm".

Həmin yazıda arzulamışdım ki, biz də ermənilər təki yaddaşlı olaq, amma onlar kimi nifrət xəstəliyinə yoluxmayaq, erməniləşməyək. İlin ilk üç ayının hərəsinə bir hüzn günümüz var. Üç ay ağlayırıq. Ermənilərsə il boyu ağlayır. Qorxum bu xəstəliyə yoluxmaqdan yanadır.

Diqqətli oxucu gördü ki, mənim nifrətim "nifrət"ədi, qəzəbə yox.

İçimizdə "nifrət virusu" yuva qurmadan qəzəbimiz soyumasın.

Qəzəbin görə bilmədiyi işi nifrət heç vaxt görə bilməz!

*1 aprel 2010*

# Unudulmaz Gülsarı

Nə vaxtsa oxumuşdum ki, azadlıqda keçən bircə günün xatirəsi yüz il həbsxanada darıxmamağa yetər. Həyat, özü də azad həyat haqqında bu dəqiq fikri kim deyib, yada sala bilmirəm. Onu da bilmirəm ki, Qırğızıstanda baş verən son qanlı olaylardan doğan bu yazıya yuxarıdakı fikrin nə dəxli var? Yazının əvvəlində xeyli fikirləşib cavab tapmayanda istədim yerində deyil deyə adını unutduğum fikir adamının bu sözlərini atım getsin. Amma yazının sonunda bir də baxaram deyib, dəymədim. Niyə Qırğızıstanla bağlı yazıya bu sözlə başlamağım, bəlkə, mənə sonda aydın oldu...

Bu ölkə haqqında çoxlaylı xatirələrimin birinci qatındakı duyğunun adı pərtlikdi. Niyə pərtlik, indi deyim! Əsgərliyin "uçebka" deyilən dövründə say-sız-hesabsız orta asiyalı əsgərin arasında iki qırğız hamıdan seçilirdi və mənimki onlarla tutduğundan çox vaxt bir yerdə olurduq. Onlar da əsgərliyə insti-tuta ara verib gəlmişdilər. "Manas"dan, Çingiz Ayt-matovdan xəbərdar olmağım, İssık-Kulu tanımağım, "Ağ gəmi" filmindən danışmağım onların yanında hörmətimi xeyli qaldırmışdı...

Aytmatovun "Əlvida, Gülsarı" əsərini dünya ədə-biyyatının şedevrlərindən biri kimi təriflədiyim günün axşamı yerimə girəndə oxumadığım əsər haqqında ağızdolusu danışmağın yaxşı iş olmadığının fərqində idim. Özümə (ayıb işimə) onunla təskinlik vermişdim

ki, evə qayıdanda ilk oxuduğum elə bu əsər olacaq. Elə də oldu. Əsgərlikdən qayıtdığım yay "Əlvida, Gülsarı"nı oxudum. Oxudum və pərt oldum. Qabağıma qoyub uşaq kimi danladığım, Aytmatov kimi dahinin yerlisi olub, onun dünyalara dəyən "Əlvida, Gülsarı" kimi sevgi dastanını oxumayan qırğızların yanında xəcalət çəkirdim, min kilometr aralı olsam da. Sən demə, Aytmatovun bu povestinin qəhrəmanı Gülsarı qız yox, at imiş. Onlar da mənim kimi qayıdıb bu əsəri oxuyacaqdılar və görəcəkdilər ki, Gülsarı qız yox, at adıdı. Bu at məsələsi məni pərt eləsə də, hər halda içimdə qırğızlara qarşı isti duyğu yaratdı.

***

Qırğızıstana ilk səfərim 1995-ci ilin yayında oldu. Dünya Türk Gənclərinin növbəti qurultayı İssık-Kulda keçirilirdi. Tədbirə "Antenn" radiosunun prezidenti Rüstəm Əliyevlə getmişdik. Bu yerləri, dağları, gölü qədim türklərin müqəddəs yurdu kimi bizə təqdim edən millətçilər istədiklərinə nail olmuşdular, qan yaddaşımızı oyadıb buraları bizə sevdirə bilmişdilər. Fəxr duyduğun tarix ilk sevgi kimi adamı həyəcanlandırır. İndi də elə bilirəm ki, Ergenekon İssık-Kulun o üzündə, Tanrı (Tyan-Şan) dağlarının saysız-hesabsız zirvələrinin birinin arxasındadı. Hər gün İssık-Kula elə girirdim ki, sanki xristianlar xaç suyuna girir – müqəddəs suya girməklə saflaşır, durulaşıram. O duyğuları sözlə izah etmək olmur, gərək yaşayasan.

Bir gün yenə yüyürüb adı isti olsa da, buz kimi soyuq suya baş vurdum. Nə qədər müqəddəs olur-olsun, suyla zarafat eləməzlər. Ayağımın altından yer qaçdı, batdım. Təkan verib qalxmaq ümidiylə ayağımın torpağa dəyməsini gözləyənəcən – gölün dibinə etdiyim "səfər" boyu keçirdiyim anlar yadıma düşəndə indi də ətim ürpəşir. Məni xilas edən çuvaşın babasına indi də rəhmət oxuyuram.

***

Sonralar bu ölkəyə çox səfər elədim. Bir dəfə İssık-Kul sahilində, vaxtilə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin, başqa sözlə Moskvanın tabeliyində olmuş "Avrora" sanatoriyasında konfrans keçirilirdi. Müxtəlif ölkələrdən gələn qonaqlar bir vaxt SSRİ lideri Leonid Brejnevin istirahət elədiyi hoteldə yaşayır, dünyanın dörd bir tərəfindən gətirilən ağac və güllərdən salınmış bağda gəzir, gölün sahilində özlərini günə verirdi. Daha on il əvvəl boğulmağım da qorxulu gəlmirdi.

Konfransın sessiyalarından birində Qırğızıstan Elmlər Akademiyasından qoca bir bioloq alim mövzunu qoyub İssık-Kul gölündən danışmağa başladı. Konfransın mövzusuna dəxli olmasa da, maraqlı çıxış edirdi deyə sözünü kəsmirdilər. O deyirdi ki, 1950-ci illərdə Ermənistanın Sevan gölündən təcrübə üçün balıq gətirmişdilər. Hər iki göl dağda yerləşdiyindən onların bitki və heyvanat aləminin oxşar və fərqli cəhətlərini öyrənirmişlər. Təcrübə onunla nəticələnib ki,

gəlmə balıqlar hansısa yerli balıq növünün nəslini kəsib. O, bunu çox ciddi fəlakət hesab edir və kənardan balıq gətirilməsini səhv qərar adlandırırdı. Gölün təbii faunası gəlmə balıqlar hesabına dəyişibmiş.

Bu çıxışı dinləyə-dinləyə mənimlə üzbəüz oturan Helsinki Vətəndaş Assambleyası Ermənistan Milli Komitəsinin rəhbəri Nataliya Martirosyana baxırdım. Gələni saxlamazlar, akademikin sözünü kəsib belə bir replika atdım: "Yaxşı ki, Ermənistandan balıq gətirmisiniz, erməni gətirsəydiniz, indi burda qırğız qalmazdı". Akademikin başa düşüb-düşmədiyini bilmədim, amma xanım Martirosyan bərk incidi. Dilxor oldu, etiraz elədi, mənə də, təşkilatçılara da, sessiya vaxtı da, fasilədə də. Dostlar onu belə sakitləşdirdilər ki, Vahid zarafatcıl oğlandı, bunu pis niyyətlə deməz. Mən isə dediyim sözün gətirdiyi rahatlıqdan xoşhallanırdım.

***

Hər dəfə Fərqanə vadisiylə Özbəkistandan Qırğızıstana keçəndə bir dünyadan başqasına düşdüyünü dərhal hiss edirsən. Qırğız sərhədçiləri və polislərinin davranışı, adamların sərbəstliyi Özbəkistanla müqayisədə xeyli azad ölkəyə gəldiyindən xəbər verirdi. "Asiyanın İsveçrəsi" adlandırılan bu ölkə özünün gözəl təbiətiylə adamı nə qədər heyran edirdisə, adamlarının yaşadığı səfalət də bir o qədər heyrətləndirirdi.

Dağların zirvəsindən keçən xəyal üfüqlərində gördüyün məkan insanın yox, Tanrının yaratdığı bir di-

yardı, cənnət elə bura deyirlər. Cənnətin azadlığı, azadlığın cənnəti... Qırğız dostlar neçə ildir inqilabdan sonra bu azadlığın boğulmasından danışırdılar. Taxtdan salınıb indi doğma yurdu Cəlalabada sığınan prezident Bakiyev ümidləri doğrultmadı, öz siyasətiylə "Orta Asiyanın azadlıq adası" kəlməsini də yazılardan pozdu. Yaddaşıma azadlıqlar oylağı kimi hopan ölkə qara qan rəngindədi. Azadlığı qırmızı rəngdə görənlər yanılırlar, lap iki yüz ilin inqilabçıları da.

... İndi yadıma düşdü ki, yazının əvvəlində dediyim o sözlər Alber Kamyuya məxsusdu. Onun "Yad" əsərində yazdıqları daha dəqiq belə səslənir: "Bu dünyada bircə gün yaşamış adam da heç bir əziyyət çəkmədən yüz il türmədə keçinə bilər. Onun darıxmamaq üçün nə qədər desən xatirəsi olacaq".

*9 aprel 2010*

# Yelena

Ötən bazar yuxudan piano səsinə ayıldım. Qızımın imtahan sonrası başladığı yeni əsəri elə ilk notlarındanca tanımışdım. Əvvəl-əvvəl bu çalğını haçan eşitdiyimi xatırlaya bilməsəm də, məhrəm bir musiqi olmasına şübhə yox idi. Uzun illərdən sonra çox əziz adamla qəfil rastlaşmışam kimi sevincək olmuşdum.

Çalğını kəsməsin deyə, o biri otağa girmədən, elə qapının azca aralı yerindəncə qulaq kəsilmişdim. O səhər qızım çox doğma bir xatirəmə işıq saldı...

***

1995-ci ilin qarlı-şaxtalı dekabr gecəsi Ukraynanın tanınmış hüquq müdafiəçisi Nataliya Belitser məni aeroportdaca qarşılayıb yolboyu səfər proqramıyla tanış eləyəndə heç ağlına da gətirməzdi ki, Kiyevi xatirələrimin ən şirin, yaddaşımın ən diri qatında saxlayacaq hadisə onun sadaladığı tədbirlər siyahısındakılar yox, gündəlikdə qeyd eləmədiyi görüş olacaq.

Kiyevin mərkəzindəki qədim binalardan birində kirayələnmiş evə çatanda yuxusuzluqdan kirpiklərim söyüd budağı kimi sallanırdı. Dərhal yataram deyə birbaşa yatağa girsəm də, yan otaqdan gələn iki qadın səsi söz-söz süzülüb qulaqlarıma axdıqca yuxunun qaranlıq aləmi işıqlanır, əvvəl beynimin qırışlarını açır, sonra da gözümün qapaqlarını qaldırırdı.

Otağın həyat nişanəsi qapının döşəməyə toxunmayan küncündən içəri süzülən qonşu otağın işığı,

bir də elə həmin otaqdan gələn nəvazişli qadın səsi idi. Xəfif işıq, titrək səs günəşə könül verən gecənin səhər pıçıltısına bənzəyirdi.

Yerimi dəyişdiyim ilk gecəni həmişə pis yatıram, yenə yuxum qaçmışdı. Qapının o üzündəki maraq dolu həyat da bir tərəfdən gecə yuxusunun bağrına xəncər kimi sancılmışdı.

***

… Yuxumun söhbətlərinə görə qaçmadığına inandıra bilmədim onları. Qadınlardan biri "gecdir" deyib getdi. Qonşusunu ötürüb qayıdan ev yiyəsi "Raz nam ne spitsya, toqda prodoljim" dedi və cavab gözləmədən nənəmin cehiz kamodunu xatırladan yüz ilin şkafından balaca qədəh, boşqab, qaşıq çıxardı. Stolun üstündəki şokolad qutusunun ağzını açdı. Qəhvə dəmləmək, şabalıd qovurmaq üçün mətbəxə keçdi.

Nikolay dövrü intelligentlərinin evini xatırladan böyük otaq mənzilin tən ortasını tuturdu. Burdan üç qapı açılırdı: biri mən yatana, ikincisi dəhlizə və onun sonundakı mətbəxə, üçüncüsü də böyük ehtimalla ev sahibəsinin yataq otağına.

Sonuncu iki qapı arasında təmtərağı çoxdan getmiş qara rəngli royal dururdu. Küncdəki iri kəfgirli saat qürurunu saxlamağa çalışan mühacir çar generalları kimi dik dursa da, köhnəlmişdi, solan, qopan yeri çox idi. Otağın o biri küncündəki kreslonun arxasında abajurunun bir lenti qopmuş uzun gecə lampası otağın alaqaranlığına xüsusi fon verirdi.

Diqqəti ən çox çəkən isə dörd divar boyu saymaqla bitməyən, cürbəcür çərçivələrdəki köhnə fotolardı. Otağın ortasında qoz ağacından hazırlanmış zindan tək ağır stolun elə yerində oturmuşdum ki, səmtim saat dirənən divara sarıydı, elə bu divardakı şəkilləri görürdüm. Tək bir divarda əlliyədək şəkil saya bildim, sonra sayı qarışdırdım – qovrulmuş şabalıdın qoxusu özündən əvvəl gəldi, arxasınca qəhvə ətri, sonra da konyakın tünd iyi qovuşdu bir-birinə.

Sahibəmin süfrəsi ürəyi kimi açılmışdı, nəyi vardısa düzmüşdü. Bu, heç də yeni tanışı qarşısında əldən-ayaqdan gedən dul qadının özünü təqdimi deyildi, "nə üçün yaşadım" sualı haqda düşünmək belə istəməyən, həyatdan heç bir umacağı qalmayan, əksinə, həyatın fövqünə çıxmış, ancaq gənclik ehtiras və təkəbbürünü, köhnə zamanların aristokrat ədalarını hələ də saxlamış 70 yaşlı qadının qonaqpərvərliyi idi.

Yelena İbraqimova. Arıq bədən, dik qamət, uzun boğaz, ucu azacıq sivri burun, yandan ayrılıb çiyinlərə tökülən saç - hamısı sanki bir-birinə simmetrik oxla nizamlanmışdı. Onun sakit, ehmallı tərpənişi, yaşına uyğun olmayan kəpənək uçuşu yüngül yerişi, dodağı hələ öpüş görməyən qızlar kimi yarı utancaq, yarı da şıltaq təbəssümü otağın beyin qırışlarını açan qəhvə qoxusu, göz qaraldan zəif lampa işığı ilə harmoniyada idi. Səsi səhər ibadətindən qayıdan rahibə səsinə oxşayırdı – mərhəmət yanğılı tembrdə xəfif xırıltı da vardı.

Balaca nəlbəkiyə çiyələk mürəbbəsi çəkib qarşıma qoyanda əlinin qırışı altda qabaran damarların göy-qırmızı rəngi dolmuş bulud kimi tünd idi. Uzun

barmaqlarının sümük tək möhkəmliyi onlara toxunmadan da duyulurdu. Bunu duymağa təmas lazım deyil ki, elə heyran bir baxış da yetərdi. Barmağındakı iri firuzə qaşlı gümüş üzük isə incə yar belinə dolanmış kəməri xatırladırdı.

"Nənəmdən qalmadı". Pərtliyə bənzər bir duyğu içimdən elə sürətlə gəlib keçdi ki, düz-əməlli kəsdirə bilmədim. Barmaqlarına baxdığımı görübmüş. Görməyinə görmüşdü, necə baxdığımı da duymuşdumu?

Durub fincanlara yenə qəhvə süzmək üçün mətbəxə keçəndə anladım ki, məni heyran edən tək bu insan, onun bu əlləri, bu barmaqlar deyil, həm də cürbəcür çərçivədən boylanan kişi, qadın, uşaq, qoca, at belində, çəmənlikdə, fotostudiyada, ayaqüstü, oturulu, uzanılı, ciddi, şən, tək, birgə, ağ-qara, sarımtıl şəkillər arasındakı bir cüt gözdü. Ürkək baxışlı mələksima bir qız...

Bəlkə də, əlli il əvvəl çəkilmiş bu şəkil Hollivudun ilk dövrlərindəki qadın aktrisalarının retro fotolarına bənzəyirdi. İnqrid Berqmanın "Kasablanka" filmindəki canalan çöhrəsini xatırlayırsanmı? Bax, elə o idi. Bu, məsum bir qızın sevdiyi oğlandan sevgi etirafı eşitdiyi günün ilk yuxusuz gecə yaşantılarının çöhrəsində çiçəkləyən sevincinin əksi idi. İlahi, bu gözəlliyi yaratmaqda qəsdin nəymiş?

***

Həmin gecə söhbətimiz xeyli çəkdi. Saatın əqrəbləri zamanı sürüyüb səhər 4-ə çatdıranda məni söhbətə tutduğundan narahat oldu, səhər tez duracağımı yəqin eləyib yatmamı istədi. Mənimsə günorta-

yacan heç bir işim yox idi. Yuxuya da elə xəyal labirintində azaraq getdim.

... Yuxudan royal səsinə oyandım. Kimsə bir musiqinin eyni yerindən başlayır, çalır, çalır, çaşır, dayanır, təkrar həmin yerdən davam edirdi. Tez-tez kəsilsə də, pauzalar arası çalğı füsunkar bir əsərdən xəbər verirdi. Sonra səs tamam kəsildi. Amma hüzur çox sürmədi, bu dəfə sükutu royalın səsi bir başqa cür pozdu.

Ecazkar səsə bir sıçrayışla qalxdım. Qapını azca araladım. Çalan o idi. Görünür, uzun barmaqları royal dillərinin dilini yaxşı bilirdi, sevgili əli kimi tumarlayıb ram eləmişdi. Bu təmasdan doğan qığılcım insan qəlbinin ən qaranlıq guşəsini belə işıqlandırmaq gücündəydi, inan. Qəfil aydınlıq bir qəlbin başqa bir könülə uzanan tellərini diksindirir, utancaq hisdən bu saat qopacaqmış kimi əsdirirdi. Köhnə, nimdaş, illərin kədərini canına çəkibmiş kimi rəngi qaralmış, lakin bir andaca gənclik həvəsi ilə alovlanan, yeni tapdığı eşqə təkrar doğuş ümidi ilə can atan qocaya bənzəyən bu royal o səsi necə çıxarırdı, o ehtizaza necə gəlirdi? Royalı kimi özü də qürurlu görünən 70 yaşlı qadındanmı? Sanki o, royalı çalmırdı, onunla qol-boyun idi, sevişirdilər…

Ona yandan baxırdım. Bədəni at belindəymiş kimi işvəkar titrəyişdəydi. Saçları dağılmışdı, ta axşamkı tək tumarlı deyildi. Sifəti uzanmışdı, boynu sanki boğaz qırışlarını gizlətmək üçün çiyinlərinə batmışdı. Otağın divarlarında saysız-hesabsız çərçivələrdən boylanan fotolardakılar böyük bir konsert salonunun tamaşaçılarıydı elə bil. İlahi musiqiyə do-

nub qalmışdılar. "İnqrid Berqman" da donmuşdu, aralı qapı dalından gah ona, gah da konsert çıxarana baxan oğlan da heykəlləşmişdi. Donmayan tək o idi.

"Qadın bədəni skripka kimidi, onu səsləndirmək üçün gərək əla çalğıçı olasan!" Cerom Selincer, sənin bu sözlərin çox dəqiqdir, amma bu dəfə royal özü qadın bədənini dilləndirirdi!..

Musiqini bitirib üzünü yanındakı qızcığaza tutdu. Yazıq qız onun açdığı dəsgaha heyran qalmışdı. Qapını açıb sehrli otağa girdim. Çevrilib, "Bağışlayın, sizi oyatdıq, hər gün 12-də şagirdlərim gəlir" dedi. Saata baxdım, birə qalırdı…

***

... Növbəti gecə əvvəlkinin davamıydı elə bil. Onunla birlikdə olmaqdan, danışdırıb tamaşasına durmaqdan dərkolunmaz zövq alırdım. Ovqatıma otağın üçüncü sakini – divardakı "İnqrid Berqman" da xüsusi rəng qatırdı. Baxışlarımın divardakı şəkillərdən birinə tez-tez zilləndiyindən duyuq düşmüşdü. Deyəsən, elə hansı şəklə baxdığımı da hiss eləmişdi. Bəlkə də, ona görə məni şəkillərlə tanış edəndə "İnqrid Berqman"ımın üstünə gəlmədi: "Bu, atamdı, həkim idi. Bu, nənəmin cavanlığıdı – bu üzüyü mənə bağışlayan nənəmin. Bu, mənəm - üç yaşındayam. Burdakılar babamın külfətidi, görürsünüz nə çoxdular? Ta belə ailə şəkilləri çəkdirən yoxdu heç.

Bu isə Paracanovdu. Vurulmuşdu mənə. Tanıyırsınızmı onu? Yerlinizdi. Qafqaz təkcə qəddar bolşeviklər yetişdirməyib, dünyaya belə sənətkarlar da bəxş edib.

Qafqazlıları sevirəm. Sizdə azadlıq ruhu güclüdür. Çox şeyi itirsəniz də, ruhunuzu qoruya bilmisiniz. Paracanovla burda, bu otaqda uzun-uzun söhbətlər edərdik. 60-cı illərdə başı çox çəkdi onun. 139 intellektual Brejnevə siyasi məhkəmə proseslərinin dayandırılması tələbi ilə etiraz məktubu yollamışdı. Onun imzası birinciydi. Elə buna görə çox çək-çevir elədilər, tutdular da. Maraqlı adamıydı. Dahiydi. Onun filmlərinə baxmısınızmı?" "Aşıq Qərib"i görmüşəm" dedim.

Konyak qədəhini qaldırdıq, "Kiyev veçernıy" qutusundan adama bir şokolad götürdük, başı ilə işarə elədi, sağlıqsız-zadsız içdik.

Sergey Paracanovun şərəfinə içdiyinə şübhə yox idi. Mənisə anlamadığım hislər bürümüşdü. Nə edəcəyimi, nə deyəcəyimi bilmirdim. Özümü saxlamayıb "O, ermənidi" dedim, "Ermənilər bizim düşmənimizdi". Uzun, sicilləmə dastan açdım. Az qala bütöv bir tarix danışdım. Dağıdılan şəhərimdən, evimdən danışdım. Çəkdiyimiz zillətdən danışdım. Göz qırpmadan, nəfəs dərmədən qulaq asdı, hövsələylə dinləməyinin səbəbi söhbətin maraqdan çox, onun tərbiyəsindən gəldiyini susanda bildim. "Paracanov belə eləməzdi" – deyib yatmaq vaxtına işarə kimi ayağa qalxdı.

***

... Növbəti axşam evə əlidolu gəldim; xeyli şirniyyat, quru meyvə almışdım. Konyak da vardı, elə axşam içdiyimizdən – "Krım" konyakı. Yenə onun xəfif təbəssümü, isti baxışları, məhrəm qayğısı, nəvaziş dolu aurası... yenə "İnqrid Berqman"ın cazibəli çöhrəsi...

Həmin axşam Yesenindən şeirlər dedi, özü də melanxolik bir səslə. Royalda çaldı. Cuşa gəlmişdi. Ömrümdə heç vaxt canlı virtuoz ifaya bu qədər yaxın olmadım, nə həmin gecəyədək, nə də sonra. Bu, adi yaxınlıq yox, Vivaldinin, Bethovenin, Şopenin, tanımadıqlarımın musiqi dənizində qərq olmaq idi.

Onu dinləyir, divardakı şəkilləri bir-bir gözdən keçirirdim. Burda zaman çoxdan durub, onunla bitibdi – şəkillərin hamısı onadək çəkilənlər idi. İki dəfə ailə qurubmuş, amma övladı yox idi. Üç gecədə elədiyi söhbətlərində sanki bütün həyat yolunu öyrənmişdim: yəhudi "ov"undan qurtulmaq üçün soyadlarını Abramovdan İbraqimova dəyişən ailəsindən tutmuş dostlarını atmadığından dissidentlər sayaq ömür yaşamağa məcbur olmasınadək danışmışdı. Qalanını da musiqi ilə deyirdi, 70 illik bir ömrü not-not çalırdı.

Konyakın beyində yaratdığı tozanağı onun royalından qopan səs alıb harasa, uzağa – keçmişəmi, gələcəyəmi aparırdı. Gələcək – elə görmək istədiyimiz keçmiş deyilmi?!

***

... Razılaşmışdıq ki, bazar günü Kiyevi onun gözü ilə görməyə, yəni gəzməyə birlikdə gedəcəyik. Bu, sonuncu günümüydü deyə başqa heç kimlə görüşməyəcəkdim, gecə reysinədək birlikdə olacaqdıq. Həmin səhər onun hazırlaşmasını bir xeyli gözləyəsi oldum. Nəhayət, otağının qapısı açılanda... Qırxıncı illərin üslubunda tikilmiş tünd qəhvəyi rəngli uzun xəz paltosunun yaxalığındakı iri qaşlı sancaq zəif işıqda be-

lə bərq vururdu. Başındakı zərif yun şal sanki sifətinin bütün cazibəsini sərgiyə çıxarmaq üçün bağlanmışdı.

Küçənin lal sükutu yağan qarın eniş səsini dinləmək üçünmüş sanki. Belə qadın kimin qoluna girsəydi, qulağının dibindəcə çiyninə qonan qar dənələrinin səsini eşidərdi.

Qədim binanın yanından keçirik. Nəfəsliyə oxşayan balaca zirzəmi pəncərələrini göstərib "Burdan həmişə qışqırtı, tükürpədən işgəncə səsi gələrdi. Sovetlərin NKVD-si də, sonra faşistlərin "Gestapo"su da burda yerləşib. İndi də KQB-nin hansısa bölməsinindi" dedi. Piyada gəzdiyimiz küçələrdəki tarixi binalardan, haçansa olmuş hadisələrdən, xatirələrindən danışırdı.

Yolun sürüşkən yerlərində yıxılmağa qoymayacağıma əminliklə qolumdan daha bərk yapışırdı. Onun bu güvənliyi mənə ləzzət verirdi. Üz-üzə gəldiyimiz adamların bizə maraqla baxması isə ürəyimə sarı yağ kimi yayılırdı. Onun təsvirəgəlməz aurası, yasəmən qoxuyan ətri, lətafəti məni oynaşan qar dənəsinə çevirmişdi, onlara qoşulub uçurdum.

"Bura "Andreyev enişi"di. Bulqakovun ev muzeyi burdadı, 13 nömrəli evdə. Sizi ora aparmaq istəyirdim, amma görürəm, küçəni təmizləməyiblər, çox sürüşkəndi. Yıxılaram. Qayıdaq. Bir də yolunuz düşsə, gələrsiniz. "Master və Marqarita"nı oxumusunuzmu?" "Mənim "Qaçış"dan xoşum gəlir" – dedim. Başını qəribə tərzdə çevirib gözümün içinə baxdı.

Evə qayıdanda qaş qaralırdı. Bir azdan dostum arxamca gələcəkdi. Son dəfə oturub çay içdik. Yüz ilin tanışı kimi baxırdım ona. Bir də nə vaxt görüşəcəyik? Görüşəcəyikmi?

Çıxanda dayanıb divardakı şəklə bir də diqqətlə baxdım, “İnqrid Berqman”la “sağollaşırdım”. Görüb yaxınlaşdı. “Neçə gündür baxırsınız, amma soruşmadınız kimdi?” “Kimdi?” ”Mənəm, 18 yaşında. Konservatoriyaya girdiyim gün çəkdirmişəm”. Heyrətimi saxlaya bilmirdim. “Deyəsən, vurulmusunuz, hə? Elədir! Vurulmusunuz! Bilmirəm bu qafqazlılar nə tapıb məndə!” İncə, xoş təbəssüm ətrafa nur saçırdı. Qapının ağzında ayrıldıq.

– “Allah köməyin olsun!” – dedi. Pilləkənin sonunda çevrildim, eynən anam kimi baxırdı.

Son sözündə ilk dəfə mənə “siz” demədi. Ayrılıb gedəndə yolboyu elə bilirdim, nəyisə unudub orda qoymuşam, ciblərimi dönə-dönə yoxladım, açıb çamadanıma bir də baxdım, hər şey yerində idi.

Aeroportda vidalaşanda məni qəribə-qəribə süzən dostumdan öyrəndim ki, Yelena kirayə pulunu götürməyib.

Bir azdan təyyarənin illüminatorundan baxan bir cüt göz gecənin sonsuz qaranlığında ulduz kimi sayrışacaqdı.

***

Qızım çalğısını bitirəndə yaxınlaşıb not kitabına baxdım: Mendelson, “Venesiya qondolyerasının mahnısı”. Onun 15 il əvvəl çaldığı əsər. 12 yaşlı qızım mənim heyranlığımı gözəl ifasının qiyməti kimi qəbul edib sevinirdi.

... Elə mən də sevinirdim.

*21 yanvar 2011*

# Demokratiya yazıları

# Ağ Rusiyanın qara taleyi

Uzun illər eyni iqtisadi-siyasi məkanda yaşadığımızdan haqqında kifayət qədər məlumatlı olduğumu düşündüyüm Belarusa son səfər təəssüratım məni rahat buraxmır. Sən demə, kitablar, filmlər, eşitdiklərim və əvvəlki qısamüddətli səfərlərdə gördüklərim bu xalq haqqında əsl həqiqətləri sanki Belarusun bataqlıqları kimi ilim-ilim itirməyə xidmət edirmiş. Həqiqət görünənlərin astar üzündəymiş...

Tarixin siyasət qarşısında acizliyinə öz xalqımın taleyi timsalında şahidəm, amma tarixi həqiqətin siyasi ideologiyanın bunca məzlum kölgəsində gizlədildiyini təsəvvürümə də gətirə bilməzdim...

Bu ölkənin şəhər, qəsəbə və kəndlərində adi adamlar, siyasətçilər, QHT nümayəndələri, jurnalistlər, hüquq müdafiəçiləri, tarixçilər, kommunistlər, demokratlar, vətənpərvərlər, kimliyi (əqidəsi) məlum olmayan şəxslər, pravoslavlar, katoliklər və nəhayət, azsaylı müsəlmanlarla söhbətlərim, yaxın-uzaq tarixdən xəbər daşıyan abidələrlə tanışlığım Belarus barədə təsəvvürlərimi alt-üst elədi. Bir şeyi yəqin bildim: belarusların tarixən ruslarla hansısa etnik bağlılığı olsa da, onlar tamamilə fərqli, hətta bəzən bir-birini inkar edən xalqlardı.

## Rusiya – ana vətən?!

Yaşanan, fəqət, yazılmayan tarix başqa şey deyir: Rusiyanın belaruslar qədər mənəvi və fiziki genosidə məruz qoyduğu ikinci xalq yoxdu (“ruslaşıb” sıradan çıxan, assimilə olunan xalqları demirəm), nə qədər təəccüblü olsa da, Rusiyanı da belaruslar qədər ...sevən ikinci bir xalq tapmaq çətindi. Bu, qəribə olduğu qədər də təzadlı reallıqdı.

... Otuz beş–qırx yaşlarında millətçi qadın həmsöhbətim öz xalqının tarixindən yanğı ilə danışır və qəhərini boğmağa uğursuz cəhd edirdi: “Biz belaruslara üzüyola, qorxaq deyirlər. Bəs necə olmalıyıq ki?! Zaman-zaman kişilərimizi qırıblar. Analar “Başını çölə çıxarma!”, “Yanımdan uzağa getmə!” deyib övladlarını “ev uşağı” kimi qorxaq böyüdüblər. Artıq neçə əsrdir ki, hər otuz-əlli ildən bir kişiləri, ziyalıları, başını bir balaca dikəldənləri zəmi kimi biçirlər. Bu, milli mentalitetimizin formalaşmasında öz işini görüb... Qorxu iliyimizə işləyib”.

Tarixini Rusiya ilə bağlayan Belarus kommunistləri və ruslaşmış adamlardan fərqli olaraq, milli şüur hissini itirməyən kəsim özünü Böyük Litva Knyazlığının bir hissəsi sayır. Tarix, milli adət-ənənə, folklor, dil yaxınlığı, başqa amillər bu cür düşünməyə əsas verir. Tarixçi həmsöhbətim belə deyir: “Belarus etnomədəniyyət baxımdan heç vaxt Rusiya ilə bir olmayıb. O, daha çox litov-polyak mədəniyyətinə yaxındı. Böyük Litva Knyazlığında dövlət dili

Belarus dili olub... "Rus" adında xalq olmayıb. Fikir verin, Belarus, Polyak, Litov – bunlar isimdi, addı. Amma "russkiye" sifətdi, nəyinsə təyinidi. 19-cu əsrin ortalarına qədər əhalinin səksən faizi katolik idi. 1839-cu ildə rus çarının əmri ilə katolik dini qadağan olundu və adamları pravoslav dininə keçməyə məcbur elədilər (3 il əvvəl, 1836-cı ildə elə həmin çarın əmriylə alban kilsəsi erməni kilsəsinə birləşdirilmişdi. Sonrakı bəlalarımıza beləcə hazırlıq görülürdü). Milləti etiqadına görə iki yerə böldülər. Katoliklərə polyak, pravoslavlara belarus dedilər. İndi belarusların əksər hissəsi pravoslavlardı, katoliklər iyirmi-iyirmi beş faizdən artıq deyil... Adımız müstəqil olsa da, dövlət siyasəti yenə də ruslaşmaya yönəlidi, bizi zorla rusun ayağına yazmağa davam edirlər. Belarus mədəniyyəti və dili ikinci dərəcəli hesab olunur... Ruslar öz mədəniyyətlərini Belarus-Litov mədəniyyəti üzərində qurublar, onu mənimsəyib, sonra da danıblar".

***

Rus mədəniyyətinin formalaşmasında (özləri dansalar da) qədim türklərin əsas rollardan birini oynaması iddiasında olmamız heç də təzə xəbər deyil. Həmin tarixçi və digər həmsöhbətlərimlə qədim türklərin bu ölkədəki izləri barədə də fikir mübadiləsi aparırdıq. Təəssüf ki, bizim gördüyümüz bu izləri onlar görmür, yaxud eyinlərinə belə almırdılar. Adının qədim türk sözü olduğunu bir çox türkoloqların iddia etdiyi Polotsk şəhərində həmsöhbətlərimə Varşavanın kral bağında rastlaşdığım bir hadisəni danışdım.

Hadisə belə olmuşdu. Məni parkla, onun tarixi ilə tanış edən polyak tanışım osmanlıları Vyana darvazası ağzında durduran Litva kralı (bu knyazlıq Polşa və Belarus tarixinin şanlı dövrlərindəndi) Yan III Sobelskinin at belində heykəlini göstərib onun şücaətindən danışırdı. İki yüz ildən çox yaşı olan bu abidə ayaqları altında iki əsgərin imdad dilədiyi atı minmiş kralın tunc heykəli idi.

İmdad diləyənlərin kimliyinə şübhə etmirdim, amma yenə də soruşdum. Tanışım fəxrlə "Osmanlı əsgərləridi" dedi. Heykələ bir az da yaxınlaşdım, ikinci əsgərin hörüklü saçı vardı. "Osmanlılar hörük saxlamırdılar, bu, Atillanın əsgəridi, Osmanlı əsgəri isə bax, o birisidi" – deyərək çalmalı əsgəri göstərdim. Tanışım "ola bilər" deyib mövzunu dəyişmək istəyirdi. Ona dedim ki, iki yüz il əvvəl bu heykəl tökülən zaman Avropada türk ruhu hələ mövcud idi, heykəltəraş bu obrazları boş yerə yaratmayıb. Osmanlılar Avropaya gələnə qədər burada hərbi və bəzi rəsmi əmrlər qədim türk dilində verilirmiş. Bəlkə də, Osmanlıların buralara gəlməyi tarixi səhv olub. Onlar bununla özləri də bilmədən min il əvvəlki türk ruhunu təzələyiblər və nəticədə bu izlərin "yox edilməsinə" rəvac veriblər. Heykəltəraş kralın qələbəsi ilə qədim Hun türklərinin Avropadakı minillik nişanələrinə də son qoyulduğuna işarə edir... Tanışımsa mənə göldə üzən Qu quşlarını göstərib onların gözəlliyindən danışırdı. Sonralar bildim ki, bu, avropalıların bəyənmədiyi, unutmaq istədiyi mövzudu.

Danışdığım hadisə belarus həmsöhbətlərimin marağına səbəb olmuşdu. Avropalıların istəyib-istəmə-

mələrindən asılı olmayaraq, Avropa mədəniyyətinin formalaşmasında qədim türklərin oynadığı tarixi rolu təsdiqləyən elmi sübutlar meydandadı. Hələ beynəlxalq konfransların müzakirə obyektinə çevrilməsə də, bu barədə bəzi elmi dairələrdə danışılmağa başlanılıb.

Türklər Asiyanın müsəlmanlaşmasında həlledici rol oynadıqları kimi Avropanın da xristianlaşmasında mühüm işlər görüblər. Qədim türklərin bu dinlərə loyallığı sitayiş etdikləri Tanrıçılıq dininin ruh etibarı ilə İbrahim dinlərinə yaxın olması ilə izah olunur. Xristianlığın müqəddəs rəmzlərinin – xaç, ikona, məbəd, həmçinin yeni ildə bəzədilən yolka və neçə-neçə başqa tarixi atributlar Xalqların Böyük Köçü dövründə hunların Avropaya gətirdikləri yeniliklər idi. Belarusların tarixi kupala mərasimlərində, kupala mahnılarında qədim türk ruhunu sezməmək mümkün deyil.

***

Bu meşələr və bataqlıqlar ölkəsində ayrı-ayrı həmsöhbətlərimdən eşitdiklərim mənə yad gəlmirdi. Azərbaycanın son iki yüzillik tarixinə nəzər yetirmək bu məsum xalqın acı taleyini dərk etməyə bəsdi. Nə qədər tanış mənzərə...

Suvorov, Minin və Pojarski, Susanin kimi rus qəhrəmanları öz hikkələrini öncə belarusların başında çatladıblar. Belarus torpaqları rusların hərb meydanı olub. Onlar istər isveçlilərlə, istər başqaları ilə müharibələri bu torpaqlarda aparıblar. I Pyotrun atası Aleksey Mixayloviç 1654-1667-ci illər müharibəsin-

də bu xalqın yarısından çoxunu qırıb. Sovet tarix kitablarında isə onun haqqında belə yazılıb: “Rus çarı əmr etdi: belarusları öldürməyin, daxmalarını yandırmayın, çöllərini tapdamayın”.

Belarusların ruslar üzərində son qələbəsi 1514-cü ildə Orşa şəhərində olub. Belarus ordusu sentyabrın 8-də Moskva knyazlığını darmadağın edib. İndi belarus milli-demokratları bu tarixin qəhrəmanlıq günü kimi qeyd olunmasını istəyirlər. Ötən il “Gənc Cəbhəçilər” təşkilatının üzvləri həmin günü Belarusun Rusiyaya birləşməsini təklif edən Kreml rəhbərinin müqəvvasını Rusiya səfirliyinin həyətinə atmaqla qeyd ediblər. Müqəvvanın üstünə bu sözlər yazılıbmış: “Putin, Belarusdan əlini çək, yoxsa ikinci Orşa olacaq”. Bu hadisəyə görə aksiyanın təşkilatçısı Dima Daşkeviç 15 sutka alıb.

Bu xalqın uzun əsrlər boyu göstərdiyi müqavimət 1796-cı ildə, Belarus Rusiyanın tərkibinə qatılanda qırılıb. Bütöv bir xalqın taleyini yönləndirənlər ona yeni tarix də yazıblar, başqa sovet xalqlarının tarixini yazdıqları kimi...

## Sovet İttifaqı rus imperiyasının kulminasiya nöqtəsidi

Belarus xalqının faciəsi sovetlər dönəmində özünün son həddinə çatıb. Bu yerlər “qırmızı terror”un çiçək açdığı diyar olub. Əsl soyqırımı 1939-cu ildə Polşa faşistlərlə kommunistlər arasında bölünəndən,

Belarusun qərbi ilə şərqi "birləşdiriləndən" sonra başlayıb. NKVD "qərbli"lər arasında daha amansız repressiya aparıb. Yürüdülən siyasət xalqı parçalamağa xidmət edib – şərqli provaslavları qərbli katoliklərlə üz-üzə qoymağa çalışıblar. İkinci Dünya müharibəsində Belarus xalqı 1654-1667-ci illər savaşından sonra ən çox itkiyə məruz qalıb, bu xalqın dörddə biri məhv edilib.

Yaşlı nəsil belarusları daha çox partizan xalq kimi tanıyır. "Bataqlıqlar arasında, düşmən əhatəsində qanlı mübarizə aparan qəhrəman" sovet ədəbiyyatının, kinosunun ən çox müraciət elədiyi obrazlardan idi. Malodeçni rayonunun qoca sakinləri isə partizanlar haqda belə deyirdilər: "Partizan dəstələri yaradılanadək almanlar yerli əhali ilə normal davranırdı. Belə dəstələrin yaradılması əmri Moskvadan verilmişdi. Əhalinin almanlara rəğbəti yox idi, hər halda işğalçı idilər, amma ilk illər onlara dərin nifrət bəslənmirdi. Qırğınlara partizan dəstələri peyda olandan sonra başladılar. Elə fikirləşirdilər ki, yerli əhali partizanlara yardım edir... Azuqəmizi almanlar da əlimizdən alırdı, partizanlar da. Onlar çox vaxt ərzağın pulunu, heç nəyə yaramasa da, verirdilər, "bizimkilər"sə dədələrinin malı kimi – müftə aparırdılar. Kəndləri almanlar da yandırırdı, partizanlar da".

Üzü qırışlı, ağzı dişsiz olduğundan çənəsi burnuna yapışan başqa bir qocadan isə bunları eşitdim: "Əvvəl-əvvəl almanların bizimlə işi yox idi, özlərini aparmalarından elə bilirdik ki, bura uzun müddətə gəliblər, odur ki, yerli əhali ilə münasibəti pozmaq

istəmirdilər. Bir alman əsgəri məzuniyyətdən qayıdanda xiyar toxumu gətirib əkmişdi. Tağ əməlli-başlı bar gətirmişdi. Gizlətmirəm, ilk dəfə qarnımız almanlar gələndə doyub. Onlar kolxozları dağıdıb əhali arasında böldülər... Bizə qarşı vəhşiliyi əvvəl NKVD, sonra da SS nümayəndələri etdilər. Yerli polislər, başqa xalqlardan seçilmiş "cəza" dəstələri daha amansız idi. Camaatımızsa vuruşmaq istəmirdi. Elə qardaşlar vardı ki, biri partizan, o biri almanlar tərəfdəydi. Axşam bir evdə yatır, səhər o başdan durub hərə öz dəstəsinə gedirdi. Adamlar yalnız sağ qalmaq haqda düşünürdülər".

***

Bu ölkənin müxtəlif yerlərində görüşdüyüm insanlarla elədiyim söhbətlər başqa bir təsəvvürümün də yanlış olduğunu üzə çıxardı. Sovet dövründə belarusların və ukraynalıların xüsusi statusa malik olmaları xeyli şişirdilib. Müəyyən sahələrdə, məsələn, yüksək dövlət və hərbi vəzifələrdə onlara üstünlük verilsə də, milli məsələlərdə belarus xalqı ilə daha amansız rəftar edilib. Belarus vətənpərvərləri bu ögey münasibəti unutmaq istəmirlər...

Kommunistlərdən söhbət düşəndə sürücümüz də üz-gözünü turşudurdu. O, uzaqda, yamyaşıl meşənin üstündə burulan dumana bənzər dümağ tüstünü göstərib deyirdi: "Yanan torfdur. Sovetlər sonrasını düşünmədən bataqlıqları qurutdular. Nəticədə ekoloji fəlakət yaranıb. Bir balaca quraqlıq olan kimi torf yanmağa başlayır".

Daha ağrılı hadisəni başqa bir həmsöbətim danışır: “Çernobıl hadisəsi vaxtı radiasiyalı buludlar Belarus üzərindən Moskvaya doğru uçurdu. Bilirsiniz, neylədilər? Toplarla vurub buludların səmtini Belarusa yönəltdilər. Uzun müddət başımıza şüalı yağış yağdı. Bu da Moskvanın bizə sevgisi”.

## Lukaşenko erası

Belarusda imzalanan Belovejsk müqaviləsi SSRİ-ni yaradan respublikalara müstəqillik bəxş eləsə də, tarixi sammitə ev sahibliyi edən millət əsl azadlıq sevincini çox az yaşadı. İndi belaruslar Stanislav Şuşkeviçin rəhbərlik illərini demokratiya dövrü kimi xoş təəssüratla xatırlayır. 1994-cü ildən, ölkənin tarixində keçirilən ilk və son azad seçki sovxoz direktoru, sonralar isə “Bilik“ cəmiyyətinin təlimatçısı işləmiş Aleksandr Lukaşenkonun qələbəsi ilə nəticələnəndən Belarus geriyə – “ittifaqa” sürüklənməyə başladı.

“Nomenklatura və təqaüdçülərin hakimiyyəti” (ifadə bir belarus jurnalistinə məxsusdu) bərpa edildi. Prezidentlik fəaliyyətinə Belarusun milli atributlarını – bayraq, herb və himnini dəyişməklə başlayan Lukaşenko həm də rus dilinə dövlət statusu verdi. Çox tezliklə onun Rusiyaya maksimum inteqrasiya siyasəti yürüdəcəyi məlum oldu. Rusiya ilə razılaşdırılmış xarici və daxili siyasət aparıldı. Nəticədə Belarus Rusiyanın satellitinə çevrildi. Yerli mütəxəssislər

bunun bir çox ağır fəsadlarını qeyd edirlər. Bircə bu fakta diqqət yetirmək kifayətdi: hazırda iki milyon əhalisi olan Minsk şəhərində cəmi dörd belarusdilli məktəb var. Belarusca danışanları əvvəllər əyalət adamı sayırdılar, indi isə müxalifətçi hesab edirlər...

Rusiya telekanalları ölkənin elektron KİV sistemində hegemon üstünlüyə malikdi. Belarusdilli qəzetləri barmaqla saymaq olar. Artıq Milli Bank rus rubluna keçidin təqvimini hazırlayıb. Lukaşenko isə özünü birləşmiş Rusiya-Belarus dövlətinin başçısı vəzifəsinə ən real namizəd hesab edir. Hətta Rusiyanın vilayətlərində yaratdığı sənaye-ticarət nümayəndəliklərinə özünün potensial dayaq məntəqələri kimi baxır.

Əhalinin artım sürəti sıfıra bərabərdi və ya ondan da aşağıdı. Aparılan sorğular göstərir ki, şagirdlərin 86 faizi orta məktəbi bitirən kimi ölkədən getmək istəyir, qadınların böyük əksəriyyəti isə xarici vətəndaşa ərə getməyi arzulayır.

Ölkədə avtoritarizm tam gücü ilə hökm sürür. Məmurlar mükafat, yaxud cəza prinsipi ilə idarə olunur. Son prezident seçkisindən sonra 172 məmur dövlət büdcəsi hesabına "Mersedes" markalı avtomobillə mükafatlandırılıb. Amma eyni zamanda məmurlara qarşı ildə 20 mindən çox cinayət işi açılır. Bütün bunlar məmur aparatını qorxu altında saxlamaq üçün edilir. Yerli mütəxəssislər prezidentin kadr siyasətini bolşeviklərinkinə bənzədirlər. Ölkənin baş prokuroru heç bir hüquq təhsili olmayan hərbçi, tank qoşunları mayorudu. Mərkəzi Banka isə inşaatçı, trest müdiri işləmiş şəxs rəhbərlik edir.

Ölkədə qeydiyyatdan keçmiş 18, qeydiyyatsız isə 3 partiya fəaliyyət göstərir. Onların heç biri ayrılıqda real güc mərkəzi deyil. Hətta birləşmiş müxalifət belə öz partiyası olmayan prezidentlə müqayisədə gücsüzdü. Müxalifətin özü də yekcins deyil. Bəziləri Lukaşenkonu ölkənin Rusiyaya az inteqrasiya olunmasında, digərləri isə milli maraqları Rusiyanın ayaqları altına atmaqda ittiham edir.

Bir sözlə, bu gün hələ də Rusiyanın təsir dairəsindən çıxa bilməyən (azsaylı vətənpərvərlər olmasaydı, çıxmaq istəməyən yazardım) Belarus insan hüquqlarının kütləvi şəkildə pozulduğu avtoritar dövlətlər siyahısındadı. Özünütəcrid siyasəti Belarusa Avropa üçün arzuolunmaz ölkə, Lukaşenkoya isə qəbuledilməz prezident statusu bəxş edib.

... Xalqlar bir-birinə oxşayır, öz tarixləri, öz taleləri ilə.

... Xalqlar bir-birinə həm də oxşamırlar. Yazıq olduqları qədər güclü, güclü olduqları qədər də yazıq olmaları ilə...

*Fevral, 2003*

# Susmaq hüququ

Sözün qüdrətini atomun gücü ilə eyniləşdirənlərin sözünü qəribçiliyə salmaq lazım deyil. Səmavi dinlər, müqəddəs kitablar da sözü Allah qədər uca tuturlar. Elə adam da azad sözü dilə gətirməyilə dəyər qazanır, hörmətə minir. Bəlkə də, elə buna görədi ki, bütün avtoritar hakimiyyətlərin azad adamlara münasibəti divin hər an sına biləcək, canının saxlandığı şüşəyə münasibəti kimidi. Bu hakimiyyətlər azad sözün kökünü mikrob kimi kəsməyi cəmiyyətin “dirilik suyu” hesab edir. Totalitar rejim söz azadlığının düşmənidi, burada istədiyini yazmaq, danışmaq, çap etdirmək mümkün deyil. Yalnız sənə icazə verilən haqda yaza və danışa bilərsən. Tarixin bütün dönəmlərində, bütün diktaturalarda, bütün üzdəniraq “izm”lərdə belə olub.

Yalnız bir istisna var: kommunizm. Kommunizm insanları tək istədiklərini demək və yazmaqdan məhrum etmir(di). Bütün dağıdıcı “izm”lər susmayanı, qələmini qırmayanı həbsə, sürgünə, çox vaxt da daha uzağa – o dünyaya göndər(ib)ir. Kommunizmin digər diktaturalardan daha uzağa gedən bir fərqi var: o nəinki insana onu razı salmayan fikir və yazıları qadağan edir, hətta həmin insana onu qane edənlər haqqında danışmaq və yazmağı “məsləhət” görürdü. 20-ci əsr rus ədəbiyyatının patriarxı Mixail Şoloxov “Sakit Don”u öz əllərilə yenidən nəşr üçün “sosialist realizmi” üslubunda redaktə etmədimi? Sənətkarın

əsəri onun balasıdır, deyirlər. Şoloxova öz əliylə "balasını öldürtdülər". Və Kremlin Qurultaylar Sarayında onu bu işə vadar edənlərin şəninə tərif söylətdirdilər. Amma "Sakit Don"a Nobel mükafatını "sosialist realizmi" variantına görə verməmişdilər.

1933-cü ildə Nobel mükafatı almış başqa bir rus yazıçısı İvan Bunin SSRİ-yə dönmək istəməməyinin səbəbini belə izah edirdi: "Onlar məni demək istəmədiyimi deməyə, inanmaq istəmədiyimə inanmağa məcbur etmək istəyəcəklər".

Kommunizmdə susmaq olmaz. Burada yalnız ölülər susur. Sağ qalanlarsa susub sonradan başqa səslə danışanlardı. Mən heç onu demirəm ki, dünyanın bir saylı antikommunisti Aleksandr Soljenitsinin "Aeroflotun rahat kreslosunda ölkədən qovulması"-nın sirri çoxları üçün elə sirr olaraq qalır. Necə yəni, insanların, hətta xəyallarına əl gəzdirməyi özünə rəva bilən kommunistlər onların cinayətlərini elə Moskvadakı isti mənzilində yazdığı kitabında açıb göstərən birisini öz əllərilə xaricə yola saldılar? Onların cinayətlərini dünyaya car çəkmək üçünmü? İstənilən əlyazmanı Amerikanın atom bombasından da təhlükəli sayan kommunist-çekistlərin xəbəri olmadan Soljenitsinin əlyazma və şəxsi arxivini dövlət poçtu ilə arxasınca kim göndərə bilərdi?.. Bəs sevimli "Moskviç" maşınını hansı "dissident" sərhəddən keçirib?..

"Susmaq qızıldır" deyənlər nə vaxtsa insanı susmağa belə qoymayacaqlarını ağıllarına da gətirməzdilər. Bunu yalnız kommunistlər bacardı. Onların bir

silahı var – QORXU. Cəmiyyətdə qorxu insan orqanizmindəki xərçəng kimidir. Metastaz vermiş xərçəng üçün tətbiq edilən kimyəvi maddə orqanizmin bütün xəstə hüceyrələrini bir yerə topladığı kimi, Qorxu da insanın adını bildiyimiz bütün naqis xassələrini üzə çıxarıb cəmiyyətdə hakim hissə çevirir. Və cəmiyyət dünəni XOF, bu günü SƏKSƏKƏ, sabahı QORXU içində "yaşayır..."

"Biz artıq istədiyimizi yazmaq və demək hüququna can atmırıq, təki susmaq hüququmuzu almasınlar". Sovet dövrünün bu acı zarafatı sözün həqiqi mənasında həyat reallığı idi. Bəs indi necədi?.. Kommunist illərindən çoxmu fərqlidir bu gün: bir şey eşidirik, başqa şey görürük və ən dəhşətlisi, buna təəccüblənmirik. Nəsə dəyişibmi?

Uzun illər xalq iqtidar və müxalifət dediyimiz siyasi partnomenklaturanın əlində girinc qalanda ümid yalnız cəmiyyətin "hər iki ciyəriylə nəfəs alacağı" zamanı gözləməyə idi. Artıq xalq onların birini itirib, "tək ciyərlə nəfəs alır". Deyirlər, ümidi ölmüş insan özü də bilmədən vəhşiyə, yırtıcıya dönür. Ümidi kəsilmiş cəmiyyət isə amoralist (cəmiyyətdə qəbul olunmuş əxlaq normalarına sayğısızlıq) insan yığnağına – kütləyə çevrilir.

İndi həqiqəti deyə bilmək uğrunda mübarizə arxaikləşib, çünki həqiqətin özü nisgil qarışıq təəssüf doğuran, süzülüb nimdaşlaşmış bayraq kimidi. Təki mənim susmaq hüququmu əlimdən almasınlar, təki məni istəmədiyimi demək çıxılmazlığına salmasınlar. Yox, susa bilməyəcəksən, qoymazlar. Şüarlar döv-

rünə qayıtdığımız bir vaxtda susa bilməzsən: ölkəmiz büdcədən tutmuş, yeyilən və yeyilməyən hər şeyin qiymət atına minib dünya standartlarına çatdığı, xalqımızın bəxtəvər Avropa ailəsinə (oxu, kommunizmə) qovuşmanın astanasında olduğu bir dövrdə sən necə susa bilərsən? Susmaq olmaz – göz sataşan hər yerdə zəfər, qələbə, analoqu olmayan inkişaf varsa, demək danışmaq vaxtıdı.

Susmaq hüququ insanın istəmədiyini deməyə məcbur ediləndə əl atdığı sonuncu saman çöpüdü. Tarif Şurasının son qiymət artımını tərifləyən zavallı insanlar – "zəhmətkeşlər" (bu sözü Zamin Hacı illərin dibindən çıxarıb, "tozunu alıb") doğrudanmı sevinirlər, bəs, prezidentlik müddətinin uzadılması doğrudanmı prezidentə ürəkdən gələn sonsuz sevginin təzahürüdü?.. Susan və ya susdurulan (bunların arasında fərq böyük deyil), sonra başqa səslə danışan nə qədər ictimai-siyasi snoblar (hakim elitanı təqlid edib digərlərini bəyənməyənlər kimi başa düşülməsi məsləhətdi) yetişib və yetişir.

Cəmiyyətin daxili hərarəti qalxmadan da daim səfərbər olan zavallı "zəhmətkeşlər"in, "qolçomaq ziyalılar"ın susmaq hüququ çoxdan yoxdu. Vəziyyət bir az ciddiləşsə, "orta ziyalı təbəqə", daha da ağırlaşsa, "yüksək ziyalı təbəqə" və ya "elita" danışacaq.

Sabah Qarabağ məsələsini kompromis yolla həlli "məsləhət" bilinsə, "Azərbaycanın xoşbəxt gələcəyi Qarabağı verməkdən keçir" təşviqatına start verilsə, bu "elita" kamera qarşısında növbəyə düzülmək cə-

zasına məhkum edilməyəcəkmi? Onda daha ölkədə “lal” adam qalmayacaq.

Dunayevskinin Stalin dövründə yazdığı məşhur mahnıdakı kimi: “Ya druqoy takoy stranı ne znayu, qde tak volno dışet çelovek...”

*19 fevral 2007*

# Bizim saziş

ABŞ-ın Azərbaycandakı səfiri Rino Harnişin iqtidarla müxalifət arasında saziş bağlamaq təklifi ölkədə mövcud ictimai, siyasi və mənəvi-psixoloji durumun gerçək qiymətini verməyə, bizim hansı ovqata kökləndiyimizi bir daha saf-çürük eləməyə əvəzsiz imkan yaradıb. Yanılmıramsa, ABŞ-la rəsmi münasibətlərdə olduğumuz son 13 ildə bu təklif mahiyyət və forma baxımdan yeni diplomatik səydi, hər halda nə vaxtsa bu cür təşəbbüs olduğu yadıma gəlmir. Təklif qış yuxusundan ayılmaqda olan torpağımızda nikbinliklə canlanmanın qarışığından alınan əsl bahar ümidləri doğurur.

Ümid öz yerində, bir az real mətləblərdən danışaq. Elə saziş sözünün özündən. Saziş deyəndə çox şey yada düşür: ticarət, siyasət, hərb və sair. Bütün hallarda bu söz öz bətnində sülh, əminamanlıq, birgəlik, əməkdaşlıq kimi anlayışları gəzdirir. Odur ki, cənab Harnişin ideyasına sülh və sabitliyə təşnə kimi görünən iqtidarla müxalifətin dərhal əməli reaksiya verəcəyini təklif səslənən vaxtdan hər gün gözləməkdəyik. Siyasi barrikadanın hər iki tərəfindəki ovqatı bilmək, kiminsə irəli durub "sülh"ə addım atıb-atmayacağını təxmin etmək üçün tərəflərin son illər qəzet və televiziyalarda səsləndirdiyi DİALOQ çağırışlarını xatırlamaq kifayətdi. Bu çağırışlarsa məşhur "İsaq-Musaq" axtarışını xatırladır:

– İsaq, tapdın?

– Musaq, yox!
– Mən dialoqa hazıram!
– Mən də hazıram!
– Tapdın?
– Yox!

İlk baxışda elə görünürdü ki, onların axtardığını Harniş tapıb. Və indi deyəcəklər ki, cənab səfir, buyurun zəhmət olmasa, sazişi hazırlayın, biz də imzalayaq. Amma bunu demək lap ağ olardı, özümüz etməliyik. "Cənab səfir, sazişi mən hazırladım və qollamağa hazıram, buyurun, hansı bəndlərini deyirsiniz müzakirə edək, təki o biri tərəf də qollasın".

... Ölkə iki cəbhəyə bölünüb, sanki, leksikon da müharibədəki kimidi. Burada ən çox işlədilən söz "düşmən", "satqın", "xain"di. Bəlkə, belə deyil? İqtidar nümayəndəsi müxalifətə bir kəlmə xoş söz desin, əl uzadıb görüşsün, yaxud əksinə, bunu müxalifət təmsilçisi eləsin, yarlığı dərhal üstündədi – SATQIN. Satılmaq düşmən cəbhəsinə keçməkdi. Onu yaxşı halda sıradan qovur və ya həbs edirlər, pis halda isə güllələyirlər.

Bilmirəm ölkə müxalifəti erməni müxalifətiylə daha isti və səmimi görüşər, yoxsa öz iqtidarı ilə, yaxud əksinə, ölkə iqtidarı erməni iqtidarı ilə mehriban söhbətləşər, dil tapar, yoxsa öz müxalifəti ilə? Söhbət bu sualın qəlizliyindən getmir. Məsələ, ümumiyyətlə, bu sualın haradan və necə yaranmasındadı. Nə xanlıqlar dövründə, nə bolşeviklərin müstəqilliyimizə son qoyduğu vaxtda, nə onların 70 illik hakimiyyəti illərində, nə 20 yanvarda, nə də məğlubiyyət dolu

Qarabağ müharibəsində qarşılıqlı nifrətin topluma bu qədər hakim olması yada düşmür. "Nifrət"in hərbi qarşılığı silahdı. Onu düşmənə yönəldərlər. Biz onu özümüzə çeviririk, niyə? Bu, necə olur? Yəqin düzgün cavabı gələcək arxivlərdə toz udan tarixçilər verəcək. Bu gün isə Allah bizi öz silahımızdan açıla biləcək atəşdən qorusun! Onun yarası indiyədək aldığımız bütün yaralardan dərin olar. Və belə döyüşdə qalib olmur...

ABŞ səfiri saziş təklif edir. Əcnəbi diplomat bizim bir-birimizlə dünyanın qəbul elədiyi sivil dildə danışmağımızı istəyir. Biz necə, bunu istəyirikmi? İstəyirsinizmi, cənablar və bəylər? Yoxsa Şeyx Nəsrullahın kəşfindən qorxan kimi, "ölülərin dirilib haqq-hesab soracağından" – günahlarımızdan, məsuliyyətimizdən qorxaq... Bu saziş 200 yaşa çatan "Kürəkçay" müqaviləsi deyil ki, utanaq, alçaldıcıdı deyə. Heç Bişkek protokolu da deyil, başımızı aşağı salaq. Yəni bir urvatlı seçki Qarabağ müharibəsindən də qorxuncdur? Adam sualların içində girinc qalanda bütün müqayisələr yerinə düşür.

Təklifi əcnəbi versə də saziş bizim sazişdi – yeni milli dəyərlərin, elə millətin özünün formalaşmasına təkan verəcək sonrakı sazişlərin əsasını qoya biləcək saziş.

*12 aprel 2005*

*Yazının  ruscası yerli mətbuatda dərc olunub.*

# Rusiya səfirinə məktub

Rusiya Federasiyasının Azərbaycandakı səfiri
cənab Vasili İstratova

Cənab səfir!

Bu kiçik məktubu kimə ünvanlamaq barədə çox düşündüm: Rusiyadakı dostlaramı, hər cür hörmətə layiq ictimai xadimlərəmi, yoxsa dövlət rəsmilərinəmi? Darmacalda son əlçatan Sizi bildim.

Mənim polisim bu məktubu Sizin səfirliyin qarşısında oxumağa və şəxsən Sizə təqdim etməyə imkan verməz, yəqin. Odur ki, bunu mətbuat vasitəsilə çatdırıram. Mən nə dövlət adamıyam, nə də diplomat – fikirlərimi heç nəyə bükmədən çılpaq deyəcəm.

Sizin təmsil etdiyiniz dövlət avqustun 8-də Gürcüstana qoşun yeridib, yenidən Qafqazı işğal etmək fikrinə düşüb. Gürcüstanın "vilayət statuslu" torpaqlarının zəbt olunması bir azərbaycanlı kimi məni narahat edir, çünki mənim də Qarabağ adlı belə "yaralı" torpağım var. Bir qafqazlı kimi isə qüruruma toxunur.

Artıq üçüncü dəfədir ki, Kremldən Qafqaza qoşun yeritmək əmri verilir. Kreml deyəndə mən Rusiya imperiyası, bolşevik Rusiyası və Rusiya Federasiyasını nəzərdə tuturam. Hər üçünün qonşulara münasibəti mahiyyətcə oxşardı.

Rusiya Qafqazı uzun illərin müharibəsindən sonra zəbt edə bildi. Cavad xan, Şeyx Şamil və onlar kimi yüzlərlə insan bu işğalla barışmadı. Sovetlərin də işğalı asan olmadı. Minlərlə insan əldə silah dağlara çəkildi və 40-cı illərədək vuruşdu. Qafqazlılar hər fürsətdə azadlıq mücadiləsinə başlayıblar. Bunu Siz məndən də yaxşı bilirsiz.

Sizə indi də asan deyil. Blmirəm niyə bizim azadlığımızı həzm edə bilmirsiz? Biz azadlığı sevirik, çünki onun nə demək olduğunu bilirik. Bəlkə də, bu bizim "təhkimçi" və "proletar" ola bilməməyimizdəndi. Məgər aydın deyilmi ki, Siz bu 200 ildə Qafqazı məğlub edə bilməmisiz?! Torpağı zəbt, minlərlə insanı məhv etmək olar, amma ruhu yox. Siz Qafqazın ruhuna qalib gələ bilmədiniz. Amma Qafqazı sevgi və hörmətlə ram etmək olardı. Siz lap əvvəldən, 200 il qabaqdan səhv etdiniz.

Hələ 80-ci illərin sonunda Soljenitsin Qafqazı Rusiyanın "kəsilib atılması" vacib olan "qara yarası" adlandırırdı. Mən bu böyük insanın Puşkin, Lermontov və sairələrin heyran qaldığı bir diyarı niyə "qara yara" adlandırmasının səbəbini bilirəm. Bədəndə yad cism yaşaya bilmədiyi kimi Qafqaz da bu 200 ildə Rusiya ilə vahid orqanizm olmadı. Siz hələ də 20-ci əsr rus patriarxının nəsihətini eşitmirsiniz.

Qafqazda "oyuncaq dövlətləri" yenə 5–10 ildə əldə saxlayın, sonra nə olacaq? Bu torpaqları və orada yaşayanları Sibirə və ya Tayqaya aparası deyilsiz. Əvvəl-axır özünüz çəkilib gedəcəksiz, Mərkəzi və Şərqi Avropadan getdiyiniz kimi. Mən bu xalqların

yenidən bir yerdə firavan yaşayacağına əminəm. O vaxt sizlər heç də xoş təəssüratla xatırlanmayacaqsız. Nifrəti qazanmaq onu unutmaq qədər çətin deyil. Biz hələ də 1989-cu ilin 9 aprelini, 1990-cı ilin 20 yanvarını unuda bilməmişik.

Cənab səfir!

Bizi ram etmək haqda düşünməyin, bizimlə dost olun. Siyasətinizi 180 dərəcə dəyişsəz görərsiz ki, biz nə qədər mehriban, qonaqpərvər və dostcanlıyıq. Bu torpaqlardan heç kim köçüb getməyəcək. Siz bizim mehriban qonşumuz olsanız biz özümüzə dünyanın o başında dost axtarmarıq.

Bir qədər acı sözlərimdən inciməyin. Axı, yazmışdım ki, mən diplomat deyiləm.

Mehriban qonşu olmaq arzusu ilə,
Vahid Qazi

*10 avqust 2008*

*Yazının ruscası yerli mətbuatda dərc olunub.*

# İntibah təməlçiləri

Ömrünü "qızqaytaran" marketlərə bağışlayan Bakı bukinistlərindən 20–25 il əvvəl aldığım, hələ ondan da 20–25 il əvvəl nəşr edilən, artıq yaşı yaşımı haqlamış, səhifələri toz qoxuyan, bəxti üzünə gülüb Ağdama, sonra da yüzlərlə kitaba qarışıb Yerevan Kağız Emalı zavoduna reinkarnasiya (qəşəng sözdü, həm də dəbdədi), yaxud da evimizin ortasında çatılan düşmən ocağına talaşa olmağa getməyib Bakıda qalan kitabları ilin-günün bu vaxtında oxumaq həvəsimin yaranma səbəbini bilmirəm. Tozunu uda-uda arxasına düşüb biriylə bir zamana, o biriylə başqa məkana gedirəm.

Meri Abramsonun "Ot Dante k Alberti" kitabı isə məni italyan İntibahının ilk illərinə apardı...

Cəsarət və ehtiyatlılıq, işgüzarlıq və sərhesablıq, hərtərəfli bilik və geniş dünyagörüşü, zirəklik və diplomat bacarığı tələb olunan ilkin kapitalist münasibətlərinin ortaya çıxardığı sənətkar və tacirlərdən ibarət sosial təbəqənin italyan cəmiyyətinə gətirdiyi yeni ictimai şüurun Renessans adlanan mədəniyyət erasına təməl olacağı o dövrdə kimsənin ağlına gəlməzdi. İnsanların şüur, mədəniyyət, dini baxış və dünyagörüşündə çevriliş edən humanist Avropa intellektual hərəkatının ilk illərində yaranan ictimai münasibətlər, nə qədər qəribə görünsə də, bizim bu günümüzlə səsləşir.

Sitatları mən gətirim, qənaətə özün gəl, dostum oxucu!

Florensiyalı tacir Çertaldo XIV əsrin 60-cı illərində yazırdı: "Səni əhatə edənlərin tamah obyekti olduğundan öz əmlakın uğrunda mübarizə aparmalısan, çünki onu saxlamaq indi azadlığı və ya qadını qorumaqdan daha çətindir", "Əgər xalq etiraz edirsə, çıxmağa tələsmə! Otur evdə, özünü elə apar ki, guya heç nə bilmirsən!".

Onun müasiri Lapo Masseyi: "Bizim kədərli dünyamızda adamların minindən doqquz yüzü mənasız və rəzil düşüncələrə qapılaraq qoyun kimi başını yerə əyib... Hər kəs acgöz, bədbəxt, lovğa, paxıl və yalnız özünə vurğundur, əgər başqasına sevgisini söyləyirsə, bunu tacirlər kimi "Ver mənə, verim sənə" prinsipiylə edir".

Zəmanəsinin məşhur tacir humanisti Morelli: "Başın çıxmayan işlə məşğul olma, aldadacaqlar səni", "Heç vaxt böyük gəlirlərinlə, var-dövlətinlə öyünmə! Tamam əksinə, əgər 1000 florina qazanmısansa, de 500 qazanmışam. Qazancını heç vaxt heç kimə – ən yaxın dostuna, qohumuna belə bildirmə. Vergilərin, xərclərin çoxluğundan şikayət et! Çoxlu borca girdiyini, ticarətdə ziyana düşdüyünü de!", "Həmişə hakimiyyətdəkilərlə təmas qur, iradə və əmrlərinə tabe ol. Onların ən ağılsız əməllərini belə pisləmə; ya sus, ya da yalnız təriflə! Əgər kimsə sözarası belə onların əleyhinə danışsa, qulaq asma və hər vasitəylə uzaqlaş".

Sərfəli nikahı ictimai uğurun əsası sayan B.Pitti: "Eşidəndə ki, Palaco Florensiyanın ən nüfuzlu adamıdır, kimliyi və necəliyindən asılı olmayaraq onun qohumlarından biriylə evlənməyə qərar verdim".

Davam edim? Mənzərə tanış gəlir? Sanki 1360-cı ilin Florensiyası yox, 2010-cu ilin Bakısıdı.

Bəli, dostum oxucu! Məhz bu fikirlərin yiyələri XIV əsrdə İtaliyada yaranıb iki yüz il sonra Avropanın başqa ölkələrinə yayılan böyük İntibahın vacib elementi kimi klassik humanizmin özülünü qoydular. Böyük zəka sahibi olan bu humanistlər tezliklə yaşadıqları torpağın altında min ildir qalan antik mədəniyyəti gördülər, yiyə durub ac ehtirasla öyrəndilər, dərk edib yeni can verdilər. Beləcə, dilimizə Dirçəliş kimi çevirdiyimiz Renessans adlı era başladı.

Yuxarıdakı sitatları tarixin məntiqiylə özümüzə şamil etsək, görərik ki, Azərbaycan bu gün özünün Renessansqabağı dövrünü yaşayır. Kapital da var, onun ilkin dövrünə xas yeni təfəkkür və ictimai münasibətlər də. Qəribə səslənir, elə deyilmi, dostum oxucu? Görürəm, gülürsən... Amma bilmək olmaz!

XIX əsrin ikinci yarısından ilkin kapitalist münasibətlərinin ortaya çıxardığı maarifçi təbəqə sayəsində formalaşan yeni ictimai şüurun yetişdirdiyi Azərbaycan istiqlalçıları da beləcə, əvvəlcə özlərini tanıdılar, sonra milli kimliklərinə sahib çıxdılar, milli-mədəni tarixin tədqiqinə girişdilər, dünyanın inkişaf yolunun Avropanın mədəni, hüquqi, siyasi sistemindən keçdiyini dərk etdilər, yüzillərlə formalaşmış beynəlmiləlçi ümmət doqmasını dağıdıb yerinə Azərbaycan türkü adlı millət təklif etdilər. Azərbaycan Dirçəlişinin özülünü qoydular.

Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan humanistlərinin Dirçəliş ərəfəsi özülqoyma hadisəsi idi!

Prosesi üstünü örtməklə də dayandıra bilmədilər. Tarix üçün yetmiş illik örtük toz kimidi, pencəyinin qoluyla da silərsən, gedər.

Mənəvi aşınma dövründə Dirçəlişdən danışmaq həmişə absurd görünür. Əsas bu deyil, vacib olanı odur ki, nə vaxtsa baş verə biləcək Dirçəlişimizə təməlimiz var. Yanvarın 31-də baş təməlçi Məmməd Əmin Rəsulzadənin doğum günüdü. Martın 6-da isə ölümünün 55 ili tamam olur. Təməlimizə və təməlçilərimizə yiyə dursaq, Dirçələcəyik.

Daha gülmürsən ki, dostum oxucu?!

... Gərək uşaqlarıma yeni kitablar alam, yoxsa 20–25 ildən sonra ciyərləri kitab tozuna tab gətirməz.

*30 yanvar 2010*

# Xilas missiyalı ölüm

Sevdiyim neçə-neçə dostun vətənini qan gölünə çevirən ötən həftəki Qırğızıstan faciəsinə sarsılmışdım. Özü də elə dostların ki, bu ölkə üçün canlarını verməyə hazır olduqlarını dəfələrlə sübut eləyiblər. Mən onların vətənlərində azadlıq ağacı əkmək üçün uzun illər iynəylə quyu qazmalarının şahidi olmuşam. İndi də onların qırılmış xəyal sümüklərinin xırçıltısına şahidlik edirəm.

Qırğızıstandan gələn qara xəbərin tozanağı çəkilməmiş Polşa prezidentinin ölüm sorağı duman kimi hər yanı sardı, bütün dünyanı şoka saldı. Təyyarəsi minlərlə polyak zabitinin uyuduğu Katın yaxınlığında qəzaya uğradı. Prezident Lex Kaçinski 70 il əvvəl verilmiş bir əmrlə qazılan məzarlığa gül qoymağa gedirdi, canını qoydu.

Bu yazıya başlamazdan öncə iki il əvvəl Polşadan gətirdiyim "Katın" filminə baxmışdım. Tək-tük ortaq slavyan sözlərindən savayı polyakca heç nə anlamasam da, filmi tam başa düşmüşdüm. Elə həmin axşam Rusiya telekanallarından birində filmə yenidən baxanda gördüm ki, mahiyyətini birinci seyrdən düz anlamışam. Bunun tək izahı var: sevinclər müxtəlif, dərdlər birdillidi.

***

Xəritədə Katını tapdım. Sonra Bişkekə baxdım. Aralarında adı iri hərflərlə yazılan şəhəri gözüm aldı – MOSKVA...

***

... 2005-ci ildə bizi Lex Kaçinskiylə İrena Lasota tanış eləmişdi. Şəhər meriyasının düzənlədiyi sərgiyə biz də qatılmışdıq. Varşavanın meri prezidentliyə ən real namizədlərdən biriydi. Polyak dostlar ona ümidlə baxır, qalib gələcəyi təqdirdə Polşanın istər daxili, istərsə də xarici siyasətində ciddi dəyişikliklər olacağını deyirdilər. O, gülərüz, hamıyla zarafat edən, səmimi adama bənzəyirdi. Biz şərqlilərdən fərqli olaraq, Qərb adamı, xüsusilə siyasətçisi daim gülümsəyir, istiqanlı görünməyə çalışır, ələlxüsus da seçki ərəfəsində. Siyasətçilərə skeptik yanaşmağım hələ də arzulanan demokratiyanı qura bilmədiyimiz postkommunist ölkənin vətəndaşı olmağımdandı yəqin. Dostlarım isə təkidlə onun fərqli bir siyasətçi, ideya adamı, "Solidarnost" dönəmindən üzüağ çıxmış, bir sözlə, "bizim adam" olduğunu deyirdilər. Dostlara inanmayıb kimə inanasıydım ki?! Həmin il o, prezident seçildi, sonrakı illərdə dostların dediklərini təsdiqləyib başlarını uca elədi.

***

Avropada Polşa qədər başıbəlalı ölkə azdı. Əsrlər boyu yad ordular onun üstündən Şərqdən Qərbə, Qərbdən Şərqə keçib, parçalayıb, bölüb, əsarətdə saxlayıb, insanlarını, ziyalılarını qırıb, şəhərlərini yerlə-yeksan edib. Amma heç kim polyak ruhunu sındıra bilməyib, əksinə, iradəsi dəmir kimi bərkiyərək faşizmə, kommunizmə qarşı mübarizənin önünə

çıxıb, neçə-neçə xalqa azadlıq mayakı olub. Bütün bu iztirablardan sonra insanpərvərliyini saxlamaq (indi Avropa ölkələrini bürüməkdə olan ultramillətçi qüvvələrə orada rast gəlməmişəm, heç eşitməmişəm də), ona zülm edənlərə nifrət bəsləmədən "Avropa hər iki ciyəriylə nəfəs almalıdır" – deyən Roma Papası II Pavelin arzuları yolunda cəsarət göstərmək fenomenal hadisədi, mərhəmət missiyasıdı...

***

Yəqin ki, mətbuat xeyli müddət bu təyyarə qəzasının min-bir səbəbindən yazacaq. Elə o qədər də şübhə hələ uzun illər ürəkləri tərk etməyəcək. Dünyada xeyli sayda "qocalmış" şübhə yaşayır: Mosart şübhəsinin "beli əyilib, çəliklə gəzir"; Kennedinin ölümü hələ "canısulu"du, Ağcanın Papaya atdığı güllənin gilizi soyumayıb. Birinci Katın şübhəsi 70 il çəkdi. İkinci Katın üzərindən şübhə dumanı 70 ilə çəkilərmi görən?

Rusiyalı dissident Valeriya Novodvodskaya əmindir ki, "Lex Kaçinski Gürcüstana dəstəyin, Tbilisiyə edilən qəhrəman səfərin, universitetlərdə Belarus tələbələrinə yer və təqaüd ayırmağın, çeçen qaçqınlarına və saytlarına sığınacaq verməyin, Yaruzelskini ittiham etməyin, antisovet və antikommunist fəaliyyətin, Qərb oriyentasiyalı olmağın, "Katın" filmi, Katınla bağlı sualların və NATO-da fəallığın bədəlini ödəyir..."

O, hamıya Polşanın birləşmiş Avropada yerini göstərdi. Onun Şərqi Avropadakı status və missiyasını təsdiqlətdi.

***

Lex Kaçinski arvadı ilə, hərbçi, siyasətçi, elm və mədəniyyət xadimlərindən ibarət Polşa elitasının bir dəstəsiylə doğma vətəninin sinəsinə çalın-çarpaz dağlar çəkmiş bir ölkənin meşəsində azıb qalan minlərlə həmvətəninin illərlə inləyən ruhunu xilas etməyə getmişdi. 70 il həsrətlə qovrulan qolu kəndirli ruhların azadlıq basırığının yaratdığı sevinc burulğanına düşməklə onları xilas elədi. Öz ruhunu girov qoyub xalqının vuran qolu, düşünən beyni olmuş bir orduluq ruhu əsirlikdən qurtardı. Onları son 200 ilin ən bəxtəvər dövrünü yaşayan Polşaya yola saldı.

... Katın yenə Rusiyanın qərbində ruhlar düşərgəsi olaraq qaldı. Yeni xilaskar gələnədək qalacaq da.

*26 aprel 2010*

*Esse polyak dilinə tərcümə olunaraq Polşa mətbuatında dərc edilib.*

# Cahillər və snoblar

Özümü cəmiyyəti çoxrəngli görmək istəyən, onun çoxsaylı zümrələrin qarşılıqlı təması ilə inkişaf edə biləcəyinə inananlara aid edirəm. Beləl追 sosial təbəqələrin bərabərhüquqlu ünsiyyətini quran bu şərtləri qəbul edənlərdi: işlək Qanun, hamının əməl elədiyi Qayda, bu qanun-qaydalarla yaşamaq Vərdişi, cəmiyyət həyatına hakim kəsilən Ədalət və Əxlaq.

Arzuladığımız cəmiyyət üçün bunlar yetərlidi. Təki hamısı cəm şəklində, birlikdə olsun, birinin, ya ikisinin olması kifayət eləməz, mırıq diş kimi pis görünər. Sadalanan prinsiplər bir-birinə bağlıdı. Halqalardan biri qırılanda zəncirin nizamı pozulan kimi bunların da biri sıradan çıxanda digərləri kəsərini itirir, vaxtilə təmtəraqlı səslənən, indisə arxaikləşən sözlər təki əhəmiyyətsiz ifadəyə çevrilir. Təzəkdə saralan samanın nə vaxtsa yamyaşıl ot olduğunu düşünməklə saman göyərəsi deyil...

Bir ilməsinin qaçmasıyla sökülən xalça kimi dəyərlər sistemi pozulmuş cəmiyyətin sonucu belədi – işləməyən qanun, əməl olunmayan qayda, yadırğanmış vərdiş, üzü sürtülmüş ədalət, pozulmuş əxlaq. Təsvir eləməyə çalışdığımız cəmiyyət azlaylıdı, burada rənglər də çox deyil, yalnız ağ və qaradan ibarətdi. Bu, qətiyyən o anlama gəlməsin ki, ağ yaxşını, qara pisi ehtiva edir. O, nağıllarda qaldı. Eyni mühitdə uzun müddət yaşasa, ağ qaralar, qara da ağarar. "Atı yan-yana bağlasan..." məsəlini mən deməmişəm, müdriklər deyib.

Bütün başqa dəyərləri bir kənara qoyub cəmiyyətin mənəvi düzənindən danışaq. Bugünkü mənəviyyat müstəvisindəki zümrələr bir-birinə qarışmayan iki kimyəvi məhlul kimidi. Söhbəti artıq çoxdan mənəvi tablomuzda başqa rəngləri udub yalnız ağ və qaradan ibarət öz sərhədlərini cızan iki anti-mənəvidən – cahillər və snoblardan salmaq istəyirəm.

Cahil bərk olmadığından qoyduğun yerdə durmaz, aşar. O, maye də deyil, axmır. Qaz da deyil ki, uçub gedə. Bərk, maye, qaz halında olmayan şeyə təbiətdə nə deyirlər, bilmirəm. Cəmiyyətdə isə bunun adını elə cahil bilirəm. Təmtəraqlı səslənməsinə, görüntü yaratmasına baxma, cahilə heç nə təsir eləmir, özü də kiməsə təsir edəsi deyil. Amma mövcuddu. Mövcuddusa, demək, canlıdı, canlıdısa, artandı. Bir şeyin artıb çoxalması üçünsə münasib şərait, münbit zəmin olmalıdı. Cahillərin artıb başına götürdüyü mühitə isə cəhalət deyilir.

… Haqqında bəhs edəcəyim ikinci qrupun adı snobdu. Sürətlə yayılır, gərək dilçilərimiz bu sözün qarşılığını tapa. "Aristokrat cəmiyyətinin zövq və ədalarını kor-koranə təqlid etməyə çalışan və digər hər şeyə xor baxan adam". Lüğətdə snob belə izah olunur. Bir az sadələşdirim: snob mənşəyini guya unudub zahirən zər-ziba içində göz oxşayan, ilk nəfəsdə adamı az qala bihuş edən, ancaq təkrar iyləmədə üfunət qoxuyan, yüngül təmasda yırtıq tuluqdan axırmış kimi çirkab olub üstünə tökülən insan zümrəsidi. O, sağlam cana yoluxa bilməyən virus, gün işığına tab gətirməyən kif göbələyi kimidi. Münbit

yerdə (oxu: xəstə cəmiyyətdə) isə özünü rahat hiss edir, sərbəst dolaşır, epidemiya kimi yayılır.

Cəmiyyət cahillər və snoblardan ibarət iki qütblü kimi görünür. Biri-birlərindən elə məsafədədilər ki, dağ zirvəsindən baxırsanmış kimi əyilsən, başın gicəllənər, bir şey görməzsən. Amma bir-birləriylə təmas qurmadığına, ünsiyyətə girmədiyinə baxma. İkisi də bir boyda, eyni çəkidə, mahiyyətdədi, "bir bezin qıraqları" təkidi. Onların yaşam tərzi də, həyat mənbəyi də eynidi.

***

Hər yerin öz yetirməsi var. Səhra bataqlıq gülü bitirməz, bataqlıq da çöllər gözəli yovşanı. Şehçiçəyi gözəldi. Ləçəkləri çəhrayı, ortasındakı dişiciyi sarı, onu əhatəyə alan erkəkciyisə ağ rəngdə olan bu çiçək göz oxşayır, dərib yaxandan asarsan, sevgilinə çələng hörərsən. Amma bataqlıqda yetişir. Bu da onun taleyidi.

Qanun, qayda, ədalət, əxlaq olmayan yer də bir mühitdi. Burda yalnız cahillər və snoblar bitir, kökü dərinə işləyir, qol-budaq atır, çiçəkləyir, bar verir.

Yerdə qalanlar solur, quruyur, çürüyür...

Çöldə qalanlar isə boğulur, çərləyir, ölür...

*24 iyun 2010*

# Demokratiyanın yarımçıq təbəssümü

Hələ 10 il əvvəl Varşavada Polşanın xarici işlər naziri Bronislav Geremeklə ABŞ-ın dövlət katibi Madlen Olbraytın təşəbbüsü ilə yaradılan Demokratiyalar İcmasının imzalanma törənində bəxtəvər-bəxtəvər gülümsəyib əl çalanda demokratiyanın dünya dolusu böyüyüb icma-icma bütün Yer üzünü tutacağına inanmışdım. Bəlkə (həm də), ona görə ki, dünyanı yönləndirməyə iddialı dövlətin xanım təmsilçisinin mühafizəsindəki boynuyoğun, lay divar oğlanlarla yanaşı, yalan olmasın, bir metr boyunda vahiməli itlər basılmaz qoruqçu təsiri bağışlayırdı. Düşünürdüm ki, demokratiyalar da beləcə mühafizə olunacaq.

İyulun əvvəlində Polşanın bu dəfə başqa bir şəhərində – Krakovda Demokratiyalar İcmasının 10 illik yubileyində iştirak edəndə ta o itləri görmədim. Heç o boynuyoğun, lay divar oğlanlar da gözə dəymədi. Onların yerini adi mühafizəçilər tutmuşdu. Baxmayaraq ki, xanım Madlen Olbrayt da orada idi, onun xələfi, indiki dövlət katibi xanım Hillari Klinton da gəlmişdi, "xalqa çağırış" üslubunda çıxış da elədi. Maraqlı, düşündürücü, lap 10 il əvvəlki sələfinin çıxışı kimi.

***

Demokratiya münbit olmayan torpaqda kövrək bir ağacı bəsləməyə bənzər. Köksüzdü, gücsüzdü, həssasdı, qayğıya ehtiyacı var. Amma tutdumu, cücərib yarpaqladımı, min-min köklü-budaqlı ağacdan da sevimli olacaq. Balasını gec tapan ailənin sevinci kimi.

Demokratiya qarşılıqlı münasibətdə, daim ünsiyyətdə olanların harmonik davranış məkanıdı. İncəlik sevər, qabalıq ona yaddı. Demokratiya elə mexaniki düzümdü ki, iştirakçıların hamısının bu prosesdə rolu və payı var: saat zəngi saatın içindəki irili-xırdalı neçə-neçə detalın bir-birinə bağlı hərəkətinin, "birgə əməyinin" məhsuludu, bir nəfərin qol gücü ilə hərəkətə gəlib çalınan kilsə zəngi deyil.

Demokratiyanın problemi, çətinliyi ondadı ki, o, insanları inandırmalıdı. İnandırmaq demokratiyanın mahiyyətindədi. Avtoritarizm buna ehtiyac duymur. Adamları inandırmaq aldatmaqdan çətindi. (Adamların inanmağa yox, aldanmağa meyilli olması başqa mövzudu, bunu demirəm.) Odur ki, avtoritar idarəetmə demokratik idarəetmədən asandı...

***

Yalnız demokratiya sabit inkişafa, nəsillərdən-nəsillərə ötürülən rifaha təminat verir. Demokratiyasız bazar iqtisadiyyatı mümkün deyil. Bazar iqtisadiyyatı model olaraq başqa yerlərdə də tətbiqə güvənli görünməlidi. Çinin son 30 ildəki nəhəng inkişafı mifdi. Zəngin ərəb ölkələrinin də rifahı "beli

bağlı” deyil. Çünki model olaraq ixraca yaramır. Azad və demokratik olmayan ölkə rifah modeli yarada bilməz.

İqtisadi inkişaf ölkədə urbanizasiyanı gücləndirir. Buna görə avtoritar rejimlər kənddə daha güclüdü. Urbanizasiya avtoritar rejimləri çökdürür. Çinin qüdrətli gələcəyi iqtisadi yüksəlişlə demokratiyanın simbiozundan (biologiyada simbioz belə başa düşülür: iki orqanizmin bir-birindən istifadə edərək müştərək yaşaması) keçir.

***

Bu günün bəlası korrupsiyadı. O, artıq epidemiyaya çevrilib. Kimi bu xəstəliyin daşıyıcısıdı, kimi də yenicə yoluxub. Kimi epidemiyanın kənarında, kimi episentrindədi, biz də elə bura yaxınıq. Korrupsiya demokratiyanın düşmənidi, şoran torpaq bitkilərin qənimi olan kimi. Demokratiyanın kökünü qazsa, korrupsiya qazacaq.

Rusiyanın keçmiş oliqarxı, indiki siyasi məhbusu Mixail Xodorkovski “Vaşinqton Post” qəzetinə göndərdiyi məktubunda belə yazır: “Dünya üçün təhlükə nüvə müharibəsi deyil, korrupsiyadı. Əgər dünya korrupsiyanın qarşısını almasa, korrupsiya dünyanın inkişafını durduracaq”.

Mənim qorxum da elə demokratiyanın korrupsiyalaşması qorxusudu...

***

Konfransda neçə-neçə ölkənin indiki və keçmiş lideri, dünya çaplı siyasətşünaslar, iqtisadçılar, demokratiya fədailəri çıxış edirdi. Bu çıxışlardan son illər dünya boyu demokratiyaya qarşı təhdidlərin nə qədər artdığı aydın görünürdü. Mövqeyi xeyli zəifləsə də, yenə ümid demokratiyayadı. Üzü Birmadan bəri, yönü Kubaya qədər danışanlara mən də qulaq kəsilmişdim. Onlara baxıb 10 il əvvəlimi – demokratiyanın dünya dolusu böyüyüb icma-icma bütün Yer üzünü tutacağına inandığım vaxtı xatırladım. Onlar mənim kimi ümidli görünmürdülər. Dünyanın ən qapalı ölkələrinin təmsilçilərinin üzündəki yarımçıq təbəssümü görəndə demokratiyanın minlərlə tərifinin biri də beləcə yarandı: "Demokratiya ümiddi".

... Krakova səfər xərclərimi Soros Fondu ödədiyindən (sağ olsun) hesabat yazmalı idim. Əvəzində bu yazı alındı...

*16 iyul 2010*

*Qazi Vahid Pərviz oğlu*

**YADDAŞ LƏPİRLƏRİ**

**Demokratiya yazıları**

Bakı, «MHS – poliqraf», 2011

Nəşriyyat redaktoru: Suğra OSMANOVA
Texniki redaktor: Rauf KƏRİMOV
Bədii redaktor: Elnur ƏHMƏDOV
Səhifələyici: Sədaqət KƏRİMOVA

Yığılmağa verilmişdir: 28.06.2011.
Çapa imzalanmışdır: 12.07.2011.
Nəşrin ölçüsü: 57x82 1/16.
Fiziki çap vərəqi: 8,75.
Sifariş: 16. Sayı: 500 ədəd.
Müqavilə qiyməti ilə.

Bakı, Az1122, Zərdabi pr. 78
Tel: (+994 12) 433 86 01
Mob.: (+994 50) 230 99 20, (+994 70) 290 15 05
E-poçtu: mhs.poligraf@gmail.com